Azərbaycan Respublikasının
Auditorlar Palatası

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ FƏALİYYƏTƏ BAŞLAMASININ 30 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ «AUDİTİN İNKİŞAF MƏRHƏLƏLƏRİ: UYĞUNLUQDAN STRATEJİ TƏRƏFDAŞLIĞA VƏ ETİMADA GEDƏN YOL» mövzusunda

BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI

Bakı, 16-17 sentyabr 2026-cı il

***

DEDICATED TO THE 30TH ANNIVERSARY OF THE COMMENCEMENT OF ACTIVITIES OF THE CHAMBER OF AUDITORS OF THE REPUBLIC OF AZERBAIJAN «STAGES OF AUDIT DEVELOPMENT: THE JOURNEY FROM COMPLIANCE TO STRATEGIC PARTNERSHIP AND TRUST»

MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC AND PRACTICAL CONFERENCE

Baku, September 16-17, 2026

«…Azərbaycan Respublikasının Auditorlar Palatası ötən dövr ərzində ölkədə müstəqil audit sisteminin institusional əsaslarının möhkəmləndirilməsi, peşəkar auditor kadrlarının hazırlanması, şəffaflıq və hesabatlılıq mühitinin inkişaf etdirilməsi, habelə beynəlxalq qabaqcıl təcrübəyə uyğun müasir audit modelinin formalaşdırılması istiqamətində olduqca əhəmiyyətli və zəruri işlər görmüşdür. Nəticə etibarilə, auditor xidmətlərinin əhatə dairəsi xeyli nəzərə çarpacaq dərəcədə genişlənmiş, maliyyə hesabatlarının etibarlılığının təmin edilməsində, şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsində və kölgə iqtisadiyyatının azaldılmasında audit institutunun rolu daha da artmışdır».

İlham ƏLIYEV,

Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikasının
Auditorlar Palatası

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ FƏALİYYƏTƏ BAŞLAMASININ 30 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ «AUDİTİN İNKİŞAF MƏRHƏLƏLƏRİ: UYĞUNLUQDAN STRATEJİ TƏRƏFDAŞLIĞA VƏ ETİMADA GEDƏN YOL» mövzusunda

BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI

Bakı, 16-17 sentyabr 2026-ci il

***

«DEDICATED TO THE 30TH ANNIVERSARY OF THE COMMENCEMENT OF ACTIVITIES OF THE CHAMBER OF AUDITORS OF THE REPUBLIC OF AZERBAIJAN «STAGES OF AUDIT DEVELOPMENT: THE JOURNEY FROM COMPLIANCE TO STRATEGIC PARTNERSHIP AND TRUST»

MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC AND PRACTICAL CONFERENCE

Baku, September 16-17, 2026

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri,
Professor Vahid NOVRUZOVUN
ümumi rəhbərliyi və elmi redaktəsi ilə hazırlanmışdır.

Məsul şəxslər: Səbuhi Gülməmmədov
Fəqan Qarayev
Şəfiqə Əsgərova
Afiqə Bayramova

Tərtibçi: Qoşqar Əhmədov

Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol (Beynəlxalq elmi-praktik konfransın materialları)
Bakı, 2026. 228 səhifə.

Kitabda 2026-cı il sentyabrın 16-17-də Auditorlar Palatasının təşkilatçılığı ilə keçirilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları – konfransda səsləndirilmiş və ya Auditorlar Palatasına daxil olmuş məruzələr və tezislər toplanmışdır. Nəşrdə auditin ictimai maraqlarının qorunmasında rolu, dövlət nəzarəti və müstəqil audit arasında qarşılıqlı əlaqə, peşə etikası və müstəqillik prinsipləri, daxili auditin və korporativ idarəetmənin təkmilləşdirilməsi, risklərin idarə olunması, süni intellekt və digər rəqəmsal həllərin tətbiqi, dayanıqlı inkişaf və qeyri-maliyyə hesabatlılığı, eləcə də auditorların peşəkar bilik və bacarıqlarının inkişafı məsələləri, şəffaflığın təmin edilməsində auditin rolu ilə bağlı elmi-praktik yanaşmalar və təkliflər öz əksini tapmışdır. Nəşr audit nəzəriyyəsi və praktikasının inkişafına töhfə vermək, elmi fikir mübadiləsini təşviq etmək və peşəkar təcrübənin paylaşılmasına şərait yaratmaq məqsədi daşıyır.

© Azərbaycan Respublikasının Auditorlar Palatası – 2026

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

"Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Bakıda Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransda səmimi-qəlbdən salamlayıram.

Müstəqil Azərbaycan dövlətinin tərəqqisi və iqtisadi qüdrətinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar çərçivəsində müasir audit institutunun formalaşdırılması və inkişafı xüsusi əhəmiyyət kəsb etmişdir. "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi Ümummilli Lider Heydər Əliyevin demokratik idarəetmə prinsiplərinə və bazar iqtisadiyyatının institusional əsaslarının formalaşdırılmasına verdiyi yüksək önəmin, ölkədə maliyyə intizamının və şəffaflığın, hesabatlılığın təmin edilməsinə xidmət edən uzaqgörən və məqsədyönlü dövlət siyasətinin mühüm təzahürü idi. Həmin Qanuna uyğun olaraq yaradılmış Azərbaycan Respublikasının Auditorlar Palatası ötən dövr ərzində ölkədə müstəqil audit sisteminin institusional əsaslarının möhkəmləndirilməsi, peşəkar auditor kadrlarının hazırlanması, şəffaflıq və hesabatlılıq mühitinin inkişaf etdirilməsi, habelə beynəlxalq qabaqcıl təcrübəyə uyğun müasir audit modelinin formalaşdırılması istiqamətində olduqca əhəmiyyətli və zəruri işlər görmüşdür. Nəticə etibarilə, auditor xidmətlərinin əhatə dairəsi xeyli nəzərə çarpacaq dərəcədə genişlənmiş, maliyyə hesabatlarının etibarlılığının təmin edilməsində, şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsində və kölgə iqtisadiyyatının azaldılmasında audit institutunun rolu daha da artmışdır.

Auditorlar Palatasının yubileyi münasibətilə təşkil olunmuş beynəlxalq konfransın ölkəmizdə auditor peşəsinin son otuz ildə keçdiyi inkişaf yolunun elmi və praktik müstəvidə təhlili, auditor fəaliyyətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi, peşəkar özünüidarəetmə institutunun möhkəmləndirilməsi, keyfiyyətə nəzarət mexanizmlərinin inkişaf etdirilməsi və beynəlxalq audit standartlarının tətbiqi ilə bağlı mühüm məsələlərin müzakirəsi baxımından əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Eyni zamanda, konfrans çərçivəsində audit fəaliyyətinin rəqəmsal transformasiya şəraitində yeni inkişaf istiqamətlərinin, böyük verilənlərin analitikası və süni intellekt texnologiyalarının audit prosesinə inteqrasiyasının, auditin ənənəvi uyğunluq

funksiyasından kənara çıxaraq strateji tərəfdaş və dəyər yaradan institut kimi rolunun genişləndirilməsinin, habelə peşə etikası və ictimai etimad prinsiplərinin möhkəmləndirilməsinin müzakirə olunması müasir dövrün tələbləri baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı və texnoloji transformasiyanın geniş vüsət aldığı müasir şəraitdə audit fəaliyyətinin yeni keyfiyyət mərhələsinə yüksəldilməsi hər bir ölkə qarşısında duran mühüm vəzifələrdən biridir. Bu xüsusda audit fəaliyyətinin rəqəmsal əsaslarda təşkili, süni intellekt və müasir məlumat analitikası alətlərinin tətbiqinin genişləndirilməsi, audit proseslərində şəffaflığın və operativliyin artırılması, habelə beynəlxalq peşəkar standartlara uyğun innovativ audit metodologiyalarının inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi Auditorlar Palatasının fəaliyyətinin səmərəliyi nöqteyi-nəzərindən xüsusi önəm daşıyır. Bununla yanaşı, auditor peşəsinin nüfuzunun və ona olan ictimai etimadın qorunması, yüksək peşəkarlıq və etik davranış prinsiplərinin daha da möhkəmləndirilməsi, habelə peşəkar kadr potensialının gücləndirilməsi qarşıda duran əsas prioritetlər sırasındadır.

Əminəm ki, konfrans çərçivəsində aparılacaq müzakirələr və irəli sürüləcək təşəbbüslər ölkəmizdə auditor fəaliyyətinin daha da təkmilləşdirilməsinə, auditdə rəqəmsal transformasiyanın və süni intellektin tətbiqinə, beynəlxalq əməkdaşlığın genişlənməsinə, audit institutunun nüfuzunun yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə Auditorlar Palatasının kollektivini və konfrans iştirakçılarını bir daha təbrik edir, tədbirin işinə uğurlar arzulayıram.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
Sənəd dövriyyəsi şöbəsi

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, "16" Sentyabr 2026-cı il

Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin və əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illiyi münasibətilə qərara alıram:

Auditor fəaliyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Auditorlar Palatasının aşağıdakı üzvləri və əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayev Akif Ağa oğlu

Axundov Vaqif Xəlil oğlu

Bayramova Lamiyə Qəşəm qızı

Bənnayev Elxan Bəhmən oğlu

Cavadov Vasif Tofiq oğlu

Cəbiyev Hüseyn Kommuna oğlu

Eyvazova Mətanət Gümüş qızı

Əliyev Azər Hüseyn oğlu

Fətiyev Üzeyir Cəmil oğlu

Hacıəzizov İlham İsfəndiyar oğlu

Həsənova Adilə Teymur qızı

Qarayev Fəqan Şakir oğlu

Qurbanlı Ziya Tofiq oğlu

Məmmədov Şahbaz Müseyib oğlu

Süleymanova Elzadə Süleyman qızı

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 sentyabr 2026-cı il

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ FƏALİYYƏTƏ BAŞLAMASININ 30 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ «AUDİTİN İNKİŞAF MƏRHƏLƏLƏRİ: UYĞUNLUQDAN STRATEJİ TƏRƏFDAŞLIĞA VƏ ETİMADA GEDƏN YOL» MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANS İŞTİRAKÇILARI ADINDAN MÜRACİƏT

Azərbaycan Respublikasının Prezidenti

Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident,

Biz - Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedenyol" mövzusunda beynəlxalq elmi-praktik konfransın Azərbaycan, Gürcüstan, İsrail, Qazaxıstan, Latviya, Litva, Moldova, Pakistan, Rusiya Federasiyası, Türkiyə və Özbəkistanı təmsil edən iştirakçıları olaraq, Sizin rəhbərliyinizlə həyata keçirilən ardıcıl və məqsədyönlü dövlət siyasəti nəticəsində Azərbaycanın dinamik sosial-iqtisadi tərəqqi yolunda mühüm nailiyyətlər qazandığını, beynəlxalq nüfuzunun davamlı şəkildə artırılmasını və müasir idarəetmə prinsiplərinə əsaslanan inkişaf modeli ilə regionda və daha geniş coğrafiyada örnək dövlət kimi tanındığını xüsusi ehtiram hissi ilə qeyd edirik və konfransın iştirakçılarına ünvanladığınız təbrik məktubuna görə Sizə dərin minnətdarlığımızı bildiririk. Konfrans iştirakçılarına göstərdiyiniz yüksək diqqət və etimadı bütövlükdə audit peşəsinə verilən böyük dəyərin mühüm ifadəsi kimi qiymətləndiririk.

Zati-alilərinizin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar nəticəsində maliyyə hesabatlılığının etibarlılığı, hesabatvermə mədəniyyəti, şəffaflıq və audit institutunun cəmiyyət və dövlət üçün əhəmiyyəti daha da artmışdır. Böyük qürur hissi ilə qeyd edirik ki, müstəqil Azərbaycanın audit sistemi ölkə rəhbərliyinin dəstəyi ilə mühüm uğurlar qazanmışdır.

Konfrans çərçivəsində aparılan müzakirələr göstərdi ki, qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı, süni intellekt texnologiyalarının, böyük verilənlər analitikasının və rəqəmsal platformaların idarəetmənin ayrılmaz hissəsinə çevrildiyi müasir dövrdə audit institutu da müasir çağırışlara uyğun olaraq yeni keyfiyyət mərhələsində inkişafı mühüm bir zərurətə çevrilmişdir.

Bu baxımdan, Azərbaycanın rəqəmsal inkişaf və beynəlxalq rəqəmsal əməkdaşlıq sahəsində atdığı mühüm addımları xüsusi qeyd etmək istərdik. Ölkənizin 2026-cı il 01 sentyabr tarixində beynəlxalq hökumətlərarası Rəqəmsal Əməkdaşlıq Təşkilatına (DCO) üzvlüyü ilə bağlı atdığı addım Azərbaycanın qlobal rəqəmsal əməkdaşlıq məkanında fəal iştirakının və rəqəmsal iqtisadiyyatın inkişafına verdiyi önəmin göstəricisi kimi qiymətləndirilir.

Rəqəmsal İnkişaf Şurasının yaradılması, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi istiqamətində görülən işlər ölkənizin müasir texnoloji çağırışlara çevik və sistemli şəkildə cavab verdiyini nümayiş etdirir.

Möhtərəm cənab Prezident!

Sizi əmin edirik ki, konfrans iştirakçıları ölkələrimizdə həyata keçirilən iqtisadi siyasətin prioritetlərinə, şəffaflığın və hesabatlılığın daha da gücləndirilməsinə, maliyyə intizamının möhkəmləndirilməsinə və iqtisadiyyatda səmərəliliyin yüksəldilməsinə öz töhfələrini vermək əzmindədirlər.

Bir daha konfrans iştirakçılarına ünvanladığınız dərin məzmunlu və dəyərli tövsiyələri özündə ehtiva edən məktuba, audit peşəsinə və Auditorlar Palatasının fəaliyyətinə göstərdiyiniz yüksək diqqət və dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildirir, Azərbaycanın iqtisadi inkişafının, şəffaf və hesabatlı idarəetmə sisteminin daha da möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyiniz siyasətə bundan sonra da öz töhfəmizi verməyə hazır olduğumuzu bəyan edirik.

Müraciət Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçıları tərəfindən qəbul edilmişdir.

Bakı şəhəri, 16 sentyabr 2026-cı il

KONFRANSDA TƏMSİL OLUNMUŞ QURUMLAR

- Azərbaycan Respublikasının Milli Məclisi
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti
- Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti
- Azərbaycan Respublikasının Mərkəzi Bankı
- Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidməti
- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi
- Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi
- Azərbaycan Respublikasının Hesablama Palatası
- Azərbaycan Respublikasının Auditorlar Palatası
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası
- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası
- Azərbaycan Milli Elmlər Akademiyası
- Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
- Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
- Bakı Dövlət Universiteti
- Bakı Biznes Universiteti
- Azərbaycan İqtisadçilar İttifaqı
- Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası
- Azərbaycan Mühasibat və Risk Peşəkarları Assosiasiyası
- “Konstitusiya” Araşdırmalar Fondu
- Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA)
- Beynəlxalq Mühasiblər Federasiyası (IFAC)
- Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA)
- Türkiyənin İctimai Nəzarət, Mühasibat və Audit Standartları Təşkilati (KGK)
- Türkiyə Sərbəst Mühasiblər və Andlı Maliyyə Müşavirləri Palataları Birliyi (TÜRMOB)
- Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP)
- İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu (İCPAİ)
- Rusiya Federasiyasının Peşəkar Mühasiblər, Maliyyə Menecerləri və İqtisadçıların Milli İnstitutu
- Litva Auditorlar Palatası
- Latviya Sertifikatlaşdırılmış Auditorlar Assosiasiyası
- Qazaxıstan Respublikası Auditorlar Palatası
- Özbəkistan Auditorlar Palatası
- Özbəkistan Milli Mühasiblər və Auditorlar Assosiasiyası
- Özbəkistan “TTT-Audit” şirkəti
- Gürcüstan Respublikası Maliyyə Nazirliyinin Mühasibat Uçotu, Hesabatlılıq və Auditə Nəzarət Xidməti
- Gürcüstan Mühasiblər, Auditorlar və Məsləhətçilər Cəmiyyəti
- Gürcüstan Mühasiblər Birliyi
- Moldova Peşəkar Mühasiblər və Auditorlar Assosiasiyası

MÜNDƏRİCAT

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən konfrans iştirakçilara müraciət **5**

Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin və əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **7**

Konfrans iştirakçiları adından müraciət **8**

Konfransda təmsil olunmuş qurumlar **10**

Vahid Novruzov. Ön söz **12**

Azər Əmiraslanov. Auditin inkişafı institusional islahatların mühüm istiqaməti kimi **16**

Hayrettin Kurt. Türkiye mevzuatında kamu gözetimi rejimi **18**

Zaur Fəti-Zadə. Maliyyə kəşfiyyatı və audit: şəffaf maliyyə sisteminin təmin edilməsində institusional əməkdaşlıq **22**

İrfan Huseyin Yıldız. Güvenin mimarları: düzenlemeler ve teknolojideki yoğun dönüşüm ışığında, denetimde 30 yıllık birikim ve mali müşavirliğin yeni ufukları **24**

Samiullah Siddiqui. Audit in the age of Artificial Intelligence and digital disruption **28**

Chen Schreiber. The impact of Artificial Intelligence on the counting and auditing profession **39**

Orxan Nəzərli. Müasir vergi inzibatçılığında auditin rolu **41**

Vaida Kacergiene. Sustainable Audit in the Modern Era: Strategic Trust & Compliance **44**

Minovar Tulaxocayeva. Происхождение, создание и развитие искусственного интеллекта, как неотъемлемой части бухгалтерского учёта и аудита в Узбекистане **55**

Dmitriy Yakovenko. Система внутреннего контроля и аудита организации, как фундамент, формирующий доверие **72**

Nemətulla Kərimov. Audit prosesində süni intellektdən istifadə imkanları **82**

Heybət İmanov. Sosial müdafiə sahəsində audit və şəffaflıq: elektronlaşan xidmətlər və ictimai etimadın formalaşan yeni modeli **96**

Nahid Rzayev. Daxili audit sahəsində gələcəyə baxış: perspektiv inkişaf istiqamətləri, texnoloji yeniliklər və gözləntilər **112**

Tornike Dzagnidze. Audıt regulatory system ın Georgıa. **114**

Tata Beridze. The Era of Intelligent Audit: Cross-Border Accounting on the New Silk Road in the Age of Global Progress **120**

Mahammad Botirov. Эволюция аудита в Узбекистане. От институциональных реформ к стратегическому партнерству, цифровизации и доверию **123**

Georgi Rusiashvili. Проблема ИИ для бухгалтеров и человеческие навыки, которые ИИ не может заменить **138**

Mələk Abbaslı. Audit etimad infrastrukturunun əsası kimi: dəyişən iqtisadiyyatda auditorların inkişaf edən rolu **142**

Georgeta Covaliov – Rusu. AUDİT Əməliyyatı və ya Süni İntellekt və digər yeniliklər: Peşənin rəqəmsal transformasiyasına praktiki baxış **147**

Rita Espenbetova. Стандарты устойчивого развития IFRS S1/S2: Что меняется для аудитора, руководства и Совета директоров **177**

Bəxtiyar İsmayılov. Müasir auditin uyğunluq nəzarətindən strateji tərəfdaşlıq və ictimai etimada transformasiyası **191**
Azər Quliyev. İnkişaf etməkdə olan iqtisadiyyatlarda korporativ borc bazarlarının inkişafı: Azərbaycan və seçilmiş bazarlar üzrə müqayisəli təhlil **198**
Fidan Qurbanova. Azərbaycan Respublikası mühasibat uçotu təcrübəsində və Beynəlxalq Maliyyə Hesabatları Standartları sistemində sahibkarlıq subyektlərinin innovativ (Tədqiqat) fəaliyyətinin nəticəsi olan qeyri-maddi aktivlərin uçotunun metodları **213**
Vahid Novruzov. Yekun çıxış **218**
Tövsiyələr (Recommendations) **219**

ÖN SÖZ

Hörmətli xanımlar və cənablar,

Əziz qonaqlar!

Sizləri Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyində ürəkdən salamlayıram və dəvətimizi qəbul edib tədbirimizə qatıldığınıza görə dərin minnətdarlığımı bildirirəm. İlk öncə bizlərə ünvanlanmış dərin məzmunlu və dəyərli tövsiyələri özündə ehtiva edən təbrik məktubuna görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev cənablarına təşəkkür etməyi özümə böyük şərəf sayıram.

Əziz dostlar!

Auditorlar Palatası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü il 16 sentyabr tarixində, məhz bu gün imzaladığı "Auditor xidməti haqqında" qanuna əsasən 1996-cı ildə yaradılmış və qanunvericiliyə uyğun olaraq ölkəmizdə auditor xidmətinin təşkili və tənzimlənməsi sahəsində öz fəaliyyətini uğurla davam etdirməkdədir. Azərbaycan Prezidenti cənab İlham Əliyev "Auditor xidməti haqqında" Qanunun qəbul edilməsini "ümummilli liderimiz Heydər Əliyevin bazar iqtisadiyyatına keçid istiqamətində həyata keçirdiyi siyasətin, cəmiyyətdə maliyyə şəffaflığının təmin olunmasında və bazar infrastrukturları sistemində auditə verdiyi qiymətin parlaq təzahürü" kimi dəyərləndirmişdir. Ulu öndər Heydər Əliyev qanunsuz yoxlama və müdaxilə halları ilə audit arasında hüquqi sədd çəkmiş, müstəqil auditin mühüm bazar infrastrukturu və şəffaflığın təminatçısı kimi mahiyyətini və zəruriliyini hələ müstəqilliyimizin ilk illərində imzaladığı bir sıra fərman və sərəncamlarda təsbit etmişdir.

Hörmətli tədbir iştirakçıları!

Ötən 30 il ərzində Azərbaycan auditinin əldə etdiyi uğurlar, onun dövlət başçımızın sözlər ilə desək, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət etməsi ilk növbədə ölkəmizdə auditin inkişafına yaradılan münbit şəraitin mövcudluğu ilə əlaqədardır ki, buna görə də, Azərbaycan auditorları ilk növbədə ölkə rəhbərliyinə minnətdardırlar. Prezidentimiz tərəfindən son 23 ildə dəfələrlə təbrik edilən Palatanın 30-dan çox əməkdaşı və üzvü dövlətimizin orden və medalları ilə təltif olunmuşdur. Qətiyyətlə deyə bilərəm ki, belə diqqət və qayğı dünyanın heç bir ölkəsinin auditorlarına müyəssər olmamışdır.

Onu da əminliklə söyləmək olar ki, müstəqil audit Azərbaycanın bazar yönümlü iqtisadi strukturları sistemində möhkəm yer tutmuş, özünü əsil mənada müstəqil, maliyyə nəzarəti sistemi kimi təsdiqləmiş, ölkədə şəffaflığın təmin edilməsinə nail olmaq istiqamətində özünəməxsus töhfələr vermişdir. Bunu yubileyimiz münasibətilə bizə ünvanlanmış təbriklərdə ifadə olunmuş çox dəyərli fikirlər də bir daha təsdiqləyir. Biz həmin təbriklərin müəlliflərinə yüksək ehtiram və təşəkkürlərimizi ifadə edirik.

Fürsətdən istifadə edərək bu yubiley günündə uğurlarımızın əsas müəlliflərinə - Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarına və sərbəst auditorlara, Palata əməkdaşlarına ölkəmizdə auditin inkişafına verdikləri töhfəyə görə təşəkkür edirəm. Bizlər üçün çox şərəfverici bir haldır ki, Auditorlar Palatası ötən on illiklərdə öz fəaliyyətini Azərbaycan Prezidentinin proqram xarakterli, dəyərli tövsiyə və tapşırıqlarına uyğun olaraq həyata keçirərək ölkəmizin maliyyə arxitekturasında etimadın qoruyucu sütunlarından biri kimi mühüm mövqe qazana bilmişdir.

Məhz ölkə rəhbərliyinin qayğısı sayəsində Azərbaycan Auditorlar Palatası beynəlxalq səviyyədə tanınmış və dünya audit aləminə uğurla inteqrasiya etmişdir. Bu baxımdan, 2010-cu ildən ölkənin audit sistemində Beynəlxalq Standartların tətbiqinə başlanılmasını, Auditor xidmətinin inkişafına dair bir-birini tamamlayan üç inkişaf Konsepsiyasının işlənib

hazırlanmasını və reallaşdırılmasını, Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) kimi nüfuzlu beynəlxalq peşəkar qurumlara tam hüquqlu üzvlüyə qəbul olunmasını və onların işində fəal iştirakını, qabaqcıl audit təcrübəsinin ölkəmizdə tətbiqinə nail olmaq məqsədi ilə dünyanın 40-dan artıq ölkəsinin audit və mühasibatlıq qurumları ilə işgüzar əlaqələr qurulmasını və digər nailiyyətləri qeyd edə bilərik.

Dəyərli qonaqlar!

Auditorlar Palatasının 30 illik yubileyi əvvəlki yubileylərimizdən fərqli bir cəhətlə səciyyələnir. Fəxrlə qeyd etmək istəyirik ki, bu yubiley Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun şücaəti və qəhrəmanlığı sayəsində qazanılmış Böyük Zəfərin uğurlarının reallaşdığı və suverenliyimizin tam bərpa edildiyi bir dövrə təsadüf edir. Yeni dövr Böyük Qayıdışın və genişmiqyaslı quruculuq işlərinin vüsət aldığı, əldə olunmuş şanlı qələbənin regionda davamlı sülhə və əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verdiyi bir dövrdür.

Bəli, bu gün Azərbaycan ictimai-siyasi cəhətdən sabit, iqtisadi gücü sürətlə artan və irimiqyaslı layihələr icra edən bir ölkədir. Bu sahədə daha böyük uğurlara imza atmaq üçün idarəetmə sisteminin ən mühüm alətlərindən olan hesabatlılıq və şəffaflığın gücləndirilməsinin böyük əhəmiyyəti vardır. Bu baxımdan bizlərin də üzərinə yeni dövrün çağırışları kontekstində mühüm vəzifə və öhdəliklər düşür.

Fikrimizcə, müasir dövrdə bizlər üçün ən aktual problemlərdən biri peşəkar düşüncə tərzinin transformasiyasıdır – yəni bizlərin yalnız reaktiv və uyğunluq yönümlü mövqedən çıxaraq proaktiv və fəal düşüncə tərzinə keçməyimizdir. Etiraf etmək lazımdır ki, əksər hallarda auditorlar hələ də müşahidə edən nəzarətçi rolunda ən yaxşı halda yalnız qanunsuz davranışların qarşısını almağa xidmət edirlər. Belə yanaşma isə rahatlıq yaratsa da, artıq kifayət etmir. Bu isə o deməkdir ki, müşahidə edən auditor qəsdən fırıldaqçılıq edən şəxsin qarşısında ciddi müdafiə səddi və mexanizmi kimi durmur. Bu səbəbdən təmsil etdiyimiz peşə daha irəli getməlidir.

Təsadüfi deyildir ki, XXI əsrdə Mühasibatlıq və Auditin devizi: “Nəzarətdən – etibara keçid” olmalıdır - kimi konseptual baxış dünya çapında özünə daha möhkəm mövqe qazanmaqdadır. Başqa sözlə, Peşəkar skeptisizmə sadəcə uyğunluq öhdəliyi kimi deyil, həqiqi araşdırma, gizli olanı axtarmaq fəaliyyəti kimi yanaşılmalıdır. Məhz belə olduqda mühasib və auditorlar ölkələrinin iqtisadi sağlamlığında maraqlı tərəf kimi etibar və etimad qazana bilər.

Hörmətli həmkarlar!

Bununla yanaşı bizlərdən yalnız yüksək bilik yox, həm də Peşə Etikasına əməl edilməsi tələb olunur. Fikrimcə, sübuta ehtiyac yoxdur ki, peşə etikası hər bir sahənin nüfuzunu müəyyən edən əsas amildir. Biz qəbul etməliyik ki, mənsub olduğumuz peşə maliyyə idarəçiliyinin etibarlı idarə olunması məsuliyyətini daşıyır və qanuna uyğun olan hər davranış etik baxımdan düzgün olmaya bilər. Bu baxımdan, audit fəaliyyətinin effektivliyi auditorun yalnız qanunvericiliyin tələblərinə riayət etməsindən deyil, eyni zamanda peşə etikası prinsiplərinə sadiqliyindən asılıdır.

Əziz dostlar!

Kadr hazırlığı siyasətimizin yeni dövrün çağırışları nöqteyi- nəzərindən köklü islahatlara ehtiyacı olduğunu hamımız hiss etməkdəyik. Gələcəyə hazır auditorlar özlərini yalnız maliyyə hesabatlarının təsdiqediciləri kimi deyil, korporativ idarəetmənin keyfiyyətinə fəal töhfə verən şəxslər kimi görməlidirlər. Bu heç də həmişə belə olmur. Nə etməli? sualını cavablandırarkən ilk növbədə bəzi məqamlar nəzərə alınmalıdır.

Tədris proqramlarının baş verən (və verəcək) dəyişikliklərdən geri qalması real boşluqdur və onun aradan qaldırılması üçün daha çevik, yeni elmi və praktiki nailiyyətləri özündə paralel olaraq ehtiva edən tədris proqramı hazırlama yanaşması tələb olunur. Yüksək peşəkarlıq nümayiş etdirmək üçün biz Palata olaraq yeni və inkişaf edən sahələrdə geniş sertifikatlaşdırma və kvalifikasiyadan sonrakı kurslar vasitəsilə ömürboyu öyrənməyə sadiqliyi gücləndirməyə çalışırıq. Bu baxımdan bir tərəfdən süni intellekt, dayanıqlılıq hesabatlılığı, məhkəmə-auditi (forenzik audit), risklərin idarə edilməsi, rəqəmsal təminat kimi sahələr üzrə sertifikasiya təlimləri həyata keçirir, digər tərəfdən isə qabaqcıl xarici təcrübənin öyrənilməsinə və tətbiqinə, beynəlxalq qurumlarla əməkdaşlığa üstünlük veririk.

Söylədiklərimə misal olaraq göstərə bilərəm ki, bu günlərdə Azərbaycanda iqtisadi cinayətlərin qarşısının alınması və onunla mübarizə layihəsi üzrə Auditorlar Palatası, Avropa Şurası və Avropa İttifaqının təşkilatçılığı ilə "Əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi riskləri mövzusunda Auditorlar üçün 3 günlük seminar keçirilmişdir. Seminarda 200-ə yaxın sərbəst auditor və auditor təşkilatlarının nümayəndələri iştirak etmişdir.

Daha bir nümunə olaraq deyə bilərəm ki, Auditorlar Palatası audit və maliyyə nəzarəti sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilmsəi istiqamətində növbəti nailiyyət əldə edərək Sertifikatlı Dələduzluq Müfəttişləri Assosiasiyası (ACFE) tərəfindən həyata keçirilən Hüquq-Mühafizə və Dövlət Qurumları İttifaqının (LEGA) proqramına 2026-cı il 24 aprel tarixində rəsmi üzv qəbul olunmuşdur.

Hörmətli tədbir iştirakçıları!

Vaxtın məhdud olmasına baxmayaraq, artıq qədəm qoyduğumuz süni intellekt və avtomatlaşdırma dövründə auditin, elə mühasibatlığın da gələcəyindən danışmamaq düzgün olmazdı. Əminliklə demək olar ki, süni intellekt mühasibləri və auditorları əvəz etməyəcək, bunun əvəzinə, peşələrimizin mahiyyətini əsaslı şəkildə dəyişdirəcək və bizlərdən yeni bacarıq və kompetensiyaların formalaşdırılmasını tələb edəcək və edir də!

Bunu da nəzərə almaq lazımdır ki, süni intellekt bəzilərinin fikirləşdikləri kimi yalnız təkrarlanan işləri əvəz etməklə məhdudlaşmır. O, fasiləsiz audit, bütün məlumat toplusunun yoxlanılması kimi üstünlüklər əsasında auditorların qərarvermə qabiliyyətini gücləndirmək, hesabat və rəylərin keyfiyyətini yüksəltmək və daha geniş anlamda isə iqtisadiyyata səmərəliliyi artırmaq potensialına malikdir.

Eyni zamanda bilməliyik ki, rəqəmsallaşma və Süni İntellektin tətbiqi bizim fəaliyyət sahəsində müsbət rol oynamaqla yanaşı, həm də ciddi problemlər və artıq hiss etdiyimiz maliyyə fırıldaqçılığı və kibercinayətkarlıq hallarının yaranmasına və yayılmasına da şərait yaradır. Bütün dünya üçün xarakterik olan bu vəziyyət ölkə rəhbərliyinin diqqət mərkəzində qalmaqdadır. Bu ilin fevral ayındakı çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev vurğulamışdır ki, "kibertəhlükəsizlik kritik sahələrdən biridir....Ona görə də bu sahəyə ciddi diqqət göstərilməlidir".

Prezidentin 2026-cı il 27 fevral tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılmış və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Şuranın rəhbəri təyin edilmişdir. Şura tərəfindən ölkədə rəqəmsal inkişaf və transformasiyanın sürətləndirilməsi, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi və rəqəmsal idarəetmənin inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Sevindirici haldır ki, bir neçə gün bundan əvvəl sentyabr 1 də Azərbaycan Rəqəmsal Əməkdaşlıq Təşkilatına – DCO-ya üzv qəbul edilmişdir.

Biz də Auditorlar Palatası olaraq ölkəmizdə həyata keçirilən rəqəmsal transformasiya prosesinə öz töhfəmizi verməyi, qarşımızda duran vəzifə və öhdəlikləri vaxtında, keyfiyyətlə və müasir tələblərə uyğun şəkildə icra etməyi özümüzə borc bilirik. Son bir neçə il ərzində

Auditorlar Palatası tərəfindən rəqəmsal transformasiya istiqamətində bir sıra mühüm layihələr həyata keçirilmişdir.

Hazırda audit prosesinin süni intellekt texnologiyalarından istifadə etməklə həyata keçirilməsi, audit risklərinin əvvəlcədən qiymətləndirilməsi, məlumatların təhlili və potensial risklərin müəyyənləşdirilməsi istiqamətində müvafiq işlər aparılır. Bu məqsədlə müasir texnologiyalara əsaslanan yeni informasiya sisteminin yaradılması da nəzərdə tutulur.

Əziz qonaqlar!

Biz təkcə 30 ildə əldə edilən nailiyyətlərlə kifayətlənməyərək uğurla inkişaf edən müstəqil Azərbaycanın iqtisadi tərəqqisi sayəsində çox mühüm vəzifələrin icrasını qarşıya məqsəd qoymuşuq. Əminəm ki, Auditorlar Palatasının kollektivi və üzvləri həmin vəzifələrin icrasını vaxtında və keyfiyyətlə təmin etməklə müstəqil Azərbaycan Respublikasının inkişafına və onun iqtisadi qüdrətinin gücləndirilməsinə xidmət edəcəklər.

Çıxışımın sonunda dəyərli üzvlərimizi ən yüksək dürüstlük və peşə standartlarına riayət etməyə, ictimai etimadı daha da gücləndirməyə və müstəqil auditin milli iqtisadiyyatımızın tərəqqisinə verdiyi davamlı töhfəni inkişaf etdirməyə çağırıram. Əminəm ki, müstəqil audit Azərbaycanın iqtisadi gələcəyinin formalaşmasında mühüm rol oynamağa davam edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

Vahid NOVRUZOV,

Azərbaycan Respublikası

Auditorlar Palatasının sədri,

iqtisad elmləri doktoru, professor

AUDİTİN İNKİŞAFI İNSTİTUSİONAL İSLAHATLARIN MÜHÜM İSTİQAMƏTİ KİMİ

Azər ƏMİRASLANOV,
Azərbaycan Respublikası Milli Məclisinin
İqtisadi siyasət, sənaye və
sahibkarlıq komitəsinin sədri

Hörmətli Vahid müəllim!

Hörmətli konfrans iştirakçıları!

Xanımlar və cənablar!

İlk növbədə, bütün iştirakçıları, o cümlədən ölkəmizə təşrif buyurmuş xarici qonaqları salamlayır və beynəlxalq elmi-praktik konfransın işinə uğurlar arzulayıram. Dəvətə görə xüsusi olaraq təşəkkür edirəm. Bugünkü konfrans əlamətdar bir hadisəyə – Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyinə həsr olunmuşdur. Bu münasibətlə Palatanın rəhbərliyini və bütün kollektivini, eləcə də ölkəmizin auditor ictimaiyyətini ürəkdən təbrik edirəm.

Auditorlar Palatasının yaradılması, təşəkkülü və institusional inkişafı istiqamətində uzun illər ərzində göstərdiyiniz səmərəli və ardıcıl fəaliyyət xüsusi qeyd olunmalıdır. Müstəqil audit institutunun formalaşdırılması sahəsində xidmətləriniz dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş və Siz möhtərəm cənab Prezident tərəfindən "Şöhrət" ordeni ilə təltif olunmusunuz.

Eyni zamanda, Sizin elmi və akademik fəaliyyətiniz, məsələlərə iqtisadçı alim kimi yanaşmanız Palatanın fəaliyyətində də özünü göstərir. Auditin yalnız praktiki məsələlərinə deyil, həm də onun konseptual və elmi-metodoloji əsaslarına daim diqqət yetirilməsi, kadr hazırlığına xüsusi əhəmiyyət verilməsi, auditə dair dərslik və tədris vəsaitlərinin hazırlanması, çoxsaylı elmi-praktik tədbirlərin təşkili bunu bir daha təsdiq edir.

Həmçinin, Milli Məclisin iqtisadi qanunvericilik şöbəsinin müdiri kimi qazandığınız çoxillik təcrübə müstəqil audit sisteminin normativ-hüquqi bazasının yaradılmasında müstəsna rol oynamışdır.

İştirak etdiyimiz konfransın beynəlxalq tədbir kimi keçirilməsi heç də təsadüfi deyil. Belə ki, ötən 30 il ərzində Auditorlar Palatası beynəlxalq əlaqələrini genişləndirmiş, qabaqcıl təcrübənin və beynəlxalq standartların öyrənilməsi, onların milli audit sistemində tətbiqi istiqamətində mühüm işlər həyata keçirmişdir.

Bugünkü konfransın mövzusu – "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" – ölkəmizdə audit institutunun keçdiyi transformasiyanın mahiyyətini çox dəqiq ifadə edir. Bu transformasiya həyata keçirilən institusional və iqtisadi islahatların məntiqi ilə də bilavasitə bağlıdır. Burada mühüm bir qarşılıqlı əlaqəni xüsusilə vurğulamaq istərdim. İnstitusional islahatlar keyfiyyətli auditin inkişafına şərait yaradır, keyfiyyətli audit isə islahatların ardıcıl və davamlı həyata keçirilməsinə töhfə verir. Bu mənada audit institusional islahatları sadəcə müşayiət etmir, həm də onların mühüm elementlərindən biri kimi çıxış edir.

Keyfiyyətli audit biznes mühitində etimadın güclənməsinə xidmət etdiyi kimi, əlverişli biznes mühiti də audit sisteminin inkişafına təkan verir. Audit fəaliyyəti intellektual biznesin mühüm sahələrindən biri olduğuna görə, sahibkarlığın inkişafı meyilləri və biznes mühitinin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüslər təbii olaraq audit fəaliyyətinə də təsir göstərir.

Ölkəmizdə korporativ idarəetmənin inkişafı, özəl sektorun iqtisadiyyatda rolunun genişləndirilməsi və kapital bazarının inkişafı audit qarşısında yeni vəzifələr müəyyən edir.

Xüsusilə dövlət-özəl tərəfdaşlığının inkişafını qeyd etmək istərdim. Dövlət-özəl tərəfdaşlığı mahiyyət etibarilə dövlət və biznes arasında yeni iqtisadi münasibətlər sistemidir. Bu münasibətlər çərçivəsində ictimai maraqlar, dövlətin öhdəlikləri, özəl kapital, kommersiya maraqları, uzunmüddətli maliyyə axınları və risklərin bölüşdürülməsi bir layihə çərçivəsində birləşir və uzlaşdırılır. Bu cür çoxşaxəli iqtisadi münasibətlər sistemində şəffaflıq, hesabatlılıq və maliyyə məlumatlarının etibarlılığı xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, dövlət-özəl tərəfdaşlığının inkişafı, bir tərəfdən, müstəqil audit xidmətlərinə yüksək tələbat formalaşdırır, digər tərəfdən isə dövlət auditi ilə müstəqil audit arasında bir-birini tamamlayan yeni əməkdaşlıq müstəvisi yaradır.

Dövlət auditi ilə müstəqil audit arasında əməkdaşlıq ölkəmizdə dövlət maliyyəsinin idarə edilməsi və maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar fonunda xüsusi aktuallıq kəsb edir. Müasir auditin qarşısında duran ən mühüm transformasiyalardan biri rəqəmsallaşma ilə bağlıdır. Rəqəmsal iqtisadiyyat inkişaf etdikcə auditin obyekti, metodları və alətləri də dəyişir. Əgər ötən 30 ilin əsas vəzifəsi Azərbaycanda müstəqil audit institutunun yaradılması olmuşdursa, qarşıdakı mərhələnin əsas hədəfi bu institutu rəqəmsal iqtisadiyyatın, müasir korporativ idarəetmənin və institusional islahatların strateji tərəfdaşına çevirməkdir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi olaraq, Auditorlar Palatası ilə bundan sonra da əməkdaşlıq etməyə, audit qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı Palatanın təkliflərini və peşəkar təşəbbüslərini dəstəkləməyə hazır olduğumuzu bildiririk. Sonda bir daha Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyi münasibətilə Sizi, Palatanın kollektivini və bütövlükdə ölkəmizin auditor ictimaiyyətini ürəkdən təbrik edirəm.

Müstəqil, peşəkar və rəqəmsal audit institutunun inkişafı sahəsində qarşıdakı onilliklərdə də Sizə yeni-yeni uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm!

TÜRKİYE MEVZUATINDA KAMU GÖZETİMİ REJİMİ

Hayrettin KURT,
Türkiyənin İctimai Nəzarət,
Mühasibat və Audit Standartları Təşkilatın
(KGK) vitse-prezidenti

Saygıdeğer Azerbaycan Denetçiler Odası Başkanı,

Değerli katılımcılar,

Kıymetli meslektaşlar!

Sözlerime başlamadan önce hepinizi şahsım, kurumum ve devletim adına selamlıyorum.

Bugün Türk hukukunda kamu gözetimi rejimini, Kamu Gözetimi, Muhasebe ve Denetim Standartları Kurumu yani KGK üzerinden ele almak istiyorum. Fakat konuyu teknik bir denetim hukuku başlığı yanında kamu gözetimini Türkiye'nin sanayi politikası, enerji dönüşümü, maden ekonomisi, Paris Anlaşması, uluslararası ticaret ve gelecek dönemin finansman düzeni içinde değerlendireceğim.

Konuya iki cümleyle başlamak isterim. Denetçi işletmeyi denetlemekte, kamu gözetimi ise denetimin güvenilirliğini denetlemektedir. Bugün buna üçüncü bir cümle eklemek gerekmektedir: Güvenilir denetim, uluslararası ticaretin ve sermaye hareketlerinin görünmeyen altyapılarından birini oluşturmaktadır.

Bir ülke kaliteli mal üretebilir, büyük enerji yatırımları yapabilir, stratejik madenlere sahip olabilir. Buna karşılık finansal bilgi, emisyon verisi ve sürdürülebilirlik açıklaması uluslararası yatırımcı bakımından güvenilir değilse sermayenin maliyeti yükselmekte, dış ticaret işlemleri zorlaşmakta ve şirketin küresel değer zincirindeki konumu zayıflamaktadır.

Türkiye bugün büyük bir üretim ve ticaret ekonomisi niteliği taşımaktadır. TÜİK verilerine göre ekonomi 2025 yılında yüzde 3,7 büyümüştür. 2026 yılının ikinci çeyreğinde yıllık büyüme yüzde 2,3 olarak gerçekleşmiş, sanayi sektörü aynı dönemde yüzde 2,4 büyümüştür. Bu rakamlar, küresel jeopolitik belirsizliklerin ve enerji maliyetlerinin arttığı bir dönemde üretim kapasitesinin devam ettiğini göstermektedir.

Dış ticaret verileri de Türkiye'nin sanayi karakterini açık biçimde ortaya koymaktadır. 2026 yılının Ocak-Temmuz döneminde mal ihracatı yaklaşık 161,5 milyar dolara ulaşmıştır. Aynı dönemde ihracatın yüzde 93,9'unu imalat sanayi ürünleri oluşturmuştur. Fakat yüksek teknoloji ürünlerinin imalat sanayi ihracatı içindeki payı yüzde 3,7 düzeyindedir. Aynı yedi aylık dönemde dış ticaret açığı yaklaşık 60,5 milyar dolar olarak gerçekleşmiştir.

Bu tablo iki yönlü okunmalıdır. Bir tarafta güçlü üretim, sanayi ve ihracat kapasitesi bulunmaktadır. Diğer tarafta daha yüksek katma değer, daha düşük enerji ithalatı, daha düşük karbon yoğunluğu ve daha güvenilir kurumsal veri ihtiyacı bulunmaktadır. Önümüzdeki dönemde rekabet, fiyat ve kalite üzerinden yürümeye devam edecektir. Buna karbon yoğunluğu, tedarik zinciri şeffaflığı, finansal rapor güvenilirliği ve sürdürülebilirlik verisinin doğrulanabilirliği de eklenmektedir.

Türkiye, Paris Anlaşmasına 10 Kasım 2021 tarihinde taraf olmuştur ve 2053 net sıfır emisyon hedefini benimsemiştir. 2025 yılında Birleşmiş Milletlere sunulan İkinci Ulusal Katkı Beyanı, 2035 yılı bakımından yeni bir eşik getirmektedir. Türkiye, referans senaryodaki 1.109 milyon ton karbondioksit eşdeğeri emisyon seviyesine kıyasla 466 milyon ton azaltım

sağlamayı ve toplam sera gazı emisyonlarını 2035 yılında 643 milyon ton karbondioksit eşdeğeri ile sınırlamayı hedeflemektedir.

Bu hedef, çevre politikasının sınırlarını aşmaktadır. Enerjinin hangi kaynaktan üretileceğini, sanayinin hangi teknolojiyle dönüşeceğini, bankanın hangi projeyi finanse edeceğini, ihracatçının Avrupa pazarına hangi maliyetle gireceğini ve yatırımcının şirket riskini nasıl fiyatlayacağını etkilemektedir.

Türkiye'nin 7552 sayılı İklim Kanunu ile 2025 yılında kurduğu yeni hukuki çerçeve de bu dönüşümün göstergesidir. Kanun, emisyon ticaret sistemi, karbon piyasaları, gömülü emisyonlar ve yeşil dönüşüm bakımından yeni bir düzenleyici alan oluşturmaktadır. Böylece iklim yükümlülüğü şirketin çevre biriminde tutulan teknik bir dosya olmaktan çıkmakta, yönetim kurulu, finansman, yatırım ve uluslararası ticaret kararlarının içine girmektedir.

Bu noktada 1 Ocak 2026 tarihi ayrıca önem taşımaktadır. Avrupa Birliği Sınırda Karbon Düzenleme Mekanizması mali yükümlülük dönemine geçmiştir. Demir-çelik, alüminyum, çimento, gübre, elektrik ve hidrojen gibi sektörlerde gömülü emisyon artık doğrudan ticari maliyet üretmektedir. Türkiye, 2023-2025 raporlama döneminde AB'ye kütle bakımından en fazla SKDM ürünü ihraç eden ikinci ülke olmuştur. Bu nedenle karbon verisinin doğruluğu, Türk sanayisi için teorik bir sürdürülebilirlik meselesi değildir; pazar erişimi meselesidir.

Enerji tarafındaki dönüşüm dikkat çekicidir. Enerji ve Tabii Kaynaklar Bakanlığı verilerine göre Türkiye'nin elektrik kurulu gücü Temmuz 2026 sonunda 126 bin 476 megavata ulaşmıştır. Yenilenebilir kaynakların payı yüzde 62,8'dir. Güneş ve rüzgârın toplam payı yüzde 33,8 seviyesindedir. Türkiye Ulusal Enerji Planı, elektrik tüketiminin 2030'da 455 teravatsaat, 2035'te 510 teravatsaat düzeyine çıkacağını öngörmektedir.

Bu artış iki yükümlülüğü aynı anda büyütmektedir. Yeni üretim kapasitesinin kurulması gerekmektedir. Kurulan kapasitenin finansmanı, karbon etkisi, çevresel riski ve uzun dönemli ekonomik dayanıklılığı hakkında güvenilir veri üretilmesi de gerekmektedir. Bir güneş veya rüzgâr projesinin finansmanında teknik fizibiliteye ek olarak nakit akışı, iklim riski, tedarik zinciri, emisyon etkisi ve kurumsal yönetişim de kredi dosyasının parçası hâline gelmektedir.

Madencilik bakımından da benzer bir dönüşüm yaşanmaktadır. Türkiye bor üretiminde küresel lider konumdadır. 2025 yılı bor ihracatı 1,15 milyar dolara yaklaşmıştır. Nadir toprak elementleri, lityum, bakır ve diğer kritik hammaddeler enerji dönüşümünün yeni stratejik girdileri hâline gelmektedir. Türkiye, kritik ve stratejik mineraller için yeni bir yol haritası hazırlamaktadır.

Fakat geleceğin maden ekonomisinde rezervin varlığı tek başına yeterli olmayacaktır. Rezervin hangi çevresel maliyetle çıkarıldığı, rehabilitasyon yükümlülüklerinin finansal tablolara nasıl yansıtıldığı, su ve enerji kullanımının nasıl ölçüldüğü, tedarik zincirinin nasıl izlendiği ve sürdürülebilirlik iddialarının hangi güvence sisteminden geçtiği yatırım kararının parçası olacaktır.

İşte KGK'nın kamu gözetimi işlevi bu makroekonomik çerçevede anlam kazanmaktadır. Türk hukukunda kamu gözetimi, bağımsız denetim mesleğine ilişkin idari kontrol mekanizması olmanın ötesinde, piyasaya sunulan kurumsal bilginin güvenilirliğini destekleyen bir düzenleyici altyapı oluşturmaktadır.

6102 sayılı Türk Ticaret Kanunu bağımsız denetimi şirketler hukukunun güvence araçlarından biri olarak düzenlemektedir. 660 sayılı Kanun Hükmünde Kararname ise standart belirleme, yetkilendirme, sicil, kalite güvence, gözetim, inceleme ve yaptırım fonksiyonlarını KGK çatısı altında toplamaktadır.

Kamu gözetimi altı temel fonksiyon üzerinden işlemektedir: standart koyma, denetçi ve denetim kuruluşlarını yetkilendirme, sicil ve sürekli gözetim, etik ve kalite yönetimi, denetim

dosyalarının incelenmesi ve idari yaptırım. Bu sistemin ekonomik anlamı açıktır. Bir yatırımcı veya banka, denetim raporunun arkasında denetçiyi yetkilendiren, standardı belirleyen, kaliteyi inceleyen ve gerektiğinde yaptırım uygulayan bağımsız bir kamu otoritesi bulunduğunu görmektedir.

Sürdürülebilirlik raporlaması bu yapıyı daha ileri bir noktaya taşımaktadır. KGK, Türkiye Sürdürülebilirlik Raporlama Standartlarını yayımlamış ve sürdürülebilirlik güvence denetimine ilişkin kurumsal çerçeveyi geliştirmektedir. 2026 Türkiye Denetim Standartları setinde GDS 3000 ve sera gazı beyanlarına ilişkin GDS 3410 yürürlüktedir. SGDS 5000 ile daha kapsamlı sürdürülebilirlik güvence mimarisinin oluşturulmasına yönelik düzenleme çalışmaları sürmektedir.

Burada kurumlar arası yetki ayrımını da doğru kurmak gerekmektedir. Bir sanayi tesisinin Emisyon Ticaret Sistemi veya Sınırda Karbon Düzenleme Mekanizması bakımından sera gazı emisyon doğrulaması ile şirketin TSRS kapsamında sunduğu kurumsal sürdürülebilirlik bilgilerinin güvence denetimi farklı hukuki işlemlerdir. Birinci hat tesis ve ürün düzeyindeki emisyon verisine odaklanmaktadır.

İkinci hat şirketin yatırımcıya sunduğu sürdürülebilirlik bilgisinin güvenilirliğine odaklanmaktadır. Farklı düzenleyici hatların ortak ihtiyacı ise ölçülebilir, izlenebilir ve doğrulanabilir veridir.

Birinci örnek demir-çelik sektörüdür. Türkiye'de üretilen çelik Almanya'ya ihraç edilmektedir. AB ithalatçısı, ürünün gömülü emisyonuyla bağlantılı SKDM yükümlülüğü taşımaktadır. Türk üreticinin enerji kaynağı, emisyon yoğunluğu ve doğrulanmış verisi artık satış fiyatını etkileyebilmektedir. Aynı şirket uluslararası bankadan dönüşüm kredisi talep ettiğinde banka bu kez şirketin finansal tablolarını, iklim riskini ve dönüşüm planını incelemektedir. Finansal denetim, emisyon doğrulaması ve sürdürülebilirlik güvencesi ayrı hukuki mekanizmalar olarak aynı ekonomik işlem zincirinde buluşmaktadır.

İkinci örnek yenilenebilir enerji finansmanıdır. Türkiye'de büyük bir güneş yatırımı gerçekleştiren şirketin yabancı bir bankadan uzun vadeli kredi istediğini düşünelim. Banka projenin üretim kapasitesine bakmaktadır. Bunun yanında borçlunun denetlenmiş finansal tablolarını, iklim risklerini, tedarik zincirini, çevresel yükümlülüklerini ve sürdürülebilirlik açıklamalarını da incelemektedir. Bu bilgilerin uluslararası standartlarla uyumlu biçimde hazırlanması ve güvence denetimine tabi tutulması bilgi asimetrisini azaltmaktadır. Kamu gözetimi ise güvenceyi sağlayan denetim sisteminin kurumsal güvenilirliğini desteklemektedir.

Üçüncü örnek madenciliktir. Kritik mineral projesi geliştiren bir Türk şirketi uluslararası ortak veya proje finansmanı aramaktadır. Yatırımcı, cevher rezervinin ekonomik değerinin yanında çevresel rehabilitasyon karşılığını, enerji ve su tüketimini, izin riskini, karbon etkisini ve uzun vadeli yükümlülükleri değerlendirmektedir. Bu alanlarda güvenilir finansal ve sürdürülebilirlik verisi üretemeyen şirket, güçlü rezerv varlığına rağmen daha pahalı sermayeyle karşılaşabilmektedir.

Bu nedenle yeni dönemin ticari formülü şu şekilde kurulmaktadır: Üretim kapasitesi + doğrulanabilir veri + güvenilir denetim + etkin kamu gözetimi = daha güçlü pazar erişimi ve daha düşük bilgi riski.

Bu çerçevenin Türk dünyası bakımından ayrıca değerlendirilmesi gerekmektedir. Türkiye'de faaliyet gösteren bir sanayi şirketinin Azerbaycan veya Özbekistan bankasından yatırım kredisi talep ettiğini düşünelim. Bankanın temel ihtiyacı, kredi kararını güvenilir veri üzerinden verebilmektir. Finansal tabloların hangi standarda göre hazırlandığı, denetçinin hangi standartla çalıştığı, denetçinin hangi kamu otoritesi tarafından gözetildiği ve sürdürülebilirlik verisinin nasıl güvenceye bağlandığı bu nedenle sınır ötesi finansmanın temel soruları hâline gelmektedir.

Sınır ötesi finansmandaki bu soru işaretlerini ortadan kaldıracak anahtar, Birlik tüzüğümüzde de yer alan eşdeğerlik değerlendirmesi ve karşılıklı tanınma maddesidir. Bu adımla üye ülkeler arasında bir finansal güven zemini oluşturulacaktır. Bu sayede şirketlerimiz ve meslek mensuplarımız, Türk dünyasının her köşesinde kendi evindeymiş gibi hareket edebilecek, sınır ötesi yatırımlar ve ticari entegrasyonumuz hız kazanacaktır.

Türk Devletleri arasında finansal raporlama, sürdürülebilirlik raporlaması, bağımsız denetim, kamu gözetimi, eşdeğerlik ve karşılıklı tanıma alanlarında geliştirilecek ortak mekanizmalar kredi kararını bankaya bırakmakta; bilgi maliyetini azaltabilmekte, denetim raporlarının kullanılabilirliğini artırabilmekte ve bölgesel sermayenin şirketler arasında daha güvenli dolaşmasına katkı sağlayabilmektedir. Bu nedenle kamu gözetimi, Türk dünyasında finansal entegrasyonun teknik altyapılarından biri olarak da okunabilir.

Önümüzdeki on yıllık dönemde uluslararası ticaretin üç yeni filtreden geçeceği öngörülmektedir. Birinci filtre karbon maliyetidir. AB SKDM 2026'da mali aşamaya geçmiştir. Birleşik Krallık da 1 Ocak 2027 itibarıyla kendi sınırda karbon düzenlemesini uygulamaya hazırlanmaktadır. Karbon fiyatlaması giderek ticaret politikasının parçası hâline gelmektedir.

İkinci filtre finansmandır. Bankalar ve kurumsal yatırımcılar, iklim riskini şirketin kredi ve değerleme modeline daha fazla dahil etmektedir. Bu nedenle düşük karbonlu üretim kadar bu üretimin güvenilir veriyle ispat edilmesi de önem kazanmaktadır.

Üçüncü filtre teknolojik ve kurumsal katma değerdir. Türkiye'nin yüksek teknoloji ihracat payını artırması, enerji ithalat bağımlılığını azaltması ve kritik hammaddeleri işleyerek daha yüksek katma değerli ürünlere dönüştürmesi gerekmektedir. Bu dönüşümün finansmanı için uluslararası sermayenin güveneceği finansal raporlama ve sürdürülebilirlik veri altyapısının güçlendirilmesi gerekmektedir.

Цифровая трансформация экономики Узбекистана и перспективы внедрения ИИ

В последние годы Республика Узбекистан проводит последовательную политику цифровой трансформации государственного управления и экономики. Важным этапом стало принятие Стратегии «Цифровой Узбекистан – 2030», предусматривающей широкое внедрение современных информационно - коммуникационных технологий, развитие цифровой инфраструктуры, электронных государственных услуг и цифровой экономики.

Реализация данной стратегии способствует созданию благоприятных условий для внедрения технологий искусственного интеллекта в бухгалтерский учёт, аудит и финансовый контроль.

Изменения в сфере налогового администрирования



В стране внедрены электронные счета-фактуры, онлайн-кассовые аппараты, система электронного документооборота, электронная налоговая отчётность и цифровые сервисы налогового администрирования.



Важным направлением цифровизации является деятельность Налогового комитета Республики Узбекистан, который активно внедряет риск - ориентированные методы налогового контроля, автоматизированный анализ налоговой отчётности и современные цифровые платформы.



Использование элементов искусственного интеллекта позволяет выявлять аномальные финансовые операции, оценивать налоговые риски и повышать эффективность государственного финансового контроля.

Развитие электронного правительства оказывает положительное влияние на совершенствование бухгалтерского учёта и аудита. Интеграция государственных информационных систем способствует повышению прозрачности финансовой деятельности организаций, сокращению объёма бумажного документооборота и созданию единого цифрового пространства для обмена финансовой информацией между предприятиями и государственными органами.

Вместе с тем дальнейшее внедрение искусственного интеллекта в бухгалтерскую и аудиторскую деятельность Республики Узбекистан требует решения ряда актуальных задач.

К ним относятся повышение уровня цифровых компетенций бухгалтеров и аудиторов, совершенствование нормативно-правовой базы, развитие механизмов защиты персональных данных и коммерческой информации, обеспечение кибербезопасности, а также разработка национальных стандартов использования искусственного интеллекта в финансовой сфере.

Внедрение искусственного интеллекта для развития аудиторских организаций Республики Узбекистан

Рост количества аудиторских организаций и увеличение объёмов цифровой финансовой информации обусловливают необходимость более широкого применения технологий искусственного интеллекта. Современные аудиторские организации Республики Узбекистан постепенно внедряют программные решения для автоматизированного анализа бухгалтерских данных, оценки аудиторских рисков, проверки соответствия требованиям законодательства, выявления аномальных операций и формирования аналитических отчётов.

Реформирование аудиторской деятельности сопровождается усилением требований к качеству оказываемых услуг, развитию системы внешнего контроля качества и повышению профессиональной квалификации аудиторов. В этих условиях искусственный интеллект становится не заменой профессионального суждения аудитора, а инструментом, позволяющим повысить эффективность аудиторских процедур, обеспечить непрерывный мониторинг финансовой информации и укрепить доверие пользователей к результатам аудита.

Применение технологий искусственного интеллекта в аудите позволит перейти от автоматизации отдельных учётных операций к созданию интеллектуальных систем поддержки принятия управленческих решений.

Такие системы смогут автоматически:

- анализировать финансовые показатели организаций;
- прогнозировать денежные потоки;
- оценивать вероятность возникновения финансовых рисков;
- выявлять признаки мошенничества;
- формировать рекомендации для руководства предприятий.

Заключение

Искусственный интеллект становится неотъемлемой частью современного бухгалтерского учёта и аудита.

Внедрение технологий искусственного интеллекта способствует автоматизации учётных процессов, повышению качества финансовой отчётности, совершенствованию аудиторских процедур и укреплению прозрачности финансовой деятельности организаций.

Для Республики Узбекистан применение искусственного интеллекта является важным элементом цифровой трансформации экономики и повышения конкурентоспособности национальной финансовой системы.

Успешное внедрение ИИ требует дальнейшего развития цифровой инфраструктуры, подготовки квалифицированных кадров, совершенствования законодательства и обеспечения информационной безопасности.

AI вас не заменит.

Тот, кто использует AI, сможет.

Станьте этим человеком.

СИСТЕМА ВНУТРЕННЕГО КОНТРОЛЯ И АУДИТА ОРГАНИЗАЦИИ, КАК ФУНДАМЕНТ, ФОРМИРУЮЩИЙ ДОВЕРИЕ

Dmitriy YAKOVENKO,

Rusiya Federasiyasının Peşəkar Mühasiblər,

Maliyyə Menecerləri və İqtisadçıların Milli

İnstitutunun fəxri prezidenti, professor

Для того, чтобы простроить дорожную карту мероприятий, способствующих достижению баланса интересов и систему доверия между собственниками и внешним независимым аудитом мы должны, на наш взгляд, хорошо понимать какой информацией владеет перед тем, как он обратится за помощью и советом к внешнему независимому аудитору.

В частном корпоративном секторе России давно сложилась законодательно установленная система, когда собственники на своем собрании выбирают ревизионную комиссию. В зависимости от величины компании и численность ревизионной комиссии, и интенсивность ее работы может быть различной. В России допускается оплата работы некоторых или всех членов Ревизионной комиссии, таким образом это звено контроля может быть профессиональной деятельностью.

Посте банкротства корпораций Enron и Worldcom и выхода в США закона – Сарбэйнс-Оксли акта в России в рамках внедрения лучшей практики в публичных компаниях стали создавать комитеты по аудиту и сейчас в России они есть во всех крупных компаниях.

Если мы возьмем государственный и муниципальный сектора экономики, то там система контроля, организуемого собственником, еще более многоступенчатая. Весь контроль распределяется по уровню и полномочиям между менеджментом и представителями собственника.

Менеджмент организаций, входящих в число участников бюджетного процесса (органы власти и казенные учреждения), организует: внутренний финансовый контроль и внутренний финансовый аудит в объемах и полномочиях, закрепленных в статье 160.2-1 Бюджетного кодекса РФ. При этом одной из функций внутреннего финансового аудита бюджетной организации выступает оценка надежности внутреннего финансового контроля этой организации.

В крупных компаниях с государственным участием (публично-правовые компании, государственные компании и государственные корпорации) в обязательном порядке должны быть созданы подразделения внутреннего контроля и внутреннего аудита. При этом руководителя подразделения внутреннего аудита назначает Совет директоров, а не менеджмент.




Рисунок 1. Органы управления, аудита и контроля крупных компаний с государственным участием: система подчиненности и информационные потоки.

Со стороны собственника осуществляется, как минимум, тройной контроль:

- в акционерных обществах с государственным участием формируются ревизионные комиссии, часть членов которых может привлекаться к проверкам на оплачиваемой основе;
- ведомственный контроль со стороны органа власти, который выполняет функции учредителя или предоставляет финансовые ресурсы (как правило, в форме субсидий);
- внутренний финансовый контроль, который осуществляется специализированным органом исполнительной власти (как правило, это казначейский орган);
- внешний финансовый аудит, который осуществляется Контрольно-счетными органами власти и является информационным источником, прежде всего, для законодательной ветви власти.

Такая многоступенчатая система устанавливает для каждого звена свои задачи, свой уровень компетенции и свои обязанности, в которых это звено отвечает на отдельный, стоящий перед ним вопрос.



Рисунок 2. Задачи системы внутреннего контроля.




Рисунок 3. Полномочия службы внутреннего аудита




Рисунок 5. Права и обязанности службы внутреннего аудита

Например:

1) Внутренний финансовый контроль внутри участника бюджетного процесса призван предоставить информацию менеджменту о том, что при совершении каждой бюджетной процедуры соблюдены все формальные требования для того, чтобы быть уверенным в том, что процедура совершена без ошибок и нарушений действующих порядков.

2) Ведомственный контроль дает ответы на вопросы о целевом и правомерном использовании предоставленных из бюджета финансовых ресурсов.




Рисунок 5. Ведомственный контроль в бюджетной сфере

3) Внешний финансовый аудит, прежде всего, отвечает на вопрос об эффективности использования ресурсов и достижении стратегических целей, которые были поставлены при выделении ресурсов.

Для чего мы так подробно описывали систему контроля и аудита организации? Для того, чтобы сказать, что стратегическое партнерство и доверие возникают тогда, когда стороны в этом заинтересованы. В чем заинтересован заказчик внешнего независимого аудита? Получить востребованную информацию, которую он от перечисленных выше источников получить в полном объеме не может.

Вопрос, который у меня возникает при таком выводе: Создают ли МСА обязанность аудитора в формировании такой информации и дают ли МСА возможность предоставить такую информацию? На мой взгляд, система формальных оговорок, получившая свое окончательное оформление после банкротства фирмы Артур Андерсен и принятая в настоящее время в редакция МСА в отношении обязательного аудита, не позволяют сформировать документ, однозначно дающий ответы на вопросы собственника.

Означает ли это диагноз: обязательный аудит скорее мертв, чем жив в России? Возможно. И, на мой взгляд, однозначно: аудиторские фирмы, не занимающиеся инициативным аудитом и широким спектром консалтинговых услуг, могут остаться за бортом.

Система внутреннего контроля и аудита организации, как фундамент, формирующий доверие

Яковенко Дмитрий Анатольевич,
почетный президент НИПБ (Россия),
к.э.н., профессор, действительный государственный
советник Российской Федерации III класса

Система внутреннего контроля в корпоративном секторе в России

I. Ревизионная комиссия	ст. 85 закона «Об акционерных обществах»
II. Комитет по аудиту	рекомендации Центрального банка Российской Федерации

79

Система внутреннего контроля в общественном секторе в России

Контроль со стороны менеджмента:

1. **внутренний финансовый контроль** (Бюджетный кодекс РФ);
2. **внутренний финансовый аудит** (Бюджетный кодекс РФ);
3. **подразделение внутреннего контроля** (законодательство о публично-правовых компаниях, государственных компаниях и государственных корпорациях).

80

Система внутреннего контроля в общественном секторе в России

Контроль со стороны собственника:

1. **Ревизионные комиссии;**
   (ст. 85 закона «Об акционерных обществах»)
2. **Комитеты по аудиту;**
   (законодательство об акционерных обществах, о публично-правовых компаниях, государственных компаниях и государственных корпорациях)
3. **подразделения внутреннего аудита;**
   (законодательство о публично-правовых компаниях, государственных компаниях и государственных корпорациях)
4. **ведомственный контроль органа исполнительной власти, представляющего интересы учредителя (общий и в сфере закупок);**
5. **внешний государственный (муниципальный) финансовый аудит;**
6. **внутренний государственный (муниципальный) финансовый контроль.**

Потребители информации внешнего независимого аудита

Пользователи информации независимого аудита	Получают информацию только от независимого аудита	Получают аналогичную по объему информацию из иных источников
Инвесторы	да	нет
Банки	возможно	возможно
Контрагенты (поставщики, подрядчики)	да	нет
Потенциальные инвесторы и партнеры	да	нет
Собственник	нет	да
Государственные органы	нет	да

AUDİT PROSESİNDƏ SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ İMKANLARI

Nemətulla KƏRİMOV,

Özbəkistan Auditorlar Palatası Şurasının sədri



Kontekst: niyə məhz indi

Süni intellektin auditdə tətbiqini qaçılmaz edən üç amil

1

Məlumatların həcmi

Uçot sistemləri bir dövr ərzində milyonlarla mühasibat yazılışı formalaşdırır. Seçmə yanaşma əhəmiyyətli təhrif riskini getdikcə daha az əhatə edir.

2

Bazarın gözləntiləri

Tənzimləyicilər, audit komitələri və investorlar daha dərin təhlil və anomaliyaların erkən aşkarlanmasını gözləyirlər.

3

Texnologiyaların yetkinliyi

Dil modelləri və analitik platformalar iri kapital qoyuluşu olmadan təşkilatlar üçün əlçatan olmuşdur.

Süni intellekt auditorun peşəkar mühakiməsini əvəz etmir — o, bu mühakimənin əsaslandığı sübutların həcmini genişləndirir.

Audit yanaşmasında nə dəyişir

	Ənənəvi yanaşma	Süni intellektlə audit
Testləşdirmənin əhatəsi	30–60 elementdən ibarət seçmə	**Əməliyyatların 100 %-i**
Risklərin aşkarlanması	Retrospektiv, təcrübə əsasında	**Anomaliya və kənarlaşma modelləri**
Sənədlərlə iş	Müqavilələrin əl ilə oxunması	**Şərtlərin avtomatik çıxarılması və tutuşdurulması**
İşçi sənədlər	Əl ilə doldurulur	**Məlumatlar əsasında avtomatik formalaşır**
Auditorun rolu	Məlumatların toplanması və emalı	**Qiymətləndirmə, mühakimə, ünsiyyət**

Süni intellekt audit tapşırığının mərhələlərində

Müştərinin qəbulundan auditor rəyinin formalaşdırılmasınadək



Hər bir mərhələdə modelin nəticəsi BAS 500-ə uyğun etibarlılıq qiymətləndirməsi tələb edən audit sübutu olaraq qalır.

Əsas tətbiq ssenariləri

Yazılışların tam təhlili

Qeyri-tipik müxabirələşmələrin, iş vaxtından kənar əl yazılışlarının və yuvarlaqlaşdırılmış məbləğlərin aşkarlanması

Dələduzluğun aşkarlanması

Davranış modelləri, təkrar ödənişlər, fiktiv kontragentlər, Benford testi

Müqavilələrin təhlili

MHBS 15 və MHBS 16 üçün əhəmiyyətli şərtlərin çıxarılması, uçot yazılışları ilə tutuşdurulması

Təsdiqləmələr və ilkin sənədlər

Qaimələrin, aktların, bank çıxarışlarının tanınması və avtomatik tutuşdurulması

Analitik prosedurlar

Gəlir və xərclər üzrə proqnoz modelləri, gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi

Sənədləşdirmənin hazırlanması

İşçi sənədlərin, memorandumların, məktubların və hesabat bölmələrinin ilkin variantları

Əməliyyatlar jurnalının tam təhlili

Müştərinin yazılışlar massivində modelin iş məntiqi nümunəsi

1

Yükləmə

Əməliyyatlar jurnalının uçot sistemindən tam yüklənməsi, tamlığa nəzarət və dövriyyə-qalıq cədvəli ilə tutuşdurulma

2

Profilləşdirmə

Normal əməliyyatların profilinin qurulması: tipik müxabirələşmələr, məbləğlər, istifadəçilər, dövrlər

3

Kənarlaşmaların aşkarlanması

Əməliyyatların qeyri-adilik dərəcəsinə görə sıralanması; testləşdirmə üçün hovuzun formalaşdırılması

4

Auditor tərəfindən yoxlama

Yüksək riskli seçmə mahiyyət üzrə yoxlanılır; nəticələr işçi sənədlərdə sənədləşdirilir

Bu nə verir

- seçmə əvəzinə əməliyyatların 100 %-nin əhatəsi
- seçmənin sənədləşdirilmiş əsaslandırılması
- dələduzluq əlamətlərinin erkən aşkarlanması
- prosedurun ildən-ilə təkrarlana bilməsi

Sənədlər və mətnlə iş

Dil modelləri komandanı ən zəhmətli rutin işdən azad edir

Müqavilələr

Müddətlərin, dərəcələrin, uzatma opsiyalarının, icra öhdəliklərinin çıxarılması; gəlirin və icarənin tanınmasının yoxlanılması

İlkin sənədlər

Skanların tanınması, uçot yazılışları ilə tutuşdurulması, çatışmayan təsdiqləmələrin aşkarlanması

Protokollar və yazışmalar

Hesabat tarixindən sonrakı hadisələrin, məhkəmə risklərinin, əlaqəli tərəflərlə əməliyyatların axtarışı


Hesabatda açıqlamalar

Qeydlərin MHBS tələbləri ilə tutuşdurulması və göstəricilərin daxili uzlaşmasının yoxlanılması

Məhdudiyyət: dil modelinin istənilən nəticəsi auditor tərəfindən ilkin mənbə üzrə yoxlanılmalıdır.

Tətbiqin effekti

Tipik audit tapşırığı üzrə əmək məsrəflərinin təxmini yenidən bölüşdürülməsi



≈ 30 %

məlumatların hazırlanmasına sərf olunan vaxtın azalması

100 %

əməliyyatların analitik prosedurlarla əhatəsi

Daha yüksək

sübut bazasının və sənədləşdirmənin keyfiyyəti

Göstəricilər illüstrativ xarakter daşıyır və müştərinin məlumatlarının yetkinliyindən asılıdır.

06

Risklər və məhdudiyyətlər

Lazımi nəzarət olmadan tətbiq yeni əhəmiyyətli təhrif riski yaradır

Modelin qeyri-dəqiq cavabları

Generativ modellər inandırıcı, lakin yanlış nəticələr verə bilər

Məlumatların məxfiliyi

Müştəri məlumatlarının xarici servislərə ötürülməsi lazımi təminatlar olmadan yolverilməzdir

Alqoritmin qeyri-şəffaflığı

Auditor əldə edilmiş nəticənin məntiqini anlamalı və izah edə bilməlidir

İlkin məlumatların keyfiyyəti

Uçot sistemindən natamam yükləmə sonrakı istənilən təhlili dəyərsizləşdirir

Meyllilik və qərəzlilik

Model təlim məlumatlarındakı təhrifləri miras alır

Komandanın kompetensiyaları

Heyətin təlimi və İT mütəxəssislərinin tapşırıqda iştirakı tələb olunur

Standartların və etikanın tələbləri

Süni intellektin tətbiqi auditorun vəzifələrini dəyişmir

BAS 315	Müştərinin informasiya sisteminin, o cümlədən istifadə etdiyi alqoritm və modellərin anlaşılması	**BAS 500**	Süni intellektlə əldə edilmiş informasiyanın audit sübutu kimi münasibliyinin və etibarlılığının qiymətləndirilməsi
BAS 520	Analitik prosedurlar: gözləntilərin əsaslandırılması və aşkarlanmış kənarlaşmaların qiymətləndirilməsi	**BAS 230**	Tətbiq edilmiş alətlərin, parametrlərin və nəticələrin işçi sənədlərdə sənədləşdirilməsi
KİBS 1	Təşkilatın istifadə etdiyi texnologiya və resurslara dair siyasət və prosedurları	**IESBA Məcəlləsi**	Məxfilik, peşəkar sərişdə və lazımi diqqətlilik

ISA Assistant

Özbəkistan Auditorlar Palatasının işləməsi — beynəlxalq audit standartları üzrə intellektual köməkçi

Skan edin

Məqsəd

BAS tələblərini praktik auditorlar, daxili auditorlar, müəllimlər və audit komitələri üçün peşəkar suala birbaşa cavab formasında əlçatan etmək

Necə işləyir

İstifadəçi standart və ya praktiki vəziyyət üzrə sual verir və standartların müvafiq bəndlərinə istinadla cavab alır

Kimə ünvanlanıb

Audit təşkilatları, daxili audit xidmətləri, tədris mərkəzləri və ali məktəblər, audit komitələrinin üzvləri, tənzimləyici orqanlar

Tətbiq hüdudları

Cavablar məlumat-arayış xarakteri daşıyır və standartın mətnini, rəsmi izahları və auditorun peşəkar mühakiməsini əvəz etmir. Qəbul edilmiş qərara görə məsuliyyət auditorun üzərində qalır.

Beynəlxalq əməkdaşlıq

Özbəkistan Auditorlar Palatasının Azərbaycan Auditorlar Palatasının yubileyi münasibətilə təşəbbüsü

ISA Assistant-a əvəzsiz giriş

Azərbaycan Auditorlar Palatasının yubileyini qeyd edərək, Özbəkistan Auditorlar Palatası qardaş ölkənin auditorlarına razılaşdırılmış müddət ərzində ISA Assistant-a əvəzsiz giriş açır.

Verilmə qaydası	Giriş Azərbaycan Auditorlar Palatası vasitəsilə — təşkilatın üzvləri üçün, ikitərəfli məktub əsasında verilir
Peşəkar məna	Peşəkar təşkilatların həmrəylik jesti və regionda BAS-ın vahid anlaşılmasına töhfə
Təşəbbüsün inkişafı	Əks əlaqə mübadiləsi, lokallaşdırma və əməkdaşlığın genişləndirilməsi, o cümlədən türk dövlətlərinin təşkilatları birliyi çərçivəsində

Düzgün rəsmiləşdirmə şərtləri

- təşəbbüs kommersiya aksiyası kimi deyil, Palatanın qərarı kimi rəsmiləşdirilir
- ünvan ayrı-ayrı istifadəçilər deyil, peşəkar təşkilatdır
- interfeys dili və alətin əsaslandığı standartların redaksiyası göstərilir
- cavabların arayış xarakteri barədə qeyd saxlanılır
- girişin müddəti və uzadılma qaydası yazılı şəkildə müəyyən edilir

Palatanın növbəti addımları

Mərhələ 1 • 0–3 ay	Mərhələ 2 • 3–6 ay	Mərhələ 3 • 6–12 ay	Mərhələ 4 • 12+ ay
Hazırlığın qiymətləndirilməsi Palata üzvlərinin təcrübəsinin öyrənilməsi, audit fəaliyyətində süni intellektin istifadəsi siyasətinin hazırlanması	**Metodiki izahlar** BAS 230 və KİBS 1-ə uyğun olaraq süni intellektlə yerinə yetirilən prosedurların sənədləşdirilməsi üzrə tövsiyələr	**Təlim və inkişaf** İxtisasartırma proqramları, ISA Assistant-ın inkişafı, istifadəçilərin əks əlaqəsi	**Regional tərəfdaşlıq** Region ölkələrinin peşəkar təşkilatları ilə birgə təşəbbüslər, təcrübə mübadiləsi

Uğurun həlledici amili konkret texnologiyanın seçimi deyil, məlumatların keyfiyyəti və komandanın kompetensiyalarıdır.

Palatanın rolu

Texnologiya standartlar çərçivəsində

Süni intellektin tətbiqi BAS və keyfiyyətin idarə edilməsi sisteminin tələbləri prizmasından baxılır, onlardan ayrı deyil

Peşə üçün alətlər

ISA Assistant Palata üzvləri və peşəkar ictimaiyyət üçün ümumi əlçatan resurs kimi yaradılıb

Mühakimə auditorun üzərində qalır

Süni intellekt təhlil üçün əsas formalaşdırır; nəticələri, qiymətləndirmələri və rəyi auditor verir

ISA Assistant
Keçid üçün QR kodu skan edin

Daşkənd, 2026

O'z AP O`zbekiston Auditorlar Palatasi
Chamber of Auditors of Uzbekistan

SOSİAL MÜDAFİƏ SAHƏSİNDƏ AUDİT VƏ ŞƏFFAFLIQ: ELEKTRONLAŞAN XİDMƏTLƏR VƏ İCTİMAİ ETİMADIN FORMALAŞAN YENİ MODELİ

Heybət İMANOV

Azərbaycan Respublikası Əmək və

Əhalinin Sosial Müdafiəsi Nazirliyinin

Daxili nəzarət və audit şöbəsinin müdiri

İlk öncə Azərbaycan Respublikasının Auditorlar Palatasının yaradılmasının 30 illiyi münasibətilə kollektivin hər bir üzvünü səmimi-qəlbdən təbrik edirəm və Auditorlar Palatasına gələcək fəaliyyətində uğurlar və yeni nailiyyətlər arzulayıram.

Bildiyiniz kimi, Sosial müdafiə sistemi dövlətin sosial siyasətinin ən mühüm istiqamətlərindən biri olmaqla, cəmiyyətin sosial rifahının təmin edilməsində, həssas əhali qruplarının müdafiəsində və sosial ədalət prinsiplərinin reallaşdırılmasında mühüm rol oynayır. Bildirmək istərdim ki, müasir dövrdə sosial müdafiə sahəsində qarşıya qoyulan əsas məqsədlərdən biri yalnız sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi deyil, eyni zamanda bu xidmətlərin şəffaf, əlçatan, səmərəli, ünvanlı və hesabatlı şəkildə həyata keçirilməsidir. Bu baxımdan audit və şəffaflıq sosial müdafiə sisteminin dayanıqlı fəaliyyətinin əsas təminatlarından biri kimi çıxış edir.

Əgər ənənəvi yanaşmada audit əsasən maliyyə resurslarının qanunvericiliyə uyğun istifadəsinin, sənədlərin düzgünlüyünün və əməliyyatların nəticələrinin yoxlanılmasına yönəlirdisə, artıq sosial müdafiə sisteminin rəqəmsallaşdırılması auditin mahiyyətində də əhəmiyyətli dəyişikliklər yaratmışdır. Belə ki, elektron informasiya sistemlərinin, məlumat bazalarının inteqrasiyasının və analitik imkanların inkişafı risklərin əvvəlcədən müəyyənləşdirilməsinə, uyğunsuzluqların vaxtında aşkarlanmasına və nəzarətin daha çevik həyata keçirilməsinə imkan verir. Bu dəyişikliklərin mühüm elementlərindən biri sosial xidmətlərin elektronlaşdırılmasıdır. Müraciətlərin elektron formada həyata keçirilməsi, məlumatların müxtəlif informasiya sistemlərindən əldə edilməsi, xidmətlərin proaktiv təqdim olunması və qərarvermə proseslərinin avtomatlaşdırılması insan amilindən asılılığı azaltmaqla yanaşı, proseslərin daha rahat monitorinq olunmasına şərait yaradır. Son illərdə sosial xidmətlərin elektronlaşdırılması istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir.

Belə ki,

- Ölkə başçısının 15.04.2019-cu il tarixli 634 nömrəli Fərmanı ilə Nazirliyin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi (MEİS) haqqında Əsasnamə” və “e-sosial” internet portalı haqqında Əsasnamə” təsdiq edilmiş, geniş funksional imkanlara malik e-sosial.az portalı, “Əmək və Məşğulluq” altsistemi yaradılmışdır.
- Nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilməkdədir.
- Nazirlik tərəfindən göstərilən xidmətlərin 90%-dən çoxu elektronlaşdırılmışdır. Elektron formada göstərilən xidmətlərdən 62%-i proaktiv qaydada həyata keçirilir.
- 2022-ci ildə Nazirlik “Hökümət Buludu”na tam olaraq keçidi təmin edən ilk dövlət qurumu olmuşdur.

Bu proseslərin növbəti mərhələsində rəqəmsal xidmətlərin vahid dövlət platformasında mərkəzləşdirilməsi istiqamətində də mühüm addımlar atılmışdır. Azərbaycan Respublikasının Prezidentinin 27.02.2026-cı il tarixli 953 nömrəli Sərəncamının icrası çərçivəsində, ilk dövlət qurumu olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin

Sosial Müdafiəsi Nazirliyi “e-Sosial” tətbiqindəki təqdim etdiyi xidmətləri tam şəkildə “mygov” platformasına inteqrasiya edərək sosial sahədə rəqəmsal xidmətlərə vahid platformadan çıxış imkanı yaratmışdır.

Eyni zamanda, proaktiv xidmətlərin genişləndirilməsini də sosial müdafiə sistemində mühüm keyfiyyət dəyişikliklərindən biri kimi qeyd etmək istərdim. Belə ki, proaktiv yanaşma vətəndaşın ayrıca müraciət etməsini və sənəd təqdim etməsini gözləmədən, dövlət informasiya sistemlərində mövcud məlumatlar əsasında müəyyən sosial ödəniş və xidmətlərin avtomatik həyata keçirilməsinə imkan verir. Sözügedən yanaşma sosial müdafiə sisteminin əsas prinsiplərindən biri olan ünvanlılığın və ədalətliliyin gücləndirilməsi baxımından da əhəmiyyətlidir. Nəticə etibarilə, sosial xidmətlərin elektronlaşdırılması prosesi xidmətlərin sadəcə elektron müstəviyə keçirilməsini deyil, dövlət-vətəndaş münasibətlərinin daha çevik, şəffaf, məlumat əsaslı və vətəndaş yönümlü modelə transformasiyasını ifadə edir. Məhz bu transformasiyanın vətəndaşla birbaşa təmasda özünü göstərən praktik nümunələrindən biri DOST konsepsiyasıdır.

Ölkəmizdə sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi, eyni zamanda mərkəzləşdirilmiş qaydada təşkili istiqamətində atılmış ən önəmli addımlardan biri Ölkə Başçısının 229 nömrəli 9 avqust 2018-ci il tarixli Fərmanı ilə yaradılan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) və onun əsasında formalaşan DOST modeli olmuşdur.

Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə dost məramı ilə yanaşan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədi ilə yaradılan DOST layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü kimi dövlətin sosial xidmət siyasətini yeni, vətəndaş yönümlü və texnoloji əsaslara söykənən şəkildə həyata keçirməsinə imkan verən sosial sahədə innovativ idarəetmə yanaşmasının parlaq nümunəsidir. DOST Agentliyinin əsas missiyası əhalinin əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində göstərilən xidmətlərə mərkəzlər şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir.

Bu konsepsiyanın ana xətti sosial xidmətlərin vətəndaş üçün daha sadə, rahat və vahid mexanizm üzərindən təqdim olunması, dövlət-vətəndaş münasibətlərində etimadın və məmnunluğun gücləndirilməsidir. DOST konsepsiyasının mövzumuz baxımından əhəmiyyəti ondan ibarətdir ki, burada yalnız xidmətin göstərilməsi deyil, xidmətin necə göstərilməsi də önəmlidir. Elektronlaşma və standartlaşma xidmət proseslərinin daha şəffaf və izlənilə bilən olmasına şərait yaradır ki, bu zaman formalaşan məlumatlar əsasında audit və nəzarət üçün əlavə imkanlar yaranır. Lakin qeyd etmək lazımdır ki, elektronlaşma özlüyündə etimad yaratmır. Etimad üçün şəffaflıq, hesabatlılıq, məlumatların təhlükəsizliyi, effektiv audit və vətəndaş hüquqlarının qorunması da təmin edilməlidir.

Nəticə etibarilə, müasir sosial müdafiə sistemində məqsəd yalnız daha sürətli xidmət göstərmək deyil, daha şəffaf, daha hesabatlı və vətəndaşın etimadını qazanan xidmət sistemi formalaşdırmaqdır. Ona görə də DOST konsepsiyasını yalnız sosial xidmət modeli kimi deyil, dövlət-vətəndaş münasibətlərində ictimai etimadın formalaşmasında əsas rol oynayan bir yeni model kimi xarakterizə etmək olar.

DOST modeli qısa müddət ərzində beynəlxalq təşkilatlar və ölkələr tərəfindən maraqla qarşılanmış və bir sıra platformalarda təqdim olunmuşdur. 2023-cü ildə Birləşmiş Millətlər Təşkilatının İctimai Xidmətlər üzrə Mükafatına (UNPSA) layiq görülməsi DOST modelinin qlobal səviyyədə tanınmasının bariz nümunəsidir. Eyni zamanda, Avropa İttifaqı, Asiya İnkişaf Bankı, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlar çərçivəsində DOST modelinin təqdimatları keçirilmiş, bir neçə ölkə bu təcrübəni öyrənmək məqsədilə nümayəndə heyətləri göndərmişdir. “Bir pəncərə” prinsipi, operativlik, əlçatanlıq, şəffaflıq və vətəndaş məmnunluğu bu modelin əsas istiqamətlərindəndir.

DOST Konsepsiyası 15 istiqamət üzrə 164 xidmətin əhaliyə vahid platformadan təqdim olunmasına imkan yaratmış, ölkə əhalisinə dövlət tərəfindən təklif edilən əmək, məşğulluq və sosial müdafiə xidmətlərindən DOST mərkəzləri vasitəsilə müasir, operativ və elektron qaydada əlçatanlığını təmin etmişdir. Fəaliyyəti dövründə DOST mərkəzlərində 4,7 milyondan çox vətəndaşa xidmət göstərilmişdir və bu xidmətlərdən məmnunluq səviyyəsi 98 faizdən çoxdur.

Sosial müdafiə sahəsində şəffaflığın, keyfiyyətin və səmərəli idarəetmənin tətbiq olunması istiqamətində həyata keçirilən tədbirlər sırasında beynəlxalq standartların tətbiqini xüsusi qeyd etmək istərdim. DOST konsepsiyası 60-dan çox beynəlxalq mükafat və sertifikatla təltif olunmuşdur ki, onlardan 12-si “Good practice awards of Europe” (“Avropa üçün ən yaxşı təcrübə mükafatı”) dır. Nazirlik tərəfindən idarəetmə və xidmət proseslərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm işlər həyata keçirilmiş, Nazirliyin və tabeliyindəki qurumların fəaliyyətinin müxtəlif istiqamətləri üzrə ISO sertifikatları əldə edilmişdir. Bu sertifikatlar tətbiq olunan idarəetmə sistemlərinin beynəlxalq tələblərə uyğunluğunun təsdiqi olmaqla yanaşı, xidmətlərin keyfiyyətinin, şəffaflığın və institusional səmərəliliyin davamlı şəkildə təkmilləşdirilməsinə verilən önəmi nümayiş etdirir.

Bununla yanaşı, həyata keçirilən islahatların və innovativ yanaşmaların beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsini də xüsusi qeyd etmək istərdim. Belə ki, Nazirliyin tabeliyində olan qurumlar son illərdə müxtəlif nüfuzlu beynəlxalq mükafat və sertifikatlara layiq görülüblər. Bu uğurlar sosial xidmətlərin keyfiyyətinin, şəffaflığının və rəqəmsal həllərin beynəlxalq səviyyədə də yüksək qiymətləndirildiyini göstərir.


Çıxışımı sonlandıraraq, əminliklə bildirmək istərdim ki, əldə edilmiş nailiyyətlər və formalaşdırılmış müasir idarəetmə təcrübəsi qarşıdakı dövrdə də sosial müdafiə sisteminin dayanıqlı və davamlı inkişafı üçün möhkəm zəmin yaradacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

Sosial müdafiə sahəsində şəffaflıq və audit: elektronlaşan xidmətlər və ictimai etimadın formalaşan yeni modeli

Əmək və Əhalinin
Sosial Müdafiəsi
Nazirliyi




Sosial müdafiə
Dövlətin sosial siyasətinin əsas istiqaməti
Şəffaflıq
Hesabatlılıq və ictimai etimadın təməli
Audit
Risk əsaslı və məlumat əsaslı nəzarət
E-xidmətlər
MEİS və e-sosial platforması
1
2
3
4
5
6
7
8
Standartlar
İdarəetmədə beynəlxalq ISO tələbləri
Mükafatlar
UNPSA və 60-dan çox beynəlxalq mükafat
DOST modeli
Bir pəncərə prinsipi ilə xidmət
Proaktivlik
Müraciətsiz avtomatik xidmətlər



- Ənənəvi audit sənədlərin və maliyyə əməliyyatlarının yoxlanılmasına yönəlirdi
- Rəqəmsallaşma məlumat bazalarının inteqrasiyasını və analitikanı gücləndirdi
- Risklər əvvəlcədən müəyyənləşdirilir, uyğunsuzluqlar vaxtında aşkarlanır
- Nəzarət daha çevik, məlumat əsaslı və davamlı şəkildə həyata keçirilir





MEİS və e-sosial.az

Ölkə başçısının 15.04.2019-cu il tarixli 634 nömrəli Fərmanı ilə MEİS və "e-sosial" portalı haqqında əsasnamələr təsdiq edilmiş, e-sosial.az portalı və "Əmək və Məşğulluq" altsistemi yaradılmışdır.

Qeyd:

Geniş funksional imkanlara malik vahid rəqəmsal platformanın əsası qoyuldu.





Sistemlərin inteqrasiyası

Nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Bu, məlumatların birbaşa mənbədən alınmasına və qərarvermənin avtomatlaşdırılmasına imkan verir.

Qeyd:

Xidmətlərin 90%-dən çoxu elektronlaşdırılıb; onların 62%-i proaktiv təqdim olunur.





Hökumət Buludu

2022-ci ildə Nazirlik "Hökumət Buludu"na tam keçidi təmin edən ilk dövlət qurumu olmuşdur. Bu addım məlumatların təhlükəsizliyini və xidmətlərin dayanıqlılığını gücləndirmişdir.

Qeyd:

Mərkəzləşdirilmiş infrastruktur audit izlərinin bütövlüyünü təmin edir.





Vahid platforma: mygov

Prezidentin 27.02.2026-cı il tarixli 953 nömrəli Sərəncamına əsasən Nazirlik ilk dövlət qurumu olaraq "e-Sosial" mobil tətbiqindəki xidmətləri tam şəkildə "mygov" platformasına inteqrasiya etmişdir.

Qeyd:

Sosial xidmətlərə vahid dövlət platformasından çıxış imkanı yaradıldı.


Proaktivlik
Xidmətlər müraciət və sənəd tələb edilmədən avtomatik təqdim olunur.
Ünvanlılıq
Dəstək məhz ehtiyacı olan şəxsə ünvanlı şəkildə çatdırılır.
Ədalətlilik
Qərarlar bərabər, obyektiv və məlumat əsaslı qəbul edilir.

DOST modeli

Ölkə Başçısının 9 avqust 2018-ci il tarixli 229 nömrəli Fərmanı ilə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) yaradılmış, onun əsasında sosial xidmətlərdə keyfiyyətcə yeni model formalaşmışdır.



DOST missiyası

DOST-un missiyası əmək, məşğulluq və sosial müdafiə xidmətlərini bir pəncərə prinsipi əsasında operativ, şəffaf və vətəndaş yönümlü təqdim etmək, xidmət mərkəzləri şəbəkəsi ilə rahat çıxışı təmin etməkdir.



Sosial etimad və audit

Bu konsepsiyanın ana xətti sosial xidmətlərin vətəndaş üçün daha sadə, rahat və vahid mexanizm üzərindən təqdim olunması, dövlət-vətəndaş münasibətlərində etimadın və məmnunluğun gücləndirilməsidir.

Elektronlaşma və standartlaşma xidmət proseslərinin daha şəffaf və izlənilə bilən olmasına şərat yaradır ki, bu zaman formalaşan məlumatlar əsasında audit və nəzarət üçün əlavə imkanlar yaranır.













Bir pəncərə

15 istiqamət üzrə 164 xidmət vahid platformadan təqdim olunur; vətəndaş bir müraciətlə bütün sosial xidmətlərə çıxış əldə edir.

Operativlik

Fəaliyyəti dövründə DOST mərkəzlərində 4,7 milyondan çox vətəndaşa xidmət göstərilmiş, müraciətlərə baxılma müddəti qısaldılmışdır.

Əlçatanlıq

Xidmət mərkəzləri şəbəkəsi və elektron kanallar vasitəsilə əhalinin sosial xidmətlərə müasir və rahat çıxışı təmin edilir.

Şəffaflıq

Elektronlaşma və standartlaşma xidmət proseslərini izlənilə bilən edir; formalaşan məlumatlar audit üçün əlavə imkanlar yaradır.

Məmnunluq

DOST xidmətlərindən məmnunluq səviyyəsi 98 faizdən çoxdur; model dövlət–vətəndaş münasibətlərində etimadı gücləndirir.

Beynəlxalq uğurlar və sertifikatlar

Nazirlik tərəfindən idarəetmə və xidmət proseslərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm işlər həyata keçirilmişdir.

ISO 9001
Keyfiyyətin idarəedilməsi sistemi. Tələblər

ISO 10002
Keyfiyyət menecmenti – Müştəri/vətəndaş məmnuniyyəti

ISO 26000
Sosial məsuliyyət haqqında təlimat

ISO 37001
Rüşvətxorluğa qarşı idarəetmə sistemi

ISO 15489
Məlumat və sənədləşmə - sənəd idarəetmə sistemi









DAXİLİ AUDİT SAHƏSİNDƏ GƏLƏCƏYƏ BAXIŞ: PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ, TEXNOLOJİ YENİLİKLƏR VƏ GÖZLƏNTİLƏR

Nahid RZAYEV,

Azərbaycan Respublikası Mərkəzi

Bankının Daxili audit departamentinin

direktor müavini

Hörmətli Auditorlar Palatasının rəhbərliyi və əməkdaşları!

Hörmətli konfrans iştirakçıları, dəyərli həmkarlar!

İlk növbədə, Azərbaycan Respublikası Auditorlar Palatasının yaranmasının 30 illik yubileyi münasibətilə Mərkəzi Bankın rəhbərliyi və kollektivi adından Sizi ürəkdən təbrik edir, fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Ötən 30 il ərzində Auditorlar Palatası ölkəmizdə audit peşəsinin formalaşması, peşəkar standartların tətbiqi, şəffaflığın və hesabatlılığın gücləndirilməsi istiqamətində mühüm rol oynayıb. Bu müddət ərzində əldə olunan nailiyyətlər həm maliyyə intizamının möhkəmləndirilməsinə, həm də iqtisadi inkişafın dəstəklənməsinə əhəmiyyətli töhfə verib. Bu gün ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, dövlət idarəçiliyində şəffaflığın artırılması və korporativ idarəetmə prinsiplərinin gücləndirilməsi audit peşəsinin əhəmiyyətini daha da artırır. Auditorlar Palatasının bu istiqamətdə fəaliyyəti peşənin nüfuzunun yüksəlməsinə və beynəlxalq təcrübələrin ölkəmizdə tətbiqinə mühüm dəstək göstərir.

Bu gün mən çıxışımda auditor fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmiş daxili audit sahəsinin gələcəyi, bu sahədə perspektiv inkişaf istiqamətləri, texnoloji yeniliklər və yaxın illərlə bağlı gözləntilər barədə fikirlərimi bölüşmək istəyirəm.

Müasir dövrdə daxili audit artıq yalnız nəzarət və yoxlama funksiyasını yerinə yetirən struktur deyil. Daxili audit rəhbərliyə strateji qərarların qəbulunda dəstək verən, risklərin qabaqcadan müəyyən edilməsini təmin edən və təşkilata əlavə dəyər yaradan mühüm idarəetmə alətinə çevrilmişdir. Qlobal iqtisadi mühitdə sürətli dəyişikliklər, rəqəmsallaşma, yeni risk mənbələrinin yaranması və biznes modellərinin transformasiyası daxili auditdən daha çevik və proaktiv yanaşma tələb edir.

Əgər əvvəllər auditorlar hadisələr baş verdikdən sonra onların nəticələrini qiymətləndirirdilərsə, bu gün onlardan potensial riskləri qabaqcadan görmək, onları ölçmək və idarəetmə proseslərinə inteqrasiya etmək gözlənilir.

Daxili auditin gələcək inkişafının bir neçə əsas istiqamətini qeyd etmək istərdim.

Birinci istiqamət – Risk əsaslı audit yanaşmasının dərinləşdirilməsi. Müasir təşkilatlar ənənəvi maliyyə risklərindən əlavə kibertəhlükəsizlik, məlumatların qorunması, əməliyyat dayanıqlığı, reputasiya və uyğunluq riskləri ilə üzləşirlər. Bu səbəbdən daxili audit planları yalnız keçmiş nəticələrə deyil, gələcək risklərin qiymətləndirilməsinə əsaslanmalıdır. Risklərin dinamik monitorinqi və çevik audit proqramları yaxın illərdə daha da aktuallaşacaq.

İkinci istiqamət – Korporativ idarəetmənin gücləndirilməsi. Daxili audit təşkilatın üç əsas müdafiə xəttindən biri olaraq korporativ idarəetmə sisteminin ayrılmaz elementidir. Audit bölmələri idarəetmə orqanları ilə daha sıx əməkdaşlıq etməli, strateji məqsədlərin həyata keçirilməsi prosesində etibarlı məsləhətçi rolunu gücləndirməlidirlər.

Üçüncü istiqamət – Dayanıqlı inkişaf və ESG auditləri. Son illər ekoloji, sosial və korporativ idarəetmə göstəriciləri dünya miqyasında xüsusi əhəmiyyət qazanmışdır.

Gələcəkdə daxili auditorlardan yalnız maliyyə və əməliyyat proseslərini deyil, həm də təşkilatların dayanıqlılıq göstəricilərini, sosial məsuliyyət öhdəliklərini və ekoloji təsirlərini qiymətləndirmək tələb olunacaq.

Daxili auditin gələcəyini müəyyən edən ən mühüm amillərdən biri texnologiyadır. Süni intellekt, böyük verilənlər bazalarının analizi, avtomatlaşdırılmış monitorinq sistemləri və rəqəmsal audit platformaları artıq audit fəaliyyətinin ayrılmaz hissəsinə çevrilməkdədir. Süni intellekt auditorlara milyonlarla əməliyyatı qısa müddətdə analiz etməyə, qeyri-adi tendensiyaları aşkarlamağa və potensial riskləri əvvəlcədən müəyyən etməyə imkan verir. Gələcəkdə auditorlar məlumatların əl ilə yoxlanmasına daha az vaxt sərf edəcək, daha çox analitik və strateji fəaliyyətlə məşğul olacaqlar.

Ənənəvi audit yanaşmasında nümunə seçimi əsasında yoxlamalar aparılırdı. Bu gün isə məlumat analitikası texnologiyaları vasitəsilə əməliyyatların tam həcmini təhlil etmək mümkün olur. Bu yanaşma audit nəticələrinin keyfiyyətini artırır və risklərin aşkar edilmə ehtimalını yüksəldir.

Rəqəmsal sistemlər auditorlara prosesləri il ərzində fasiləsiz izləmək imkanı yaradır. Nəticədə audit fəaliyyətləri dövri yoxlamalardan davamlı monitorinq modelinə keçir və risklər baş verməmişdən əvvəl aşkarlanır.

Rəqəmsal iqtisadiyyatın inkişafı ilə kiberrisklər də artır. Bu gün təşkilatlar üçün maliyyə riskləri qədər informasiya təhlükəsizliyi riskləri də mühüm əhəmiyyət kəsb edir. Buna görə daxili audit bölmələri kibertəhlükəsizlik və informasiya sistemlərinin auditinə dair ekspertiza imkanlarını genişləndirməlidir.

Texnologiyanın inkişafı auditor peşəsinin insan faktorunu azaltmır, əksinə yeni bilik və bacarıqlara olan tələbi artırır. Gələcəyin auditoru:

- maliyyə və audit biliklərinə malik olmaqla yanaşı;
- məlumat analitikası üzrə bacarıqlara sahib olmalı;
- rəqəmsal texnologiyaları anlamalı;
- kibertəhlükəsizlik barədə biliklərə malik olmalı;
- strateji düşünmə və risk idarəetməsi sahəsində peşəkar kompetensiyalarını inkişaf etdirməlidir.

Ən vacibi isə auditor dəyişən mühitə uyğunlaşan və davamlı öyrənən peşəkar olmalıdır.

Mən hesab edirəm ki, növbəti illərdə ölkəmizdə daxili audit sahəsi daha yüksək inkişaf mərhələsinə qədəm qoyacaq. Rəqəmsallaşma, süni intellekt texnologiyalarının tətbiqi, peşəkar standartların təkmilləşdirilməsi və beynəlxalq təcrübənin daha geniş inteqrasiyası daxili auditin effektivliyini əhəmiyyətli dərəcədə artıracaq. Bu inkişaf prosesində Auditorlar Palatasının, peşəkar birliklərin, ali təhsil müəssisələrinin və təşkilatların birgə əməkdaşlığı xüsusi əhəmiyyət daşıyacaq.

Hörmətli həmkarlar!

30 illik yubileyini qeyd edən Auditorlar Palatası zəngin təcrübəyə, peşəkar potensiala və böyük inkişaf perspektivlərinə malik nüfuzlu bir qurumdur. Əminəm ki, Palata bundan sonra da ölkəmizdə audit peşəsinin inkişafına, şəffaflığın və etibarlı idarəetmənin gücləndirilməsinə mühüm töhfələr verməyə davam edəcəkdir.

Bir daha Azərbaycan Respublikası Auditorlar Palatasının bütün kollektivini 30 illik yubiley münasibətilə səmimi qəlbdən təbrik edir, fəaliyyətinizdə yeni nailiyyətlər, möhkəm cansağlığı və uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

GÜRCÜSTANDA AUDİTİN TƏNZİMLƏNMƏSİ SİSTEMİ VƏ PEŞƏKAR TƏŞKİLATLARIN ROLU

Tornike DZAGNİDZE,
Gürcüstan Respublikasının Maliyyə Nazirliyi yanında Mühasibat Uçotu, Hesabatlılıq və Auditə Nəzarət Xidmətinin (SARAS) Audit və Peşəkar Təhsilə Nəzarət Departamentinin rəhbəri



AUDIT REGULATORY SYSTEM IN GEORGIA

THE ROLE OF PROFESSIONAL ORGANISATIONS

REGULATORY FRAMEWORK IN GEORGIA

Broad Scope of Oversight

- Georgian legislation provides for oversight of:
  - Statutory audits
  - Other audit services

Comparison with International Practice

- In many countries, the regulator supervises:
  - Only statutory audits
  - Often only PIE audits
- The Georgian model provides a more comprehensive view of the market

MONITORING SYSTEM

Main Areas of Monitoring

- Inspection of audit engagements/files
- Assessment of systems of quality management

Strategic Direction

- Increasing focus on systems of quality management

Completed Monitoring Cycles

- PIE auditors (15 firms): 3 monitoring cycles completed – 4th cycle underway
- Non-PIE auditors (127 firms and 10 individual auditors): 1 monitoring cycle completed – 2nd cycle underway

Accumulated Experience

- Significant practical experience
- Better understanding of market risks and trends

QUALITY TRENDS AND FEEDBACK FROM THE PROFESSION

Positive Developments

- Improved engagements in firms that have undergone monitoring several times
- Improved systems of quality management

Current Challenges

- Progress among small and medium-sized firms remains insufficient
  - Key issues – limited resources and weak systems of quality management

Survey Results

- Most respondents are satisfied with the monitoring process
- Monitoring is viewed as supporting the development of the profession

Key Request from the Profession

- More practical support – audit file documentation, practical application of standards, and quality management processes in practice

THE ROLE OF PROFESSIONAL ORGANISATIONS

Key Functions of Professional Organisations

- Education and certification
- Continuing professional development
- Ethical standards
- Methodological and practical support

Areas Where Support Is Important

- Practical guidance
- Capacity building for small firms
- Training and methodological support

DELEGATION OF FUNCTIONS AND SUPERVISION OF PROFESSIONAL ORGANISATIONS

Review of International Models
- Role of professional organisations in quality monitoring

Current Areas of Assessment
- Preconditions for delegation of functions
- Independence and effectiveness considerations

SARAS's Future Direction
- Development of a framework for supervision of professional organisations

Objective
- Institutional strengthening of professional organisations
- Improving quality and consistency across the profession

Vision
- Supervision as a tool for development
- A partnership-based approach

THE ERA OF INTELLIGENT AUDIT: CROSS-BORDER ACCOUNTING ON THE NEW SILK ROAD IN THE AGE OF GLOBAL PROGRESS

Tata BERİDZE,

Gürcüstan Mühasiblər Birliyinin prezidenti

Imagine an ordinary shipment. A container of equipment leaves one continent for another, crosses several countries and seas, and arrives at its destination port. The invoice is issued in US dollars, payment passes through a bank in a third country, and taxes and customs duties are charged in three jurisdictions. At the end of this chain the accountant must record the transaction, and the auditor must be satisfied that it has been recorded correctly.

In the past, an audit meant a folder of documents and a sample. Today the data on a single shipment sits in a dozen systems, and it must be checked quickly and across the entire population of transactions. At the same time, artificial intelligence (AI) is taking over part of the work of both the accountant and the auditor.

The question of this paper is simple: how can we make sure that these changes strengthen trust in the numbers, and not only speed? The answer rests on three conditions: common standards, sensible use of technology, and professional ethics. This concerns not only auditors but also accountants, because trust in reporting begins with them.

The auditor and the accountant work with the same figures at different stages. The accountant creates the accounting data, and the auditor confirms that it can be relied on, which is what turns the financial statements into a document that investors, banks and governments can depend on. Every figure the auditor examines first passes through the accountant's hands: the source document, the journal entry, the reconciliation, the period close. If the data is distorted at the input, the auditor has to spend more effort, and the audit itself becomes harder and more expensive. The quality of accounting and the quality of auditing therefore depend on each other.

This is especially visible in small and medium-sized businesses, where the accountant is often the only finance specialist: they keep the books, prepare tax returns, and deal with the bank and the auditor. How confidently the auditor can rely on the financial statements depends on such specialists.

That is why any discussion of intelligent audit is incomplete without a discussion of intelligent accounting. The system recognises invoices, reconciles bank statements and accepts electronic waybills, 1 and the auditor receives clean, structured data. At the same time, the accountant's profession moves up several steps at once: from entering documents to analysing them, from recording the past to steering the future. The accountant becomes an analyst, an adviser to management, and the guardian of reliable data on which the company's decisions are built.

Three consequences are already visible in practice.

- Routine goes away, responsibility stays. An algorithm can propose a journal entry or flag a suspicious transaction, but the person who signs remains responsible for the result. The more automation there is, the more important it becomes to be able to check what the machine has proposed.

- The skill set changes. Accountants and auditors need to understand what data a tool works on, where it can go wrong, and how to ask it the right question. Knowledge of standards remains the foundation, but without digital literacy it stops being effective.
- Those who start small gain most. For small firms and practices the sensible path is not to buy everything at once, but to automate one repetitive task, teach the team to work with the result, and only then move further.

The challenge. The same transaction is recorded differently in different jurisdictions. Revaluation of fixed assets, accounting for a foreign-currency loan, revenue recognition on a long-term contract: every country has its own rules, and discrepancies are unavoidable. For some companies this turns into manual transformation of financial statements at consolidation, and for the group auditor into the need to examine both the participants' statements and the adjustments themselves. Each such step costs time and money, carries a risk of error, and reduces the comparability of figures on which banks and investors rely.

The solution. It rests on three pillars. The first is common standards: International Financial Reporting Standards (IFRS) for reporting and International Standards on Auditing (ISA) for audit. They reduce discrepancies to a minimum at the source. The second is digital infrastructure. Electronic source documents, common data exchange formats and artificial intelligence tools remove manual entry and speed up reconciliation and consolidation. The third is professional ethics. Even fully automated reporting remains a matter of personal responsibility for the accountant and the auditor.

Cross-border accounting on the New Silk Road is not only a technical task of aligning rules, but also a task of trust. The more consistently standards, technology and ethics are applied together, the more reliable the figures on which business, banks and governments base their decisions.

Информация об устойчивом развитии публикуется вместе с финансовой отчётностью, с теми же допущениями, оценками и валютой представления. Аудитор — единственный участник процесса, который по определению видит обе части картины.

Что важно проверить в процессе аудита

- Согласованность допущений (ставка дисконтирования, срок полезного использования, going concern) между финансовой и климатической частью отчёта
- Наличие контроля за качеством ESG-данных — по аналогии с ICFR для финансовых показателей
- Прослеживаемость показателей Scope 1–3 до первичных документов: счета за энергию, топливо, транспорт
- Соответствие раскрытий отраслевым показателям SASB, применимым к отрасли клиента
- Согласованность данных, представленных Совету директоров, и данных в итоговом раскрытии

Что делать уже сейчас?

1

Обучить команду

ISSA 5000, выбросы Scope 1–3, отраслевые показатели SASB

2

Провести gap-анализ

Оценить готовность

(как готовиться клиент, как готовится аудитор)

клиента к IFRS S1/S2 до наступления обязательности требований

3

Выстроить контроль

Внутренний контроль над ESG-данными — по аналогии с финансовыми процессами

4

Запустить пилот

Спланировать пилотное non-assurance или limited assurance вовлечение аудитора

Что меняется для Руководства и Совета директоров



Руководство

- Встраивает ESG-метрики в систему внутреннего контроля
- Отвечает за связанность ESG- и финансовых данных: те же допущения, оценки, валюта
- Пример: следит, чтобы ставка дисконтирования в пояснении об обесценении совпадала со climate-сценарием в IFRS S2-раскрытии
- Планирует бюджет и процессы под будущее assurance-заверение



Совет директоров

- Ожидает от аудитора не проверку, а стратегический диалог о рисках и возможностях
- Использует раскрытие как инструмент укрепления доверия инвесторов и партнёров
- - Менежмент готовит отчетность и потом предоставляет информацию для Совета директоров
- Несёт ответственность за надзор за раскрытием (governance-раздел IFRS S1)

MÜASİR AUDİTİN UYĞUNLUQ NƏZARƏTİNDƏN STRATEJİ TƏRƏFDAŞLIQ VƏ İCTİMAİ ETİMADA TRANSFORMASİYASI

Bəxtiyar İSMAYILOV,

Azərbaycan Dövlət İqtisad Universitetinin

(UNEC) "İqtisadi və texnoloji elmlər"

kafedrasının dosenti

Müasir iqtisadi münasibətlər şəraitində auditin funksional məzmunu əhəmiyyətli transformasiyaya uğramaqdadır. Ənənəvi olaraq maliyyə hesabatlarının düzgünlüyünün və müəyyən edilmiş qaydalara uyğunluğun yoxlanılmasına yönəlmiş audit müasir mərhələdə risklərin idarə edilməsi, korporativ idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi, strateji qərarların informasiya təminatı, rəqəmsal texnologiyaların tətbiqi və maraqlı tərəflərin etimadının gücləndirilməsi kimi daha geniş funksiyaları özündə ehtiva edir. Bu transformasiya auditin nəzarət funksiyasından strateji və etimad yönümlü fəaliyyətə keçidini şərtləndirir.

Azərbaycanın milli audit sisteminin inkişafı bu tendensiyanın konkret institusional nümunələrindən biri kimi qiymətləndirilə bilər. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi, Auditorlar Palatası haqqında Əsasnamənin təsdiqi və Auditorlar Palatasının fəaliyyətə başlaması milli audit institutunun hüquqi və təşkilati əsaslarını formalaşdırmışdır. Sonrakı dövrdə peşəkar standartların tətbiqi, beynəlxalq əməkdaşlığın genişlənməsi, audit keyfiyyətinə nəzarətin gücləndirilməsi, ictimai etimadın artırılması və rəqəmsal transformasiya istiqamətində həyata keçirilən tədbirlər auditin inkişafının yeni mərhələlərini müəyyən etmişdir.

Tədqiqatın məqsədi auditin inkişaf yolunun uyğunluq və nəzarət, risk əsaslı yanaşma, strateji tərəfdaşlıq və ictimai etimad mərhələləri üzrə sistemləşdirmək, Azərbaycan auditinin institusional inkişaf xüsusiyyətlərini təhlil etmək və müasir auditin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməkdir. Məqalədə auditə ictimai etimad, auditor müstəqilliyi, peşə etikası, şəffaflıq, rəqəmsallaşma, süni intellekt və audit keyfiyyəti məsələləri qarşılıqlı əlaqədə araşdırılır.

Tədqiqat nəticəsində əsaslandırılır ki, müasir auditin əsas missiyası yalnız keçmiş əməliyyatların düzgünlüyünü təsdiqləmək deyil. Audit getdikcə riskləri qabaqcadan müəyyən edən, idarəetmə qərarlarının keyfiyyətinə töhfə verən, etibarlı informasiya mühiti yaradan və təşkilatla onun maraqlı tərəfləri arasında etimadın formalaşmasına xidmət edən strateji peşəyə çevrilir.

Müasir iqtisadi sistemdə informasiya qərarvermənin əsas resurslarından biridir. İnvestor investisiya qərarı qəbul edərkən, kreditor maliyyələşdirmə imkanlarını qiymətləndirərkən, dövlət iqtisadi siyasət formalaşdırarkən və sahibkar strateji seçimlərini müəyyənləşdirərkən etibarlı informasiyaya ehtiyac duyur. Bu baxımdan maliyyə və qeyri-maliyyə məlumatlarının etibarlılığının təmin edilməsi iqtisadi münasibətlərin səmərəliliyi və sabitliyi üçün fundamental əhəmiyyət daşıyır.

Audit məhz bu nöqtədə informasiya ilə iqtisadi qərar arasında etimad yaradan mexanizm kimi çıxış edir. Auditorun verdiyi rəy məlumat istifadəçisinə təqdim olunan informasiyanın müəyyən edilmiş standartlar və meyarlar əsasında müstəqil şəkildə qiymətləndirildiyinə dair əlavə təminat verir. Lakin iqtisadi mühitin mürəkkəbləşməsi auditin qarşısında yeni tələblər formalaşdırmışdır. Rəqəmsallaşma, informasiya texnologiyalarından asılılığın artması, kibertəhlükələr, yeni biznes modelləri, qlobal təchizat

zəncirləri, dayanıqlı inkişaf auditorun fəaliyyət dairəsini genişləndirmişdir. Belə bir şəraitdə auditin qarşısında yalnız qaydalara əməl olunubmu sualı dayanmır.Eyni zamanda - Risklər düzgün qiymətləndirilibmi?; daxili nəzarət sistemi gələcək təhlükələrə hazırdırmı?; rəqəmsal sistemlərdən əldə olunan məlumatlar etibarlıdırmı?; idarəetmə qərarları risklərlə nə dərəcədə uzlaşdırılıb?; maraqlı tərəflər təşkilatın təqdim etdiyi informasiyaya nə dərəcədə etibar edə bilirlər? - kimi suallar cavablandırılır. Bu dəyişiklik auditin mahiyyətində keyfiyyət transformasiyasını göstərir.

Azərbaycan auditinin inkişafına nəzər saldıqda bu transformasiyanın konkret tarixi-institusional əsaslarını görmək mümkündür. 2026-cı il etibarilə Azərbaycan auditinin 30 ildən artıq institusional inkişaf təcrübəsi mövcuddur. Bu dövr ərzində audit sistemi hüquqi tənzimləmədən peşəkarlaşmaya, beynəlxalq inteqrasiyadan keyfiyyət və ictimai etimad məsələlərinə, ənənəvi yoxlama mexanizmlərindən rəqəmsal və risk əsaslı yanaşmalara doğru inkişaf etmişdir. Məqalənin əsas məqsədi həmin inkişaf xəttini sistemləşdirmək və müasir auditin gələcək istiqamətlərini müəyyən etməkdir.

Azərbaycanın müasir milli audit sisteminin formalaşması 1990-cı illərin ortalarına təsadüf edir. Bu dövr ölkənin bazar iqtisadiyyatına keçidi və yeni iqtisadi institutların formalaşdırılması baxımından mühüm mərhələ idi.

16 sentyabr 1994-cü ildə “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi müstəqil audit fəaliyyətinin hüquqi əsaslarını müəyyənləşdirdi. 19 sentyabr 1995-ci ildə Auditorlar Palatası haqqında Əsasnamənin təsdiqlənməsi, 5 aprel 1996-cı ildə isə Auditorlar Palatasının fəaliyyətə başlaması milli audit sisteminin institusional əsaslarını tamamladı. Beləliklə, 1994–1996-cı illəri Azərbaycan auditinin hüquqi və institusional formalaşma mərhələsi kimi qiymətləndirmək mümkündür.

1997–1999-cu illərdə beynəlxalq təcrübənin öyrənilməsi və institusional potensialın gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. 1997-ci ildə TACİS proqramı çərçivəsində Auditorlar Palatasının audit keçirmə potensialının möhkəmləndirilməsinə yönəlmiş layihəyə başlanılmış, 1999-cu ildə Azərbaycanda audit sisteminin islahatı konsepsiyası hazırlanmışdır. Həmin ilin 26 iyununda IIA-nın “Audit–Azərbaycan” bölməsinin yaradılması milli auditin beynəlxalq peşəkar mühitlə əlaqələrinin genişlənməsində mühüm rol oynamışdır.

2000-ci il 5 iyul tarixində “İqtisadiyyat və Audit” elmi-praktik jurnalının ilk nömrəsinin nəşri audit sahəsində elmi və peşəkar müzakirələrin institusional bazasını genişləndirmişdir. 7 mart 2001-ci ildə ali məktəblər üçün ilk “Audit” dərs vəsaitinin nəşri isə peşəkar kadr hazırlığının elmi-metodik təminatının formalaşması baxımından əhəmiyyətli olmuş, 2003-cü ildə isə Azərbaycan Auditorlar Palatasının Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) tamhüquqlu üzv qəbul edilməsi milli audit sisteminin beynəlxalq peşəkar şəbəkəyə inteqrasiyasını daha da möhkəmləndirmişdir. Beləliklə, 1994–2003-cü illər arasında audit sisteminin inkişaf məntiqi əsasən “hüquqi baza, institusional struktur, peşəkarlaşma və beynəlxalq inteqrasiya” ardıcıllığı ilə xarakterizə olunur. Uyğunluq auditindən risk əsaslı auditə keçid

Auditin ilkin inkişaf mərhələsində əsas diqqət qanunvericiliyə, normativ tələblərə və daxili prosedurlara uyğunluğun yoxlanılmasına yönəlirdi. Bu yanaşma maliyyə intizamının və hesabatlılığın təmin edilməsi üçün vacib olmaqla yanaşı, əsasən keçmiş əməliyyatların qiymətləndirilməsinə əsaslanırdı. Lakin müasir təşkilatların fəaliyyət mühiti daha mürəkkəb olduğundan maliyyə riski ilə yanaşı, bazar, texnoloji, hüquqi, reputasiya, kibertəhlükəsizlik və strateji risklər də idarəetmənin gündəliyinə daxil olmuşdur. Belə bir şəraitdə auditin diqqəti tədricən risklərin müəyyənləşdirilməsi və qiymətləndirilməsinə yönəlir. Auditor artıq yalnız səhv haradadır və səhv hansı səbəbdən yarana bilər kimi suallara deyil, həmçinin bu səhvlərin təşkilat üçün nəticəsi nə ola bilər suallarına da cavab axtarır.

Auditin müasir inkişafına dair tədqiqatlarda yeni dövrün çağırışlarının nəzərə alınması, şəffaflığın artırılması və auditin iqtisadi idarəetmədə rolunun genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma auditin ənənəvi yoxlama funksiyasından daha geniş risk və idarəetmə funksiyasına keçidini əsaslandırır.

Azərbaycan Respublikasında 2021–2030-cu illər üzrə auditor fəaliyyətinin inkişaf Konsepsiyasında da gələcəkdə yarana biləcək problemlərin qabaqcadan müəyyən edilməsi və çevik yanaşmaların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, auditin funksional transformasiyası "keçmişi yoxlamaq" dan "gələcək riskləri qiymətləndirmək" istiqamətinə yönəlmişdir.

Risk əsaslı yanaşmanın inkişafı auditin idarəetmə sistemindəki mövqeyini də dəyişdirmişdir. Auditor yalnız nəzarət prosedurlarını qiymətləndirən şəxs olmayıb, həmçinin təşkilatın risk profili, daxili nəzarət sistemi və strateji məqsədləri arasında əlaqəni təhlil edən peşəkar kimi çıxış edir.

2021-ci ildə dərc edilmiş elmi və publisistik materiallarda auditin yeni dövrün çağırışlarına uyğunlaşdırılması, müstəqil auditin iqtisadi islahatlar şəraitində rolunun artırılması və beynəlxalq inteqrasiyanın gücləndirilməsi məsələləri xüsusi vurğulanmışdır.

Bu yanaşmadan çıxış edərək strateji auditin əsas funksiyalarını aşağıdakı kimi qruplaşdırmaq mümkündür: strateji məqsədlərlə risklərin uyğunluğunun qiymətləndirilməsi; daxili nəzarət sisteminin effektivliyinin müəyyən edilməsi; resurslardan istifadənin səmərəliliyinin təhlili; strateji qərarların mümkün risklərinin qiymətləndirilməsi; rəqəmsal transformasiyanın yaratdığı risk və imkanların araşdırılması; idarəetmə qərarlarının informasiya təminatının yaxşılaşdırılması.

Burada mühüm məqam auditorun müstəqilliyinin qorunmasıdır. Strateji tərəfdaşlıq auditorun idarəetməyə tabe olması kimi başa düşülməməlidir. Əksinə, öz müstəqil və obyektiv mövqeyini qoruyaraq rəhbərliyə daha keyfiyyətli informasiya və təminat təqdim etməsi nəzərdə tutulur. Bu baxımdan müasir audit üçün strateji faydalılıq və peşəkar müstəqillik prinsipi eyni vaxtda qorunmalıdır.

Auditin strateji inkişafında ən mühüm dəyişikliklərdən biri onun dəyərinin yalnız texniki düzgünlüklə deyil, ictimai etimadla da ölçülməyə başlanmasıdır.

Audit hesabatının iqtisadi əhəmiyyəti ondan ibarətdir ki, həmin hesabat əsasında investor, kreditor, dövlət qurumu, sahibkar və digər maraqlı tərəflər qərar qəbul edir. Buna görə auditin keyfiyyəti haqqında təsəvvür auditorun verdiyi rəyin texniki standartlara uyğunluğu ilə yanaşı, həmin rəyə olan etimadı da əhatə edir. Auditə ictimai etimadın formalaşmasının auditorun müstəqilliyi, obyektivliyi, peşəkarlığı və audit xidmətinin keyfiyyəti ilə sıx bağlıdır.

Məsələnin praktik əhəmiyyətini son illərdə auditdən keçmə səviyyəsinin dinamikası da göstərir. Belə ki, 2020–2024-cü illərdə Azərbaycanda auditdən keçmə səviyyəsi 48,7 faizdən 58,5 faizə yüksəlmiş, 2025-ci ildə isə bu göstərici 75,9 faizə çatmışdır. Bu dinamika audit xidmətlərinin iqtisadi subyektlər üzrə əhatə dairəsinin son illərdə əhəmiyyətli dərəcədə genişləndiyini göstərən mühüm göstərici kimi qiymətləndirilə bilər. Bu göstəricilər audit xidmətlərinin yalnız əhatə dairəsi və texniki nəticələri baxımından deyil, həm də auditin istifadəçilər üçün yaratdığı dəyər və etimad baxımından qiymətləndirilməsinin zəruriliyini göstərir. Sonrakı mərhələdə məsələ institusional xarakter almışdır. Auditorlar Palatası Şurasının 7 sentyabr 2021-ci il tarixli qərarı ilə auditə ictimai etimadın gücləndirilməsi üzrə tədbirlərin görülməsi barədə qərarın qəbul edilməsi bu istiqamətin ayrıca inkişaf prioritetinə çevrildiyini göstərir.

Deməli, auditə ictimai etimad əlavə və ikinci dərəcəli nəticə deyil. O, müasir auditin əsas strateji nəticələrindən biri kimi qiymətləndirilməlidir.

Şəffaflıq və auditin yaratdığı iqtisadi dəyər

Auditin ictimai etimad yaratmaq funksiyası şəffaflıqla birbaşa bağlıdır. Şəffaflıq artdıqca iqtisadi subyektlərin fəaliyyəti haqqında informasiya qeyri-müəyyənliyi azalır və qərarların informasiya bazası genişlənir.

Bu yanaşmaya əsasən, auditin iqtisadi dəyəri aşağıdakı istiqamətlərdə özünü göstərir: 1) İnformasiya asimmetriyasını azaldır; 2) investorların və kreditorların qərarvermə imkanlarını yaxşılaşdırır; 3) Korporativ idarəetmənin hesabatlılığını gücləndirir; 4) Müəssisələrin maliyyə və idarəetmə intizamına müsbət təsir göstərir; 5) İqtisadi münasibətlərdə etimad mühitinin formalaşmasına kömək edir.

Şəffaflığın investisiya cəlbediciliyi ilə əlaqəsini araşdıran yanaşmada da məlumatların açıqlığının və etibarlılığının iqtisadi subyektlərin qərarvermə imkanlarına və investisiya mühitinə müsbət təsiri vurğulanır.

Beləliklə, auditin dəyər yaratma mexanizmini sadələşdirilmiş formada - Etibarlı informasiya; Şəffaflıq; Keyfiyyətli qərar; Etimad – kimi göstərmək mümkündür. Bu ardıcıllıq auditin niyə yalnız mühasibat və maliyyə nəzarəti institutu kimi deyil, həm də bazar infrastrukturunun elementi kimi qiymətləndirilməli olduğunu izah edir.

Rəqəmsallaşma və süni intellekt dövründə auditin növbəti transformasiyası

Auditin inkişafının müasir mərhələsini rəqəmsallaşmadan kənarda təsəvvür etmək mümkün deyil. Ənənəvi audit prosesində seçmə üsulu, sənəd yoxlaması və sonrakı hesabat hazırlanması mühüm yer tuturdu. Rəqəmsal audit isə böyük həcmli məlumatların analitik üsullarla işlənməsinə və davamlı monitorinq imkanlarının genişlənməsinə şərait yaradır.

Azərbaycanın 2021–2030-cu illər üzrə audit fəaliyyətinin inkişaf Konsepsiyasında rəqəmsal iqtisadiyyat şəraitində innovasiyaların tətbiqinə xüsusi diqqət yetirilməsi bu transformasiyanın milli audit siyasətində də nəzərə alındığını göstərir.

2022-ci ildə “İnnovasiya və audit” istiqamətində hazırlanmış metodik yanaşmalar da yeni texnologiyaların audit metodologiyasına təsirinin nəzərə alınması baxımından əhəmiyyətlidir [8]. Süni intellekt isə bu prosesin daha yeni mərhələsini formalaşdırır. Bununla belə, süni intellektin tətbiqi auditorun peşəkar mühakiməsini aradan qaldırmamalıdır. Əksinə, texnologiya auditorun analitik imkanlarını genişləndirən vasitə kimi çıxış etməlidir.

Müasir peşəkar yanaşmada süni intellektin auditor peşəsinə təsiri yalnız texniki imkanlarla deyil, həm də yeni bilik və bacarıqların formalaşdırılması baxımından qiymətləndirilir. Bu baxımdan peşəkar qurumların yeni nəsil auditorların data, süni intellekt və analitik bacarıqlara yiyələnməsinə diqqət yetirməsi xüsusi əhəmiyyət daşıyır.

Beləliklə, gələcəyin audit modeli texnologiya, peşəkar mühakimə və etik məsuliyyətə əsaslanmalıdır desək yanılmarıq.

Auditin texnoloji və metodoloji inkişafı nə qədər sürətli olsa da, onun əsasını təşkil edən fundamental prinsiplər dəyişmir. Bunların başında müstəqillik, obyektivlik və peşə etikası gəlir. 2026-cı ilin Auditorlar Palatası tərəfindən “Auditdə peşə etikası ili” elan edilməsi bu baxımdan mühüm institusional addımdır. Qərar 23 dekabr 2025-ci ildə Palata Şurasının 384/7 nömrəli qərarı ilə qəbul edilmişdir.

Peşə etikası məsələsinin aktuallığı onunla bağlıdır ki, audit xidmətinin əsas məhsulu maddi məhsul deyil, etibarlı peşəkar rəydir. Bu rəyin dəyəri isə auditorun müstəqilliyinə və obyektivliyinə olan inamdan asılıdır. Peşə etikası ilə bağlı müasir yanaşmada yalnız hüquqi tələblərə əməl etmək kifayət hesab edilmir. Etik davranış, maraqlar toqquşmasının qarşısının alınması və müstəqilliyin qorunması auditə ictimai etimadın əsas şərtləri kimi çıxış edir. Peşə etikası ilə bağlı aparılmış müzakirələrdə də müstəqilliyin pozulmasının audit və mühasibatlıq sahəsində ən mühüm etik risklərdən biri olduğu qeyd edilir [11]. Bu baxımdan

mühüm bir prinsip irəli sürmək mümkündür: Qanunauyğun audit etibarlı audit üçün zəruri şərtdir, lakin kifayət şərt deyil. Etibarlı audit həm də etik audit olmalıdır.

Azərbaycan auditinin 1994–2026-cı illər üzrə inkişafını aşağıdakı cədvəldə ümumiləşdirmək mümkündür:

Dövr	Əsas xüsusiyyət	Audit funksiyasının məzmunu
1994–1999	Hüquqi və institusional formalaşma	Uyğunluq və nəzarət
2000–2010	Peşəkarlaşma və beynəlxalq inteqrasiya	Standartlaşdırma və keyfiyyət
2011–2020	Şəffaflıq və idarəetməyə inteqrasiya	Risk və idarəetmə
2021–2025	Strateji inkişaf və ictimai etimad	Strateji audit və etimad
2026 və sonrakı dövr	Etika, rəqəmsallaşma və innovasiya	Etimad yönümlü rəqəmsal audit

Cədvəl 1. Azərbaycanda auditin inkişaf mərhələlərinin səciyyəvi xüsusiyyətləri.

2021-ci ildə Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi ilə bağlı keçirilən “Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” beynəlxalq elmi-praktik konfransı da bu transformasiyanın elmi və peşəkar müzakirə predmetinə çevrildiyini göstərir.

2022-ci ildə “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi isə auditin gündəliyində rəqəmsallaşmanın artıq ayrıca strateji istiqamətə çevrildiyini göstərən növbəti mühüm addım olmuşdur.

Beləliklə, son illərin peşəkar gündəliyində şəffaflıq; rəqəmsallaşma; etimad; etika zəncirinin gücləndiyi müşahidə olunur.

Aparılan təhlil Azərbaycanın audit sisteminin növbəti inkişaf mərhələsində bir neçə istiqamətin xüsusi əhəmiyyət daşıdığını göstərir.

1. Risk əsaslı audit daha da dərinləşdirilməlidir. Audit planlaşdırılması təşkilatın strateji məqsədləri və risk ehtimalları ilə daha sıx əlaqələndirilməlidir.
2. Rəqəmsal auditin metodoloji bazası gücləndirilməlidir. Data analitikası, avtomatlaşdırılmış nəzarət və süni intellekt audit proseslərinə sistemli şəkildə inteqrasiya edilməlidir.
3. Audit keyfiyyətinin qiymətləndirilməsi yalnız aparılmış auditlərin sayı ilə məhdudlaşdırılmamalıdır. Tövsiyələrin icra səviyyəsi, müəyyən edilmiş risklərin azalması, idarəetmə qərarlarına təsir və istifadəçilərin məmnunluğu kimi göstəricilər də nəzərə alınmalıdır.
4. Auditor müstəqilliyi və peşə etikası daha yüksək institusional səviyyədə qorunmalıdır. 2026-cı ilin “Auditdə peşə etikası ili” elan edilməsi bu istiqamətdə ardıcıl tədbirlər üçün əlverişli zəmin yaradır.
5. İctimai etimadın ölçülməsi sistemli xarakter almalıdır. Audit istifadəçilərinin gözləntiləri, məmnunluğu və audit hesabatlarına etimadı dövri olaraq araşdırılmalıdır.

6. Auditorların kompetensiya modeli yenilənməlidir. Müasir auditor maliyyə və audit bilikləri ilə yanaşı data analitikası, süni intellekt, kibertəhlükəsizlik, ESG, korporativ idarəetmə və strateji kommunikasiya sahələrində də bilik və bacarıqlara malik olmalıdır.

7. Audit üzrə elmi tədqiqatların empirik bazası genişləndirilməlidir. Azərbaycanın 30 ildən artıq audit təcrübəsi əsasında auditin iqtisadi səmərəliliyi, ictimai etimad, audit keyfiyyəti və rəqəmsallaşmanın nəticələri üzrə empirik araşdırmalar aparılması milli audit modelinin elmi əsaslarının gücləndirilməsinə imkan verə bilər.

Auditin inkişaf tarixi əslində onun nəzarət mexanizmindən etimad və strateji dəyər yaradan instituta çevrilməsi prosesidir.

Azərbaycan nümunəsində bu prosesin hüquqi başlanğıcı 16 sentyabr 1994-cü il tarixli "Auditor xidməti haqqında" Qanunla qoyulmuş, 5 aprel 1996-cı ildə Auditorlar Palatasının fəaliyyətə başlaması ilə institusional məzmun qazanmışdır. 1997–1999-cu illərdə beynəlxalq layihələr və audit islahatı konsepsiyası, 2000–2003-cü illərdə elmi-metodik inkişaf və beynəlxalq peşəkar inteqrasiya bu sistemin əsaslarını möhkəmləndirmişdir.

Sonrakı dövrdə auditin funksional məzmunu əhəmiyyətli şəkildə genişlənmişdir. Şəffaflıq, risklərin idarə edilməsi, audit keyfiyyəti, korporativ idarəetmə, rəqəmsallaşma, ictimai etimad və peşə etikası auditin yeni inkişaf gündəliyini formalaşdırmışdır.

Auditə ictimai etimadın gücləndirilməsi üzrə aparılan elmi tədqiqatlar göstərir ki, müstəqillik, obyektivlik, peşəkarlıq və xidmət keyfiyyəti etimadın əsas determinantlarıdır. Bu nəticə auditin inkişafının son mərhələsində texniki uyğunluqdan daha geniş bir məqsədin — etibarlı informasiya və ictimai etimadın təmin edilməsinin - ön plana çıxdığını göstərir.

Rəqəmsallaşma və süni intellekt auditin texniki imkanlarını əhəmiyyətli dərəcədə genişləndirsə də, auditin mahiyyətini müəyyən edən müstəqillik; obyektivlik; etik davranış; və peşəkar mühakimə kimi fundamental prinsiplər öz əhəmiyyətini qoruyur. Texnologiyanın yaratdığı yeni risklər isə həmin prinsiplərin daha ciddi şəkildə qorunmasını tələb edir.

2026-cı ilin "Auditdə peşə etikası ili" elan edilməsi də bu baxımdan simvolik və praktiki əhəmiyyət daşıyır. Çünki gələcəkdə auditin qarşısında duran əsas məsələ yalnız sürətli və texnoloji audit aparmaq deyil, həm də nəticəyə olan etibardır.

Müasir auditin əsas fərqləndirici xüsusiyyəti də məhz burada ortaya çıxır. Auditor yalnız keçmişi qiymətləndirən nəzarətçi deyil, o, artıq gələcək riskləri görməyə çalışan, etibarlı informasiya yaradan, idarəetmə qərarlarının keyfiyyətinə töhfə verən və maraqlı tərəflərlə təşkilat arasında etimadın möhkəmləndirilməsinə xidmət edir. Deməli, auditin gələcək inkişafının əsas istiqaməti daha çox etibarlılıq və daha yüksək dəyər yaratmaq olmalıdır. Azərbaycan audit sisteminin 1994–2026-cı illəri əhatə edən təcrübəsi göstərir ki, bunun üçün mühüm hüquqi, institusional və peşəkar baza artıq formalaşmışdır. Növbəti mərhələnin əsas vəzifəsi həmin bazanı risk əsaslı, rəqəmsal, etik və etimad yönümlü audit modelinə daha ardıcıl şəkildə transformasiya etməkdir.

Beləliklə, yeni dövrdə auditin strateji missiyası - yalnız səhvi aşkar etmək deyil, doğru qərar üçün etibarlı informasiya əsasında etimad yaratmaqdır.

İNKİŞAF ETMƏKDƏ OLAN İQTİSADİYYATLARDA KORPORATİV BORC BAZARLARININ İNKİŞAFI: AZƏRBAYCAN VƏ SEÇİLMİŞ BAZARLAR ÜZRƏ MÜQAYİSƏLİ TƏHLİL

Azər QULİYEV

Parker Russell Azərbaycanın

İcraçı direktoru

Şirkətlərin investisiya, dövriyyə kapitalı, satınalmalar və iri həcmli layihələr üçün maliyyə resurslarına çıxışı iqtisadi artımın əsas şərtlərindən biridir. Ənənəvi olaraq bir çox inkişaf etməkdə olan iqtisadiyyatda korporativ maliyyələşmənin əsas mənbəyi bank kreditləri olmuşdur. Bununla yanaşı, daha dərin maliyyə sistemlərində şirkətlər korporativ istiqrazlar, sindikatlaşdırılmış kreditlər, özəl kredit və digər bazar əsaslı alətlərdən də geniş istifadə edirlər. Bu alternativlərin mövcudluğu təkcə maliyyələşmənin həcmini artırmır; eyni zamanda maliyyələşmə mənbələrinin diversifikasiyasına, daha uzun müddətli resurslara çıxışa və risklərin müxtəlif investor qrupları arasında bölüşdürülməsinə imkan yaradır.

Qlobal məlumatlar korporativ borc maliyyələşməsinin miqyasını aydın göstərir. SIFMA-nın 2026-cı il Capital Markets Fact Book nəşrinə görə, 2025-ci ilin sonunda qlobal sabit gəlirli qiymətli kağızların dövriyyədə olan həcmi 160,7 trln ABŞ dolları olmuş, qlobal səhm bazarının kapitallaşması isə 157,8 trln ABŞ dolları təşkil etmişdir. OECD-nin Global Debt Report 2026 hesabatına əsasən, korporativ istiqrazlar və sindikatlaşdırılmış kreditlər üzrə dövriyyədə olan ümumi korporativ borc 59,5 trln ABŞ dollarına çatmış, 2025-ci ildə bu iki kanal vasitəsilə şirkətlər 1 təxminən 13,7 trln ABŞ dolları həcmində yeni borclanma həyata keçirmişdir. Bu rəqəmlər borc bazarlarının şirkət maliyyələşməsində strateji rolunu göstərir.

Məqalənin məqsədi korporativ borc bazarlarının iqtisadi əhəmiyyətini, Azərbaycan bazarının cari mövqeyini və inkişaf üçün əsas şərtləri sistemləşdirməkdir. Təhlil zamanı Azərbaycan əsas təhlil obyekti kimi götürülür, Gürcüstan, Qazaxıstan və Türkiyə regional müqayisə üçün, ABŞ və Böyük Britaniya isə daha dərin kapital bazarlarının müqayisə nöqtələri kimi istifadə olunur.

Tədqiqat müqayisəli-deskriptiv yanaşmaya əsaslanır və əsasən 2025-ci il üzrə açıq mənbə məlumatlarından istifadə edir. Qlobal göstəricilər SIFMA və OECD hesabatlarından, Azərbaycan üzrə göstəricilər Azərbaycan Mərkəzi Bankının 2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyasından, Bakı Fond Birjasının statistik məlumatlarından və AYİB-in yerli valyutada emissiya üzrə məlumatlarından götürülmüşdür. Regional müqayisə üçün müvafiq mərkəzi bankların, fond birjalarının və milli statistika qurumlarının məlumatları əsasında təqdimatda formalaşdırılmış göstəricilərdən istifadə edilmişdir.

Bazarın dərinliyi göstəricisi il sonuna dövriyyədə olan korporativ borc qiymətli kağızlarının həmin ilin nominal ÜDM-inə nisbəti kimi hesablanır. Bu göstərici iqtisadiyyatların ölçüləri fərqli olduqda bazarların nisbi inkişaf səviyyəsini müqayisə etməyə imkan verir. Bununla belə, milli məlumat bazalarında “korporativ borc” anlayışının əhatə dairəsi tam eyni olmadığından, müqayisələr indikativ xarakter daşıyır. Bu məhdudiyyət xüsusilə maliyyə sektoru emitentlərinin daxil edilməsi, istiqrazların yerli və xarici bazarda buraxılması və bəzi bazarlarda xüsusi borc alətlərinin təsnifatı ilə bağlıdır.

Korporativ borc bazarlarının əsas üstünlüyü bank kreditləşməsini əvəz etmək deyil, şirkətlər üçün əlavə maliyyələşmə kanalı yaratmaqdır. Maliyyə sisteminin dayanıqlılığı baxımından müxtəlif maliyyələşmə kanallarının paralel mövcudluğu vacibdir. Bank sistemində kredit standartlarının sərtləşməsi, likvidlik məhdudiyyətləri və ya ayrı-ayrı bankların sektor limitləri şirkətin bütün maliyyələşmə imkanlarını eyni vaxtda

məhdudlaşdırmamalıdır. İnkişaf etmiş borc bazarı bu baxımdan alternativ investor bazasına çıxış yaradır.

OECD-nin Asia Capital Markets Report 2025 hesabatında qeyri-maliyyə şirkətlərinin borc maliyyələşmə strukturu üzrə ciddi fərqlər göstərilir. ABŞ-da borc qiymətli kağızları müvafiq korporativ borc göstəricisinin təxminən 64%-ni təşkil etdiyi halda, seçilmiş Asiya 2 iqtisadiyyatlarında orta göstərici 14%, avro zonasında isə 12% civarındadır. Bu fərq müəyyən maliyyə modelinin digərindən avtomatik üstün olması demək deyil. Əksinə, rəqəmlər maliyyələşmə sistemlərinin institusional quruluşunun və şirkətlərin hansı kanallardan istifadə edə bilməsinin fərqli olduğunu göstərir.

Borc bazarının mövcudluğu üç praktik üstünlük yaradır. Birincisi, maliyyələşmə mənbələri diversifikasiya olunur və şirkət tək bir bank və ya bank qrupu ilə məhdudlaşmır. İkincisi, istiqraz və institusional kreditlər müəyyən hallarda investisiya layihəsinin iqtisadi ömrünə daha uyğun uzun müddətli maliyyələşmə təmin edə bilər. Üçüncüsü, yerli valyutada borc alətlərinin inkişafı valyuta riskinin idarə olunmasına kömək edir. Bu üstünlüklər yalnız emitentlər üçün deyil, ümumilikdə maliyyə sisteminin dayanıqlılığı və kapitalın daha səmərəli bölüşdürülməsi baxımından da əhəmiyyətlidir.

Azərbaycanın korporativ borc bazarı son illərdə inkişaf edir, lakin şirkət maliyyələşməsində bank kreditlərinin üstün mövqeyi davam edir. Təqdimatda istifadə olunan göstəricilərə əsasən, korporativ istiqrazların korporativ kreditlərə nisbəti 2023-cü ildə 6,5% olduğu halda, 2025-ci ildə 10,1%-ə yüksəlmişdir. Bu, 3,6 faiz bəndi artım deməkdir və bazar əsaslı maliyyələşmənin rolunun genişləndiyini göstərir. Bununla belə, 10,1% göstəricisi istiqrazların ümumi korporativ borcdakı payı deyil; istiqraz qalığının korporativ kreditlərə nisbətidir və bu fərq nəticələrin düzgün şərhi üçün vacibdir.

2025-ci ildə Bakı Fond Birjasında dövlət şirkətləri və digər korporativ emitentlər tərəfindən həyata keçirilən istiqraz yerləşdirmələrinin həcmi təxminən 793,6 mln manat olmuşdur. Təqdimatda istifadə olunan təsnifata görə, bunun 402,6 mln manatı dövlət müəssisələrinin, 391,0 mln manatı isə digər emitentlərin payına düşür. Sonuncu kateqoriyanın maliyyə institutlarını da əhatə etdiyini nəzərə almaq lazımdır. Buna görə bu rəqəmləri yalnız real sektorun özəl şirkətlərinin emissiyası kimi şərh etmək düzgün olmazdı.

Azərbaycan Mərkəzi Bankının 2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası korporativ borc bazarının genişləndirilməsini ayrıca prioritet kimi müəyyən edir. Strategiyada real sektor şirkətlərinin borc kapitalı bazarı vasitəsilə maliyyələşməsi üzrə baza göstəricisi təxminən 0,5 mlrd manat səviyyəsində göstərilir və potensialın 1,5 mlrd manatdan yüksək qiymətləndirilməsi nəzərdə tutulur. Burada söhbət artıq həyata keçirilmiş maliyyələşmədən deyil, bazarın 3 potensialından və strateji hədəfdən gedir. Bu fərq də bazar inkişafı ilə bağlı qiymətləndirmələrdə qorunmalıdır. Cədvəl 1. Seçilmiş bazarlarda korporativ borc bazarının dərinliyi və 2025-ci il artımı Ölkə Korporativ borc qiymətli kağızları / ÜDM, % 2025-ci ildə dövriyyədə olan borc qiymətli kağızlarının artımı, % ABŞ 29,0 Böyük Britaniya 13,9 Qazaxıstan 10,1 +18,5 Gürcüstan 2,6 +33,3 Türkiyə Azərbaycan 1,5 1,3 +41,8 ~+24,6 Qeyd: göstəricilər indikativ xarakter daşıyır və milli məlumat mənbələrinin əhatə dairəsi tam harmonizasiya olunmayıb. Türkiyə üzrə artım nominal TRY göstəricisidir.

Cədvəl 1. Seçilmiş bazarlarda korporativ borc bazarının dərinliyi və 2025-ci il artımı

Ölkə	Korporativ borc qiymətli kağızları / ÜDM, %	2025-ci ildə dövriyyədə olan borc qiymətli kağızlarının artımı, %
ABŞ	29,0	-

Böyük Britaniya	13,9	-
Qazaxıstan	10,1	+18,5
Gürcüstan	2,6	+33,3
Türkiyə	1,5	+41,8
Azərbaycan	1.3	~+24,6

Qeyd: göstəricilər indikativ xarakter daşıyır və milli məlumat mənbələrinin əhatə dairəsi tam harmonizasiya olunmayıb. Türkiyə üzrə artım nominal TRY göstəricisidir.

Müqayisəli məlumatlar Azərbaycanın korporativ borc bazarının regional miqyasda hələ dayaz olduğunu göstərir. 2025-ci ilin sonuna korporativ borc qiymətli kağızlarının nominal ÜDM-ə nisbəti ABŞ-da təxminən 29,0%, Böyük Britaniyada 13,9%, Qazaxıstanda 10,1%, Gürcüstanda 2,6%, Türkiyədə 1,5% və Azərbaycanda 1,3% təşkil etmişdir. Bu göstəricilər bazarların dərinliyi barədə ümumi təsəvvür yaratsa da, birbaşa reytinq kimi qəbul edilməməlidir; milli bazarların hüquqi çərçivəsi, emitent tərkibi, xarici bazarda buraxılan alətlərin daxil edilib-edilməməsi və maliyyə sektoru istiqrazlarının əhatəsi fərqlənir.

Digər tərəfdən, 2025-ci ildə dövriyyədə olan korporativ borc qiymətli kağızlarının nominal artımı regional bazarlarda kifayət qədər yüksək olmuşdur: Azərbaycan üzrə təxminən 24,6%, Gürcüstanda 33,3%, Qazaxıstanda 18,5%, Türkiyədə isə 41,8%. Lakin sürətli nominal artım bazarın mütləq şəkildə daha dərin və daha diversifikasiya olunmuş hala gəldiyini göstərmir. Məsələn, yüksək inflyasiya şəraitində nominal valyutada borc qalığının sürətli artımı ÜDM-ə nisbətdə bazar dərinliyində eyni ölçüdə artım yaratmaya bilər. Buna görə bazar inkişafı qiymətləndirilərkən həm nominal artım, həm ÜDM-ə nisbət, həm də investor və emitent bazasının strukturu birlikdə nəzərdən keçirilməlidir.

İnkişaf etməkdə olan bazarlarda korporativ borc bazarının dayaz qalması adətən bir amillə izah edilmir. Üç istiqamət - emitentin hazırlıq səviyyəsi, investor tələbi və bazar likvidliyi - bir birini gücləndirə bilər. OECD-nin korporativ istiqraz bazarları üzrə araşdırmaları da kredit riskinin qiymətləndirilməsi, təkrar bazar likvidliyi, investor bazasının diversifikasiyası və uyğun tənzimləyici-institusional çərçivənin bazarın inkişafı üçün əsas şərtlər olduğunu vurğulayır.

Birinci istiqamət emitentin hazırlığıdır. Kapital bazarına çıxmaq istəyən şirkət etibarlı maliyyə hesabatlığına, şəffaf mülkiyyət strukturuna, proqnozlaşdırıla bilən pul axınlarına və borcun geri qaytarılmasını əsaslandıran aydın biznes modelinə malik olmalıdır. Emissiyanın hüquqi, maliyyə və təşkilati xərcləri də müəyyən miqyasdan aşağı şirkətlər üçün bazara çıxışı iqtisadi baxımdan səmərəsiz edə bilər.

İkinci istiqamət investor bazasıdır. Pensiya fondları, sığorta şirkətləri, investisiya fondları və digər uzunmüddətli institusional investorların məhdudluğu korporativ kredit riskinə tələb yaradan kapital bazasını daraldır. İnvestorların korporativ riskləri qiymətləndirmək üçün məlumat, reytinq, müqayisəli gəlirlilik və hüquqi müdafiə mexanizmlərinə ehtiyacı vardır. Bu infrastruktur olmadıqda investorlar daha likvid və ya dövlət təminatına daha yaxın alətlərə üstünlük verə bilərlər.

Üçüncü istiqamət təkrar bazar likvidliyidir. İstiqrazların emissiyadan sonra zəif ticarət olunması investorun mövqedən çıxış imkanlarını məhdudlaşdırır və bazar qiymətinin formalaşmasını çətinləşdirir. Aşağı likvidlik investor tələbini zəiflədir, zəif tələb yeni

emissiyaların cəlbediciliyini azaldır, az sayda emissiya isə öz növbəsində bazarın likvidliyini daha da məhdudlaşdırır. Beləliklə, bazar inkişafında özünü gücləndirən dövr yarana bilər.

İnstitusional kapital şirkətlərə iki əsas kanal vasitəsilə çata bilər. Birinci kanal korporativ istiqrazlardır: pensiya fondları, sığortaçılar, investisiya fondları və digər peşəkar investorlar şirkətlərin borc qiymətli kağızlarına investisiya edə bilərlər. İkinci kanal institusional kreditləşmədir: beynəlxalq maliyyə institutları, inkişaf maliyyə institutları, beynəlxalq banklar və kredit sindikatları şirkətlərə birbaşa və ya sindikatlaşdırılmış kreditlər təqdim edə bilərlər. Bu iki kanal rəqib deyil, bir birini tamamlayan maliyyələşmə mexanizmləridir.

Azərbaycan üçün 2025-ci ilin oktyabrında AYİB-in ilk yerli manat istiqraz emissiyası institusional bazarın inkişafı baxımından diqqətəlayiq nümunədir. AYİB Bakı Fond Birjasında 50 mln manat həcmində, bir illik və AZIR göstəricisinə bağlı dəyişən faizli istiqraz yerləşdirmişdir. Sifarişlərin ümumi həcmi 55,2 mln manat olmuş və 12 investor iştirak etmişdir. Burada emitent 5 Azərbaycan özəl şirkəti deyil, AYİB idi. Buna görə əməliyyat yerli özəl korporativ borc bazarının birbaşa göstəricisi kimi deyil, yerli valyutada institusional alətlərə tələbin, bazar infrastrukturunun və investor münasibətlərinin inkişafı nümunəsi kimi qiymətləndirilməlidir.

Yerli valyutada borc alətlərinin dərinləşməsi valyuta uyğunsuzluğu riskinin azaldılması baxımından da əhəmiyyətlidir. Gəlirləri əsasən manatla formalaşan şirkət xarici valyutada borclandıqda məzənnə dəyişikliklərinə qarşı əlavə risk daşıyır. Yerli istiqraz və kredit bazarının inkişafı bu riskin bir hissəsini azaltmaqla yanaşı, ölkədaxili yığımların real sektorun maliyyələşməsinə yönəldilməsi üçün əlavə kanal yarada bilər.

Korporativ borc bazarının inkişafı yalnız tənzimləyici və bazar infrastrukturu məsələsi deyil. Ayrı-ayrı şirkətlərin maliyyələşməyə hazırlığı da həlledici rol oynayır. Bu hazırlığı dörd sütunda ümumiləşdirmək mümkündür: maliyyə şəffaflığı, borclanma qabiliyyəti, korporativ idarəetmə və əməliyyatın icrasına hazırlıq.

Maliyyə şəffaflığı etibarlı maliyyə hesabatlığını, mövcud öhdəliklərin tam görünməsini və mülkiyyət strukturunun aydınlığını tələb edir. Borclanma qabiliyyəti isə pul axını proqnozlarının əsaslandırılmasını, borclanma səviyyəsinin və borca xidmət göstəricilərinin ölçülməsini nəzərdə tutur. Korporativ idarəetmə baxımından daxili nəzarət, qərarvermə mexanizmləri və risklərin idarə edilməsi investor və kreditorların etimadına birbaşa təsir edir. Nəhayət, əməliyyatın icrasına hazırlıq şirkətin maliyyələşmə məqsədini, vəsaitlərin istifadə istiqamətlərini, biznes planını və hüquqi, maliyyə, vergi, kommersiya və texniki kompleks yoxlama (due diligence) üçün tələb olunan məlumat paketini əvvəlcədən sistemləşdirməsini tələb edir.

Korporativ istiqraz və institusional kredit üçün tələblər tam eyni deyil. İstiqraz emissiyasında məlumatların açıqlanması, qiymətli kağızlar üzrə hüquqi prosedurlar, investor təqdimatları və məlumatlandırma materialları və yerləşdirmə mexanizmi daha ön plana çıxır. İnstitusional kreditlərdə isə kreditorun maliyyə və biznes qiymətləndirilməsi, maliyyə və digər kovenantlar, təminat strukturu, ekoloji və sosial tələblər və monitorinq mexanizmləri daha mühüm ola bilər. Bununla belə, hər iki istiqamətdə keyfiyyətli hazırlıq əməliyyatın qiymətləndirilməsini asanlaşdırır və maliyyələşmə prosesinin səmərəliliyini yüksəldir; bu isə maliyyələşməyə zəmanət deyil, onun üçün zəruri baza şərtidir.

Borc maliyyələşməsinə çıxış prosesində peşəkar maliyyə məsləhətçilərinin əsas funksiyası şirkətin ümumi “maliyyə ehtiyacını” investor və ya kreditor tərəfindən qiymətləndirilə bilən, strukturlaşdırılmış əməliyyata çevirməkdir. Bu proses dörd mərhələdə qurula bilər: ilkin qiymətləndirmə, maliyyə və borc strukturunun hazırlanması, sənədləşdirmə və əməliyyatın koordinasiyası.

İlkin mərhələdə şirkətin borclanma qabiliyyəti, maliyyələşmə alternativləri və uyğun maliyyə alətləri qiymətləndirilir. Sonrakı mərhələdə maliyyə modeli, ssenarilər, borc strukturu

və proqnozlar hazırlanır. Sənədləşdirmə mərhələsində investor və ya kreditor materialları, biznes plan və kompleks yoxlama (due diligence) materialları sistemləşdirilir. Nəhayət, əməliyyat zamanı banklar, institusional kreditorlar, hüquqşünaslar, texniki və ekoloji-sosial məsləhətçilər və digər iştirakçılar arasında proses koordinasiya edilir.

Burada maliyyə məsləhəti ilə lisenziyalı investisiya xidmətləri arasında hüquqi sərhəd qorunmalıdır. Qiymətli kağızların yerləşdirilməsi, anderraytinq, sifarişlərin qəbulu və icrası kimi tənzimlənən fəaliyyətlər müvafiq lisenziyaya malik bazar iştirakçıları tərəfindən həyata keçirilməlidir. Maliyyə məsləhətçisinin əlavə dəyəri isə emitentin və ya borcalanın əməliyyata hazırlığının gücləndirilməsi, məlumat keyfiyyətinin yüksəldilməsi və prosesin daha koordinasiyalı idarə edilməsidir.

Təhlil göstərir ki, korporativ borc bazarları qlobal maliyyə sisteminin əsas hissələrindən biridir və bank kreditləşməsinə alternativ deyil, onu tamamlayan strateji maliyyələşmə kanalıdır. Azərbaycan bazarında istiqrazların rolunun artması və Mərkəzi Bankın kapital bazarlarının genişləndirilməsi üzrə strateji hədəfləri müsbət istiqamətə işarə edir. Bununla belə, Azərbaycan üzrə bazar dərinliyi göstəricisinin seçilmiş regional və inkişaf etmiş bazarlardan aşağı olması maliyyələşmə ekosisteminin hələ inkişaf mərhələsində olduğunu göstərir.

Bazarın davamlı dərinləşməsi üçün bir neçə istiqamət paralel şəkildə irəliləməlidir. Birincisi, potensial emitentlərin maliyyə hesabatlığı, korporativ idarəetmə və borc planlaşdırması üzrə hazırlıq səviyyəsi artırılmalıdır. İkincisi, institusional investor bazasının genişlənməsi və korporativ kredit riskini qiymətləndirmək üçün peşəkar imkanların inkişafı vacibdir. Üçüncüsü, təkrar bazar likvidliyi, məlumat açıqlığı və qiymət formalaşması mexanizmləri gücləndirilməlidir. Dördüncüsü, yerli valyutada alətlərin çeşidinin və istinad göstəricilərinin inkişafı şirkətlər üçün valyuta riskini azaltmaqla daha dayanıqlı maliyyələşmə imkanı yarada bilər. Beşincisi, şirkətlərin bank kreditləri, istiqraz emissiyası və institusional kreditləşmə alternativlərini eyni çərçivədə qiymətləndirə bilməsi üçün keyfiyyətli maliyyə məsləhəti və əməliyyat hazırlığı ekosistemi genişləndirilməlidir.

Nəticə etibarilə, korporativ borc bazarının inkişafı təkcə daha çox istiqraz emissiyası ilə ölçülməməlidir. Dayanıqlı bazar daha çox və daha keyfiyyətli emitent, diversifikasiya olunmuş investor bazası, işlək təkrar bazar, etibarlı məlumat və peşəkar maliyyə infrastrukturu tələb edir. Bu elementlərin birlikdə inkişafı Azərbaycanda real sektorun uzunmüddətli maliyyələşməsinə, kapitalın daha səmərəli bölgüsünə və maliyyə sisteminin dayanıqlığının artırılmasına töhfə verə bilər.

İnkişaf etməkdə olan iqtisadiyyatlarda korporativ borc bazarlarının inkişafı

Azərbaycan və seçilmiş inkişaf etməkdə olan bazarlar



Azər Quliyev

İcraçı direktoru
Parker Russell Azərbaycan

Qlobal borc qiymətli kağızları miqyas etibarilə səhm bazarları ilə müqayisə oluna biləcək səviyyədədir

2025-ci ilin sonuna hər iki bazarın qlobal həcmi təxminən 160 trln ABŞ dolları təşkil edib

SABİT GƏLİRLİ QİYMƏTLİ KAĞIZLAR

$160.7 trln

Dövlət, korporativ və digər sabit gəlirli qiymətli kağızlar

BİRJADA LİSTİNQDƏ OLAN SƏHMLƏR

$157.8 trln

Qlobal səhm bazarının kapitallaşması

KORPORATİV BORC MALİYYƏLƏŞMƏSİ

$59.5 trln

DÖVRİYYƏDƏ OLAN HƏCM



Korporativ istiqrazlar + sindikatlaşdırılmış kreditlər

$13.7 trln

2025-Cİ İLDƏ REKORD BORCLANMA


Mənbələr: SIFMA, 2026 Capital Markets Fact Book; OECD, Global Debt Report 2026.

Korporativ borc bazarları niyə vacibdir?

Maliyyələşmə strukturları kəskin fərqlənir - borc bazarlarının inkişafı şirkətlərin seçim imkanlarını genişləndirir

BORC QİYMƏTLİ KAĞIZLARI / ÜMUMİ KORPORATİV BORC

Qeyri-maliyyə şirkətləri



Borcun kreditlər əvəzinə qiymətli kağızlar vasitəsilə maliyyələşdirilən payı

NİYƏ VACİBDİR

01 Maliyyələşmə mənbələrinin diversifikasiyası

Tək bir bankdan kənar investor bazasına çıxış.

02 Daha uzunmüddətli maliyyələşmə

Maliyyələşmə müddətlərinin investisiya ehtiyaclarına uyğunlaşdırılması imkanı.

03 Maliyyə dayanıqlılığı

Yerli valyutada borc daxil olmaqla, daha çox maliyyələşmə kanalı.

Korporativ borc bazarları bank kreditləşməsini əvəz etmir, onu tamamlayır.

Mənbə: OECD, Asia Capital Markets Report 2025, Şəkil 3.7 (2023-24; doqquz iqtisadiyyatdan ibarət Asiya seçməsi).

Azərbaycan: formalaşmaqda olan korporativ borc bazarı

Bazar əsaslı maliyyələşmədən istifadənin artması, lakin inkişaf üçün əhəmiyyətli imkanların qalması

KORPORATİV İSTİQRAZLARIN KORPORATİV KREDİTLƏRƏ NİSBƏTİ

İstiqraz/kredit nisbəti artıb

6.5% (2023) › **10.1%** (2025)

+3.6 faiz bəndi | Bank kreditləşməsi əsas kanal olaraq qalır

2025-Cİ İLDƏ İSTİQRAZ YERLƏŞDİRMƏLƏRİ

793.6 mln AZN

≈ 466.8 mln ABŞ dolları



Dövlət şirkətləri 50.7%
402.6 mln AZN / $236.8 mln

Qeyri-dövlət emitentləri 49.3%
391.0 mln AZN / $230.0 mln

MƏRKƏZİ BANKIN STRATEGİYASI (2024-2026): REAL SEKTORUN BORC BAZARI VASİTƏSİLƏ MALİYYƏLƏŞMƏSİ

0.5 mlrd AZN Strategiyanın baza göstəricisi
≈ 294.1 mln ABŞ dolları

› **> 1.5 mlrd AZN**
> 882.4 mln ABŞ dolları

Qiymətləndirilmiş potensial

Növbəti mərhələ şirkətlərin bazar əsaslı borc maliyyələşməsinə çıxışını genişləndirməkdir.

Mənbələr: Bakı Fond Birjası, 2025-ci il bülleteni; Azərbaycan Mərkəzi Bankının 2024-2026 Strategiyası. Məzənnə: 1 USD = 1.7000 AZN.


Korporativ borc bazarları: dərinlik və regional artım

Dövriyyədə olan korporativ borc qiymətli kağızlarının ÜDM-ə nisbəti | 2025

BAZARIN DƏRİNLİYİ · 2025-Cİ İLİN SONU

İnkişaf etmiş · Regional

Dövriyyədə olan korporativ borc qiymətli kağızları / 2025 nominal ÜDM



Müqayisə indikativ xarakter daşıyır: inkişaf etmiş bazarlarda məlumat qeyri-maliyyə şirkətlərini əhatə edir; regional bazarlarda əhatə dairəsi fərqlənir.

DÖVRİYYƏDƏ OLAN HƏCM QİYMƏTLİ KAĞIZLARININ ARTIMI · 31 DEK 2024 - 31 DEK 2025

Azərbaycan	~+24.6%	Gürcüstan	+33.3%	Qazaxıstan	+18.5%	Türkiyə	+41.8%

Sürətli nominal artım avtomatik olaraq daha dərin və ya daha şaxələndirilmiş korporativ maliyyələşmə demək deyil.

Mənbələr: ABŞ Fed/BEA; UK ONS; CBRT/Turkstat; KASE/Qazaxıstan BNS; NBG/Geostat; BFB/Azərbaycan DSK; 2025-ci il sonu göstəriciləri. Qeyd: rəqəmlər tam harmonizasiya olunmayıb.

Korporativ borc bazarları niyə dayaz qalır?

Dayanıqlı bazar inkişafına mane olan üç qarşılıqlı əlaqəli məhdudiyyət

Emitentin hazırlıq səviyyəsi

Maliyyə şəffaflığı, kredit qabiliyyəti və emissiya xərcləri kapital bazarına hazır şirkətlərin sayını məhdudlaşdırır.

İnvestor tələbi

İnstitusional investor bazasının məhdudluğu korporativ kredit riskina uzunmüddətli tələbi və marağı zəiflədir.

Bazar likvidliyi

Təkrar bazarda məhdud ticarət, qiymət formalaşmasının zəifliyi və bazar infrastrukturundakı məhdudiyyətlər investor etimadına təsir edir.

Özünü gücləndirən bazar inkişafı problemi



Daha dərin borc bazarı üçün emitent təklifi, investor tələbi və bazarın fəaliyyət mexanizmlərində paralel irəliləyiş tələb olunur.

Mənbə: OECD, Corporate Bond Markets in Asia (2024); EBRD və ADB-nin bazar inkişafı üzrə araşdırmaları.

İnstitusional kapital korporativ maliyyələşmə imkanlarını genişləndirir

İki tamamlayıcı kanal: borc qiymətli kağızları və institusional kreditləşmə

BORC QİYMƏTLİ KAĞIZLARI

İnstitusional istiqraz investorları

Pensiya fondları • Sığortaçılar • İnvestisiya fondları

Korporativ istiqrazlara investisiya

İNSTİTUSİONAL KREDİTLƏŞMƏ

İnstitusional kreditorlar

BMİ-lər • İMİ-lər • Beynəlxalq banklar

Birbaşa və sindikatlaşdırılmış kreditlər

DAHA GENİŞ KORPORATİV MALİYYƏLƏŞMƏ İMKANLARI

Daha geniş maliyyələşmə tutumu • Potensial olaraq daha uzun müddətlər • Daha yüksək açıqlama standartları

AZƏRBAYCAN NÜMUNƏSİ | AYİB-İN YERLİ İSTİQRAZI

1 oktyabr 2025 • 1 illik, AZIR-ə bağlı dəyişən faizli istiqraz

AYİB emitent idi; bu, bazarın inkişafını göstərən nümunədir.

50 mln AZN
Emissiya

12
İnvestor

55.2 mln AZN
Sifarişlərin həcmi

Şirkətlər investor və kreditorların tələblərinə cavab verdikdə institusional iştirak maliyyələşmə imkanlarını genişləndirə bilər.

Mənbələr: AMB, 1 oktyabr 2025; AYİB, ilə AZN istiqrazemissiyası; OECD, Corporate Bond Markets in Asia (2024).

Şirkətin hazırlığından borc maliyyələşməsinə

Korporativ istiqrazlara və institusional kreditlərə çıxışın dörd əsas şərti

01

Maliyyə şəffaflığı

Etibarlı maliyyə hesabatlığı, aydın mülkiyyət strukturu və mövcud öhdəliklərin şəffaflığı

02

Borclanma qabiliyyəti

Pul axını proqnozları, borclanma səviyyəsi və borca xidmət qabiliyyəti

03

Korporativ idarəetmə

Daxili nəzarət, qərarvermə və risklərin idarə edilməsi

04

Əməliyyat hazırlığı

Biznes plan, vəsaitlərin istifadə istiqamətləri və hərtərəfli yoxlama materialları

MALİYYƏLƏŞMƏ MARŞRUTUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

KORPORATİV İSTİQRAZLAR

Açıq və ya qapalı yerləşdirilən borc qiymətli kağızları

Məlumatların açıqlanması • Kredit qiymətləndirilməsi • İnvestor tələbləri

İNSTİTUSİONAL KREDİTLƏR

BMİ / İMİ və sindikatlaşdırılmış borc

Kreditorun qiymətləndirməsi • Koveriantlar • Ekoloji və sosial tələblər

Hazırlıq maliyyələşməyə çıxış imkanlarını artırır, lakin investor və ya kreditor təsdiqinə zəmanət vermir.

Mənbələr: OECD, Corporate Bond Markets in Asia (2024); IFC və AYİB-in maliyyələşmə və korporativ idarəetmə üzrə təlimatları.

Fərqin aradan qaldırılması: peşəkar məsləhətçilərin rolu

Korporativ maliyyələşmə ehtiyaclarını əməliyyata hazır təklifə çevirmək

01

QİYMƏTLƏNDİR

Borclanma qabiliyyəti və maliyyələşmə alternativləri

Maliyyələşmə strategiyası

02

HAZIRLA

Maliyyə modelləri, borc strukturları və proqnozlar

Maliyyələşdirmə paketi

03

SƏNƏDLƏŞDİR

İnvestor / kreditor materialları və hərtərəfli yoxlama

Əməliyyat sənədləri

04

KOORDİNASİYA ET

Maliyyələşmə üzrə qarşı tərəflər və ixtisaslaşmış məsləhətçilər

İcra dəstəyi

İKİ TAMAMLAYICI MALİYYƏLƏŞMƏ KANALI

KORPORATİV İSTİQRAZLAR

Lisenziyalı investisiya şirkətləri ilə

İNSTİTUSİONAL KREDİTLƏR

İnstitusional kreditorlarla

Məsləhət xidmətləri daha güclü hazırlıq, daha keyfiyyətli məlumat və daha koordinasiyalı icra vasitəsilə dəyər yaradır.

Əhatə dairəsi: maliyyə və əməliyyat üzrə məsləhət; qiymətli kağızların yerləşdirilməsi, andеrrayting və digər lisenziyalı investisiya xidmətləri ayrıca fəaliyyət sahəsidir.

İllustrativ məsləhət prosesi | Mənbə: OECD, Corporate Bond Markets in Asia (2024); AYİB-in maliyyələşmə üzrə təlimatları.

Dəyər yaratmaq üçün yeni imkanların araşdırılması

Borc maliyyələşməsi üzrə məsləhətdə potensial təşəbbüslər

01 BİZNES İCMALARI

Maliyyələşmə ehtiyaclarını və yeni layihə imkanlarını müəyyən etmək üçün palatalar və sahəvi platformalarla əməkdaşlığı gücləndirmək.

məsələn, AmCham Azerbaijan; British Chamber of Commerce in Azerbaijan

02 TRANSSƏRHƏD İMKANLAR

Müvafiq müştəri ehtiyaclarını və potensial məsləhət layihələrini üzv şirkətlər arasında əlaqələndirmək.

Potensial dəyər: daha geniş əhatə və ortaq imkanlar

03 BİRGƏ MƏSLƏHƏT LAYİHƏLƏRİ

Kompleks mandatları dəstəkləmək üçün yerli bazar anlayışını, maliyyə ekspertizasını və sektor biliklərini birləşdirmək.

Potensial dəyər: daha güclü çoxsahəli icra

04 İNSTİTUSİONAL ƏLAQƏLƏR

Maliyyələşmə tələbləri üzrə banklar, BMİ-lər, İMİ-lər və lisenziyalı investisiya şirkətləri ilə əməkdaşlığı dərinləşdirmək.

Potensial dəyər: daha yaxşı hazırlanmış maliyyələşmə layihələri

AÇIQ MÜZAKİRƏ

Xüsusilə inkişaf etməkdə olan iqtisadiyyatlarda borc maliyyələşməsi üzrə məsləhət vasitəsilə müştərilərimiz üçün ən böyük dəyər yaratma imkanlarını harada görürük?

AZƏRBAYCAN RESPUBLİKASI MÜHASİBAT UÇOTU TƏCRÜBƏSİNDƏ VƏ BEYNƏLXALQ MALİYYƏ HESABATLARI STANDARTLARI SİSTEMİNDƏ SAHİBKARLIQ SUBYEKTLƏRİNİN İNNOVATİV (TƏDQİQAT) FƏALİYYƏTİNİN NƏTİCƏSİ OLAN QEYRİ-MADDİ AKTİVLƏRİN UÇOTUNUN METODLARI

Fidan QURBANOVA

Azərbaycan Dövlət İqtisad Universitetinin

Doktorantı (dissertant)

Məqsəd: Azərbaycan Respublikasında mövcud olan qaydalarını və MHBS tələblərini araşdıraraq qeyri-maddi aktivlərin idarə edilməsi uçotunun təşkil etdirilməsi və beynəlxalq standartların uyğunlaşdırılması üçün tövsiyələr hazırlamaq. Maliyyə məlumatlarını qeyd etmək, təhlil etmək və rəhbərliyə təqdim etmək, iş əməliyyatlarının sistematik və effektiv planlaşdırılması və aparılmasında faydalı və köməkçi olmaqdır.

İdarəetmə uçotunun əsas məqsədi rəhbərliyə öz funksiyalarını səmərəli yerinə yetirməkdə kömək etməkdir. İdarəetmənin əsas funksiyaları planlaşdırma, təşkil etmə, istiqamətləndirmə və nəzarətdir. İdarəetmə uçotu bu funksiyaları səmərəli yerinə yetirməkdə rəhbərliyə kömək edir.

Metodologiya. Müqayisə, təhlil, ümumiləşdirmə və sistemləşdirmə kimi tədqiqat tədqiqat metodlarından istifadə edilmişdir

Nəticələr: Təsərrüfat subyektlərində əqli mülkiyyət(Tədqiqat) obyektlərinin qeyri-maddi aktivlər kimi mühasibat uçotunda əks etdirilməsinə müxtəlif elmi baxışların tənqidi təhlili əsasında Azərbaycan və beynəlxalq mühasibat uçotu standartlarına müvafiq yanaşmalardakı oxşarlıqlar və fərqlər sistemləşdirilir.

Təsərrüfat subyektlərində əqli mülkiyyət (Tədqiqat) obyektlərinin səmərəli istifadəsinin, yəni həqiqi ucotunun təmin edilməsi, onların hər an istifadəsi uzərində operativ təhlil və ciddi nəzarətin təşkil olunması qarşıya qoyulan vəzifənin yerinə yetirilməsinə cavab verən metodların tətbiqini tələb edir.

Məlumdur ki, təsərrüfat subyektlərində əqli mülkiyyət (Tədqiqat) obyektləri kəmiyyət və keyfiyyət gostəriciləri ilə xarakterizə olunur. Kəmiyyət gostərici təsərrüfat subyektlərində tətbiq olunan əqli mülkiyyət (Tədqiqat) obyektlərinin həcmi, onun tətbiqinin davamlılığı və miqdar ucotu gostəricisini muəyyən edirsə, onların fəaliyyətinin keyfiyyət gostəricisi isə iki qarşılıqlı əlaqəli mərhələni ozundə əks etdirən canlı və maddiləşmiş əməyin ucotu gostəricisini xarakterizə edir.

Bazar munasibətlərinə kecid şəraitində təsərrüfat subyektlərində əsas diqqət iş keyfiyyətini xarakterizə edən gostəricilərin yaxşılaşmasına verilən əqli mülkiyyət (Tədqiqat) obyektlərinin istifadəsinin ucotu, nəzarət və təhlilin aparılma metodları xususi aktuallıq kəsb etdiyindən, onların bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması tələb olunur.

Bundan başqa təsərrüfat subyektlərində metodoloji, texnoloji, təşkilati xususiyyətlərin və ucot hesablama işlərinin mexanikləşmə səviyyəsinin, eləcə də ucot qarşısında qoyulan məqsədin vahid prinsiplər əsasında qurulması ucot, nəzarət və iqtisadi təhlil sisteminin secilməsinə əhəmiyyətli dərəcədə təsir gostərir. Bu və ya digər ucot metodunun tətbiqi sahəsinin duzgun muəyyən edilməsi, hər şeydən əvvəl, onların məzmun və elmi əsaslandırılmış təsnifləşdirilməsini tələb edir. Bu, ilk novbədə idarəetmə ucotunun məqsəd və vəzifəsini dəqiqləşdirməyə və konkretləşdirməyə, onun qabaqcıl və mutərəqqi metodlarının təcrubəvi olaraq tətbiqini genişləndirməyə imkan yaradır.

Təsərrüfat subyektlərində əqli mülkiyyət (Tədqiqat) obyektlərinin ucotunun metodoloji bazasının təkmilləşdirilməsi ucun hər şeydən əvvəl olkə və xaricdə toplanan təcrubənin umumiləşdirilməsi, normativ və metodiki materialların tənqidi təhlili tələb olunur. Məsrəflərin ucotu metodlarına dair normativ sənədlərlə təklif edilən birbaşa və dolayı metodlarının ustunluk təşkil etməsi haqda fikirlər soylənilir.

Təsərrüfat subyektlərində əqli mülkiyyət (Tədqiqat) obyektlərinə çəkilmiş məsrəflər aşağıdakı qaydada ayrıca təsnifləşdirilə bilər:

1) əqli mülkiyyət (Tədqiqat) obyektlərinə məsrəflərinin detallar üzrə uçotu;

2) əqli mülkiyyət (Tədqiqat) obyektlərin istifadısi üzrə uçotu

3) əqli mülkiyyət (Tədqiqat) obyektlərinə məsrəflərinin proseslər üzrə uçotu;

Onda təsərrüfat subyektlərində əqli mülkiyyət (Tədqiqat) obyektlərinə çəkilmiş məsrəflər aşağıdakı qaydada formalaşır.

1) birbaşa hesablama üsulu ilə;

2) toplanması üsulu ilə;

3) istisnaetmə üsulu ilə;

Qeyd etmək lazımdır ki, məsələnin bu cür qoyuluşu təsərrüfat subyektlərində əqli mülkiyyət (Tədqiqat) obyektləri haqda uçot informasiyalarının dəqiqliyini və operativliyini təmin edir. İdarəetmə uçotunun əsas əhəmiyyəti rəhbərliyi maliyyə məlumatları ilə təmin etməkdir. Məlumat siyasətləri nəzərdən keçirmək və qərar qəbul etmək üçün müxtəlif idarəetmə səviyyələrinə uyğun bir şəkildə verilir.

Təsərrüfat subyektlərində əqli mülkiyyət (Tədqiqat) obyektlərinin maliyyə uçotu yalnız maliyyə hesabatlarının təqdimatında bir bölmə ilə məhdudlaşır. İdarəetmə uçotu, orada olan fakt və rəqəmlərin səbəb və nəticələrini təhlil edir.

Təsərrüfat subyektlərində əqli mülkiyyət (Tədqiqat) obyektləri üzrə idarəetmə uçotu, mühasibat məlumatlarının rəhbərliyə daha faydalı və faydalı olması üçün standart xərcləmə, smeta nəzarəti, pul axını, nisbət təhlili, məsuliyyət uçotu və s. kimi xüsusi metodlardan istifadə edərək, rəhbərliyə müxtəlif vacib qərarlar qəbul etmək və səmərəliliyi artırmaq üçün müvafiq məlumatları verməkdir və sabit Konvensiyalar yoxdur. Daim nəzərdən keçirilir, səmərəliliyin azalması səbəbləri müəyyənləşdirmək üçün araşdırılır və təhlil edilir.

İdarəetmə mühasibatlığı, effektiv və dəqiq qərarlar verməyə imkan verən həm maliyyə, həm də qeyri-maliyyə məlumatlarını nəzərə alır.

9 iyun 2009-cu il tarixli № 831-IIIQ saylı “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası qanununun mühasibat uçotunun əsas anlayışlarında qeyri-maddi aktivlər — fiziki əsası olmayan, lakin sahibkarın imtiyazı və hüququ əsasında dəyər yaradan dövriyyədənkənar aktivlər kimi təsnif olunmuşdurdir və mühasibat uçotunun obyektlərindən biri kimi qeyri-maddi aktivlər göstərilmişdir

Bu Qanunun tələblərinə əsasən bütün mühasibat uçotu subyektlərində əqli mülkiyyət obyektlərinin qeyri-maddi aktivlərin mühasibat uçotu 38 saylı“Qeyri-maddi aktivlər” Muhasibat Ucotunun Beynəlxalq Standartına və uçot qaydalarına uyğun aparılması məcburidir.

Həmin Standartın 17 maddəsinə əsasən — Qeyri-maddi aktivlərdən daxil olan gələcək iqtisadi səmərəyə malların satışından və ya xidmətlərin gostərilməsindən alınan gəlir, məsrəflərə qənaət, muəssisə tərəfindən aktivlərin istifadəsindən yaranan digər mənfəətlər aid edilə bilər. Məsələn, istehsal prosesində intellektual mulkiyyətin istifadəsi gələcək gəliri artırmaq əvəzinə gələcək istehsal xərclərini azalda bilər.

Həmin Standartın 18 maddəsinə əsasən əgər muəssisə bu və ya digər maddəni qeyri-maddi aktiv kimi tanıyırsa, o həmin maddənin qeyri-maddi aktivlərə aid anlayışlar və tanıma meyarını odədiyini göstərməlidir. Bu tələblər qeyri-maddi aktivin ilkin alınması və ya daxili imkanlar hesabına yaradılması nəticəsində yaranan məsrəflərə və daha sonra ona əlavə edilməsi, muəyyən hissəsinin dəyişdirilməsi və ya ona xidmətlə bağlı yaranan məsrəflərə tətbiq olunur.

Həmin Standartın 28 maddəsinə əsasən birbaşa məsrəflərə: - aktivin işçi vəziyyətə gətirilməsindən birbaşa yaranan, işçilərin mukafatlandırılması ucun cəkilən xərcləri, aktivin iş vəziyyətinə gətirilməsindən birbaşa yaranan peşəkar xidmət haqlarını və aktivin duzgun fəaliyyət gostərib gostərmədiyini yoxlama xərclərini göstərmək olar.

Həmin Standartın 29 maddəsinə əsasən - Qeyri-maddi aktivlərin ilkin dəyərinin bir hissəsini təşkil etməyən məsrəflərə: yeni məhsulun və ya xidmətin təqdimat xərcləri (reklam və stimullaşdırma fəaliyyətlərinə aid xərclər daxil olmaqla), biznesin yeni ərazidə və ya yeni kateqoriyadan olan muştərilərlə aparılması xərcləri (heyətin təlim xərcləri daxil olmaqla) , inzibati və digər əlavə xərcləri göstərmək olar.

Həmin Standartın 30 maddəsinə əsasən qeyri-maddi aktivlərlə bağlı xərclərin balans dəyərində tanınması, aktivin rəhbərlik tərəfindən nəzərdə tutulan tərzdə fəaliyyət gostərmək iqtidarında olduğu andan dayandırılır. Bu səbəbdən də, qeyri-maddi aktivin istismarı və yerdəyişməsi (yenidən təşkili) zamanı yaranan xərclər həmin aktivin balans dəyərinə daxil edilmir. Hələ istifadə edilməyən, lakin rəhbərlik tərəfindən nəzərdə tutulan tərzdə fəaliyyət gostərə bilən aktiv ucun cəkilmiş xərclər, ilkin əməliyyat itkiləri, məsələn, aktivdən irəli gələn məhsul ucun bazar tələbinin formalaşdırılması dovru ərzində cəkilən xərclər qeyri-maddi aktivlərin balans dəyərinə daxil edilmir.

Həmin Standartın 31 maddəsinə əsasən bəzi əməliyyatlar qeyri-maddi aktivlərin hazırlanması ilə bağlı baş verir, lakin aktivin rəhbərlik tərəfindən nəzərdə tutulan tərzdə istifadəyə hazır etmək ucun ucun zəruri deyildir. Bu əlavə əməliyyatlar hazırlıq fəaliyyətləri zamanı və ya ondan əvvəl baş verə bilər. Əlavə əməliyyatlar aktivi rəhbərlik tərəfindən nəzərdə tutulan tərzdə istifadəyə hazır etmək ucun zəruri olmadığından, əlavə əməliyyatlarla bağlı gəlir və əlaqəli xərclər dərhal mənfəət və ya zərər hesabında tanınır və onlarla bağlı gəlir və xərclərin muvafiq təsnifatlarına daxil edilir.

Həmin Standartın 32 maddəsinə əsasən əgər qeyri-maddi aktivlər ucun odəniş normal kredit şərtlərindən kənar olaraq təxirə salınarsa, onun ilkin dəyəri nağd vəsait ekvivalentinə bərabərdir. Bu məbləğlə umumi odənişlər arasındakı fərq “Borclara aid edilən xərclər” adlı 23 №-li MUBS-da nəzərdə tutulan kapitalizasiya yanaşmasına muvafiq olaraq kapitallaşdırılmayanadək kreditin verildiyi dovr uzrə faiz xərci kimi tanınır.

Həmin Standartın 42 maddəsinə əsasən - Tədqiqat və təcrubə-konstruktor işləri ilə bağlı məsrəflərə:- ayrıca əldə olunmuş və ya biznesin birləşməsindən əldə olunan və qeyri-maddi aktivlər kimi tanınan tamamlanmamış tədqiqat və konstruktor-sınaq işləri nəticəsində yaranan məsrəflər və layihələrin əldə olunmasından sonra yaranan məsrəflər 54-62-ci maddələrə uyğun olaraq ucota alınacaqdır. Hec bir tədqiqat uzrə (və ya daxili layihənin tədqiqat fazasından) yaranmış qeyri-maddi aktiv tanınmamalıdır. Tədqiqat uzrə məsrəflər (və yaxud daxili layihənin tədqiqat fazası zamanı yaranmış məsrəflər) yarandığı andan etibarən xərclər kimi ucota alınmalıdır. Daxili layihənin tədqiqat fazası cərcivəsində muəssisə qeyri-maddi aktivin movcud olmasını və onun ehtimal edilən gələcək iqtisadi mənfəət yaradacağını numayiş etdirə bilmir. Bu səbəbdən də həmin xərclər yarandıqları dovrdə xərc kimi tanınır.

Tədqiqat fəaliyyətlərinə numunə olaraq - yeni biliyin əldə olunmasına yonəlmiş fəaliyyətlər, tədqiqat nəticələri və ya digər bilik uzrə axtarışlar, qiymətləndirmələr və yekun secim, materiallar, vasitələr, məhsullar, proseslər, sistemlər və ya xidmətlər uzrə

alternativlərin axtarışı, yeni və təkmilləşdirilmiş materiallar, vasitələr, məhsullar, proseslər, sistemlər və xidmətlər ucun mumkun alternativlərin formalaşdırılması, dizaynı, qiymətləndirməsi və yekun secimi gostərmək olar.

Təcrubə-konstruktor işləri zamanı yaranmış qeyri-maddi aktivlər (və yaxud daxili layihənin təcrubə-konstruktor işləri fazası cərcivəsində yaranmış qeyri-maddi aktivlər) yalnız və yalnız - istifadə və satış ucun yararlı olacaq qeyri-maddi aktivin tamamlanmasının texniki cəhətdən mumkunluyu, qeyri-maddi aktivin tamamlanması, istifadəsi və satışı ilə bağlı niyyətini, qeyri-maddi aktivi istifadə etmək və satmaq bacarığını, qeyri-maddi aktivin gələcək iqtisadi səmərəni necə yaradacağını, qeyri-maddi aktivin buraxılması ucun bazarın movcud olmasını və ya qeyri-maddi aktivin ozunu və ya əgər qeyri-maddi aktiv muəssisə daxilində istifadə olunubsa, qeyri-maddi aktivin istifadəyə yararlılığını, qeyri-maddi aktiv yaradılan zaman əmələ gələn və aktivin yaradılmasına aidiyyatı olan məsrəflərin ədalətli əsasda hesablanması bacarığını, qeyri-maddi aktivin yaradılması, istifadəsi və ya satışının başa catdırılması ucun adekvat texniki, maliyyə və digər resursların olmasını numayiş etdirə bildiyində tanınır.

Təcrubə-konstruktor işləri fəaliyyətlərinə - istehsaldan və istifadədən əvvəl prototiplərin və ya modellərin dizaynı, tikilməsi və yoxlanmasını, yeni texnologiyanı istifadə etməklə alətlərin, detalların dizaynını, kommersiya istehsalı ilə məşğul olmaq ucun iqtisadi cəhətdən real olmayan sınaq zavodunun dizaynı, tikintisi və fəaliyyətini, yeni və təkmilləşdirilmiş materiallar, vasitələr. məhsullar, proseslər, sistemlər və ya xidmətlər ucun secilmiş alternativin dizaynı, tikintisi və yoxlanmasını gostərmək olar.

Qeyri-maddi aktivin ehtimal olunan gələcək iqtisadi mənfəəti necə yaradacağını numayiş etdirmək ucun muəssisə “Aktivlərin qiymətdən duşməsi” adlı 36 №-li MUBS-un tələblərini istifadə etməklə aktivdən əldə olunacaq gələcək iqtisadi mənfəəti qiymətləndirir. Əgər aktiv yalnız digər aktivlərlə birlikdə iqtisadi mənfəət yaradarsa, muəssisə 36 №-li MUBS-un nağd vəsait yaradan vahidlər konsepsiyasını tətbiq edir.

Qeyri-maddi aktivlərdən yaranan mənfəəti tamamlamaq, istifadə etmək və əldə etmək ucun resursların məsələn, texniki, maliyyə və digər lazımlı resursları əks etdirən biznes planları kimi resursların movcud olması muəssisənin həmin resursları muhafizə etmək bacarığı ilə numayiş oluna bilər. Bəzi hallarda, muəssisə borc verənin planı maliyyələşdirmək istəyini qəbul etməklə xarici maliyyə vəsaitinin cəlb olunması mumkunluyunu numayiş etdirir.

Muəssisədə xərclərin idarə olunması sistemi tez-tez daxili imkanlar hesabına yaradılmış qeyri-maddi aktivin dəyərinin məsələn, əmək haqqı və muəllif huquqlarının və ya lisenziyaların yaxud hazırlanmış komputer proqram təminatının muhafizəsi ucun cəkilmiş xərclərin qiymətləndirməsini apara bilər.

Yuxarıdakı maddələrin tələblərinin tətbiq edilməsi o deməkdir ki, biznesin birləşməsi nəticəsində və ya ayrıca əldə olunan tədqiqat və təcrubə-konstruktor işləri ilə bağlı layihələrin həyata kecirilməsi prosesində yaranan sonrakı məsrəflər - əgər bu, tədqiqat işləri ilə bağlı məsrəflərdirsə, o zaman xərclər kimi tanınır, əgər təcrubə-konstruktor işləri ilə bağlı məsrəflər qeyri-maddi aktiv anlayışı haqda - istifadə və satış ucun yararlı olacaq qeyri-maddi aktivin tamamlanmasının texniki cəhətdən mumkunluyu, qeyri-maddi aktivin tamamlanması, istifadəsi və satışı ilə bağlı niyyətini, qeyri-maddi aktivi istifadə etmək və satmaq bacarığını, qeyri-maddi aktivin gələcək iqtisadi səmərəni necə yaradacağını, qeyri-maddi aktivin buraxılması ucun bazarın movcud olmasınıvə ya qeyri-maddi aktivin ozunu və ya əgər qeyri-maddi aktiv muəssisə daxilində istifadə olunubsa, qeyri-maddi aktivin istifadəyə yararlılığını, qeyri-maddi aktiv yaradılan zaman əmələ gələn və aktivin yaradılmasına aidiyyatı olan məsrəflərin ədalətli əsasda hesablanması bacarığını, qeyri-maddi aktivin yaradılması, istifadəsi və ya satışının başa catdırılması ucun adekvat texniki, maliyyə və digər resursların olmasını numayiş etdirə bildiyində tanınma kriteriyalarına

uyğun gəlməzsə, bu zaman yarandığı andan onlar xərc kimi tanınacaqdır, əldə olunmuş tədqiqat və təcrubə-konstruktor işləri ilə bağlı layihələrin, əgər onlar qeyri-maddi aktiv anlayışı haqda tanınma kriteriyalarına uyğun gələn təcrubə-konstruktor işləri işlərinə sərf olunmuş məsrəflərdirsə, onlar balans dəyərinə əlavə olunaraq qeyri-maddi aktiv kimi tanınacaqdır.

Nəticə

Təsərrüfat subyektlərində əqli mülkiyyət (Tədqiqat) obyektlərinin idarəetmə uçotu mühasibat uçotunun tərkibində rəhbərliyə idarəetmə əsaslı qərarları hazırlamaq və onları təhlil edərək istifadəsi üçün toplanılan hər bir uçot məlumatlarını özündə əhatə etməkdədir. Uçot siyasəti mövcud normativ aktlara əsasən hazırlanır. əqli mülkiyyət (Tədqiqat) obyektlərinin (qeyri-maddi aktivin) uçotu da buna aiddir və onun təkmil formaya salınması, praktiki seqmen¬tinin və nəzəri əsaslarının təkmilləşdirilməsi nəzərdə tutulur.

YEKUN ÇIXIŞ

Hörmətli qonaqlar!

Dəyərli həmkarlar, xanımlar və cənablar!

Bu gün işinə qatıldığımız Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş yubiley tədbiri və "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın birinci günü fikrimcə uğurla yekunlaşmaqdadır.

Tədbirimizin uğurlu olması ilk növbədə onunla əlaqədardır ki, konfransın işində Sizlər kimi dost ölkələrdən və Azərbaycandan yüksək nüfuza malik peşəkar həmkarlarımız iştirak və çıxış etdilər.

Çox xoşdur ki, tədbirimiz yüksək işgüzarlıq şəraitində keçmiş, maraqlı müzakirə və fikir mübadiləsi ilə müşaiyət edilmişdir və son nəticədə ölkələrimiz üçün mühüm əhəmiyyət kəsb edən tövsiyələrin qəbul edilməsinə zəmin yaranmışdır.

Mən fürsətdən istifadə edərək bütün iştirakçılara, ilk növbədə xaricdən gəlmiş həmkarlarımıza bir daha təşəkkür edirəm.

Xüsusi təşəkkürlərimi isə konfransın keçirilməsində yaxından iştirak edən sponsorlarımıza – Auditorlar Palatasının üzvlərinə çatdırmağı özümə borc bilirəm.

Əziz həmkarlar!

Bu gün burada iştirak edən hər bir şəxs Auditorlar Palatasının 30 illik tarixinin bu əlamətdar səhifəsinə öz töhfəsini verdi.

Səsləndirilən xoş sözlər, təbriklər və yüksək qiymətlər bizim üçün mənəvi dəyər daşıyır. Biz bu diqqəti və etimadı gələcək fəaliyyətimiz üçün böyük məsuliyyət kimi qəbul edirik.

Hörmətli xanımlar və cənablar!

Bu əlamətdar yubiley münasibətilə bütün auditorları, Palatanın əməkdaşlarını, audit ictimaiyyətini və bizimlə bu məsuliyyətli yolda əməkdaşlıq edən bütün tərəfdaşlarımızı bir daha ürəkdən təbrik edirəm. Hər birinizə möhkəm cansağlığı, ailə səadəti, firavanlıq və peşə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Diqqətinizə, etimadınıza və bu əlamətdar günü bizimlə bölüşdüyünüzə görə Sizlərə dərin təşəkkürümü bildirirəm.

Çox sağ olun!

Vahid NOVRUZOV,

Azərbaycan Respublikası

Auditorlar Palatasının sədri,

iqtisad elmləri doktoru, professor

T Ö V S İ Y Ə L Ə R

2026-cı il 16-17 sentyabr tarixlərində Bakı şəhərində keçirilmiş “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçıları tərəfindən qəbul edilmişdir.

I. Konfrans barədə

2026-cı il sentyabrın 16-17-də Bakı şəhərində Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Konfransda Azərbaycanla yanaşı, xarici ölkələrin audit və mühasibatlıq sahəsində fəaliyyət göstərən peşəkar təşkilatlarının, dövlət qurumlarının, elm və təhsil müəssisələrinin nümayəndələri, auditorlar, mühasiblər, alimlər, ekspertlər və digər mütəxəssislər iştirak etmişlər.

Konfransın əsas məqsədi auditor peşəsinin müasir inkişaf istiqamətlərini müəyyənləşdirmək, auditin ənənəvi uyğunluq və nəzarət funksiyalarından strateji tərəfdaşlıq modelinə keçidini müzakirə etmək, auditə ictimai etimadın gücləndirilməsi yollarını araşdırmaq, rəqəmsal texnologiyaların və süni intellektin auditor fəaliyyətinə təsirini qiymətləndirmək, habelə beynəlxalq təcrübə əsasında auditin keyfiyyətinin, şəffaflığının və hesabatlılığının artırılmasına dair təkliflər hazırlamaqdan ibarət olmuşdur.

Konfrans çərçivəsində auditin ictimai maraqların qorunmasında rolu, dövlət nəzarəti və müstəqil audit arasında qarşılıqlı əlaqə, peşə etikası və müstəqillik prinsipləri, daxili auditin və korporativ idarəetmənin təkmilləşdirilməsi, risklərin idarə olunması, süni intellekt və digər rəqəmsal həllərin tətbiqi, dayanıqlı inkişaf və qeyri-maliyyə hesabatlılığı, eləcə də auditorların peşəkar bilik və bacarıqlarının inkişafı məsələləri müzakirə edilmişdir.

Çıxışlarda vurğulanmışdır ki, müasir şəraitdə audit yalnız maliyyə hesabatlarının düzgünlüyünün yoxlanılması və normativ tələblərə uyğunluğun qiymətləndirilməsi ilə məhdudlaşmamalı, eyni zamanda risklərin qabaqcadan müəyyənləşdirilməsinə, idarəetmə qərarlarının keyfiyyətinin yüksəldilməsinə, resurslardan səmərəli istifadəyə və təşkilatların uzunmüddətli dayanıqlığının təmin edilməsinə töhfə verən strateji tərəfdaş funksiyasını yerinə yetirməlidir.

Həmçinin qeyd edilmişdir ki, auditə ictimai etimadın möhkəmləndirilməsi auditorların müstəqilliyinin, obyektivliyinin, peşəkar səriştəsinin və etik davranış prinsiplərinə riayət etməsinin təmin edilməsindən, auditin keyfiyyətinə kənar nəzarət mexanizmlərinin təkmilləşdirilməsindən, eləcə də audit nəticələrinin şəffaflığının və etibarlılığının artırılmasından bilavasitə asılıdır.

Konfrans iştirakçıları rəqəmsallaşmanın və süni intellektin audit proseslərinin səmərəliliyinin artırılması, böyük həcmli məlumatların təhlili və risklərin daha erkən mərhələdə müəyyən edilməsi baxımından geniş imkanlar yaratdığını qeyd etmişlər. Eyni zamanda, bu texnologiyaların tətbiqinin insan mühakiməsini, peşəkar skeptisizmi, etik məsuliyyəti və auditorun müstəqil qərarvermə qabiliyyətini əvəz edə bilməyəcəyi vurğulanmışdır.

Bununla yanaşı, daxili auditin korporativ idarəetmənin, risklərin idarə olunmasının və daxili nəzarət sistemlərinin təkmilləşdirilməsində rolunun gücləndirilməsi, dayanıqlı inkişafla bağlı məlumatların etibarlılığının təmin edilməsi, auditorların davamlı peşəkar inkişafının dəstəklənməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

Konfrans çərçivəsində aparılmış müzakirələr və təqdim olunmuş elmi-praktik yanaşmalar nəzərə alınmaqla, audit sisteminin institusional inkişafının dəstəklənməsi, peşəkar standartların tətbiqinin təkmilləşdirilməsi, auditə ictimai etimadın gücləndirilməsi və rəqəmsal texnologiyalardan məsuliyyətli istifadənin təşviqi məqsədilə aşağıdakı tövsiyələr işlənib hazırlanmışdır.

II. Beynəlxalq elmi-praktik konfransın iştirakçıları tərəfindən aşağıdakı məsələlər müzakirə edilmişdir:

- Auditor peşəsinin inkişaf mərhələləri: uyğunluq və nəzarət funksiyalarından strateji tərəfdaşlığa keçid;
- Auditə ictimai etimadın gücləndirilməsində peşə etikası, auditor müstəqilliyi və peşəkar məsuliyyətin rolu;
- Audit sisteminin təkmilləşdirilməsində beynəlxalq standartların və qabaqcıl təcrübələrin tətbiqi;
- Auditor fəaliyyətinin şəffaflığın, hesabatlılığın və ictimai maraqların qorunmasının təmin edilməsində əhəmiyyəti;
- Süni intellekt və rəqəmsal texnologiyaların audit proseslərinə tətbiqi, onların imkanları və riskləri;
- Rəqəmsal transformasiya şəraitində auditorun peşəkar mühakiməsinin, skeptisizminin və etik məsuliyyətinin qorunması;
- Auditdə məlumatların təhlili və avtomatlaşdırılmış vasitələrdən istifadə etməklə risklərin vaxtında müəyyənləşdirilməsi;
- Daxili auditin korporativ idarəetmənin, daxili nəzarətin və risklərin idarə olunmasının təkmilləşdirilməsində rolu;
- Audit və daxili audit funksiyalarının strateji qərarların qəbul edilməsinə və təşkilatların dayanıqlı inkişafına verdiyi töhfə;
- Dayanıqlı inkişaf və qeyri-maliyyə hesabatlılığı şəraitində məlumatların etibarlılığının və şəffaflığının təmin edilməsi;
- Auditorların peşəkar səriştələrinin inkişafı və davamlı peşəkar təhsilin əhəmiyyəti;
- Audit sahəsində elmi-praktik əməkdaşlığın və beynəlxalq təcrübə mübadiləsinin gücləndirilməsi;
- Auditə ictimai etimadın artırılmasında peşəkar təşkilatların, dövlət qurumlarının və digər maraqlı tərəflərin qarşılıqlı fəaliyyətinin əhəmiyyəti.

2.1 Auditə ictimai etimadın, şəffaflığın və hesabatlılığın gücləndirilməsinə dair

- Auditor fəaliyyətinin uyğunluq və nəzarət funksiyalarından strateji tərəfdaşlıq modelinə keçidinin təşviq edilməsi;
- Auditə ictimai etimadın artırılması məqsədilə auditorların müstəqilliyinin, obyektivliyinin, peşəkar səriştəsinin və etik məsuliyyətinin gücləndirilməsi;
- Maliyyə hesabatlarının etibarlılığının və auditor rəylərinin keyfiyyətinin artırılması;
- Dövlət vəsaitlərinin məqsədyönlü və səmərəli istifadəsinin qiymətləndirilməsində auditin rolunun gücləndirilməsi;

- Təsərrüfat subyektlərində şəffaflığın, hesabatlılığın və sağlam korporativ idarəetmə təcrübələrinin inkişaf etdirilməsi;
- Audit nəticələrinin istifadəçilər üçün aydın, əsaslandırılmış və əlçatan olmasının təmin edilməsi;
- Riskəsaslı audit yanaşmasının tətbiqinin genişləndirilməsi və audit prosedurlarının müasir iqtisadi çağırışlara uyğunlaşdırılması;
- Audit nəticələrindən idarəetmə qərarlarının keyfiyyətinin artırılması və təşkilatların uzunmüddətli dayanıqlığının təmin edilməsi məqsədilə istifadə olunması;
- Auditor peşəsinin gənclər arasında cəlbediciliyinin artırılması və müasir əmək bazarının tələblərinə uyğun kadr hazırlığının təşviq edilməsi.

2.2 Rəqəmsallaşma və süni intellektin auditdə tətbiqinə dair

- Audit proseslərində rəqəmsal texnologiyaların, süni intellektin və avtomatlaşdırılmış təhlil vasitələrinin məsuliyyətli tətbiqinin genişləndirilməsi;
- Böyük verilənlərin təhlili vasitəsilə maliyyə əməliyyatlarında qeyri-adi meyillərin, uyğunsuzluqların və potensial saxtakarlıq əlamətlərinin vaxtında müəyyənləşdirilməsi;
- Süni intellekt əsaslı alətlərin auditorun peşəkar mühakiməsini əvəz etmədən onun analitik imkanlarını və qərarvermə prosesini dəstəkləməsi üçün müvafiq metodoloji yanaşmaların hazırlanması;
- Rəqəmsal audit alətlərinin tətbiqi zamanı məlumatların dəqiqliyinin, məxfiliyinin, bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi;
- Kibertəhlükəsizlik risklərinin və informasiya sistemlərindəki zəifliklərin audit çərçivəsində qiymətləndirilməsi;
- Süni intellekt sistemlərindən istifadə zamanı yanlış nəticələr və alqoritmik qərəzlilik risklərinin nəzərə alınması;
- Auditorların rəqəmsal səriştələrinin artırılması və məlumat analitikası ilə süni intellekt üzrə davamlı təlimlərin təşkili;
- Rəqəmsal iqtisadiyyatın yaratdığı yeni çağırışlara uyğun olaraq audit metodologiyalarının mütəmadi yenilənməsi.

2.3 Daxili audit, korporativ idarəetmə və risklərin idarə olunmasına dair

- Daxili auditin korporativ idarəetmənin, daxili nəzarətin və risklərin idarə olunmasının təkmilləşdirilməsində rolunun artırılması;
- Daxili auditin müstəqilliyinin, obyektivliyinin və təşkilati səmərəliliyinin təmin edilməsi üçün müvafiq idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi;
- Daxili audit planlarının təşkilatın strateji məqsədləri, əsas riskləri və fəaliyyət xüsusiyyətləri əsasında hazırlanmasının təşviq edilməsi;
- Audit resurslarının daha yüksək risk daşıyan sahələrə yönəldilməsi;
- Audit nəticələri əsasında müəyyən edilmiş nöqsanların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsinə nəzarətin gücləndirilməsi;
- Daxili nəzarət sistemlərinin səmərəliliyinin və müəyyən edilmiş risklərə adekvatlığının qiymətləndirilməsi;

- Maraqlar toqquşması və maliyyə resurslarından qeyri-səmərəli istifadə risklərinin müəyyənləşdirilməsi və idarə olunması;
- Daxili audit bölmələri, audit komitələri, rəhbərlik və kənar auditorlar arasında əməkdaşlığın və məlumat mübadiləsinin gücləndirilməsi;
- Audit nəticələrinin strateji planlaşdırma və idarəetmə qərarlarının təkmilləşdirilməsi proseslərində istifadəsinin təşviq edilməsi.

2.4 Dayanıqlı inkişaf və qeyri-maliyyə hesabatlılığına dair

- Dayanıqlı inkişaf, ekoloji və sosial məsuliyyət, habelə korporativ idarəetmə məsələləri üzrə hesabatlılığın inkişaf etdirilməsinin təşviqi;
- Dayanıqlılıq hesabatlarında təqdim edilən məlumatların tamlığının, dəqiqliyinin və etibarlılığının qiymətləndirilməsi üçün müvafiq metodoloji yanaşmaların tətbiqi;
- Maliyyə və qeyri-maliyyə məlumatları arasında uyğunluğun və qarşılıqlı əlaqənin qiymətləndirilməsinin genişləndirilməsi;
- İqlim, ekoloji, sosial və idarəetmə risklərinin təşkilatların maliyyə vəziyyətinə və uzunmüddətli dayanıqlığına təsirinin təhlilinin təşviqi;
- Dayanıqlılıq hesabatlılığı üzrə beynəlxalq standartların və qabaqcıl təcrübələrin öyrənilməsi, onların milli təcrübədə tətbiqi imkanlarının qiymətləndirilməsi;
- Qeyri-maliyyə məlumatlarının toplanması, yoxlanılması və açıqlanması proseslərində daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi;
- Dayanıqlılıq hesabatlarının müstəqil təsdiqlənməsi sahəsində auditorların peşəkar səriştələrinin artırılması.

2.5 Maliyyə cinayətləri, saxtakarlıq və korrupsiya risklərinə qarşı mübarizəyə dair

- Müqavilə münasibətlərində və qarşı tərəflərlə əməliyyatlarda korrupsiya, saxtakarlıq və maliyyə cinayətləri risklərinin müəyyənləşdirilməsi məqsədilə lazımi araşdırma prosedurlarının təkmilləşdirilməsi;
- Qarşı tərəflərin fəaliyyətinin, mülkiyyət strukturunun və benefisiar mülkiyyətçilərinin riskəsaslı yanaşma əsasında qiymətləndirilməsi;
- Müəssisələrin maliyyə əməliyyatları və daxili nəzarət mexanizmləri ilə bağlı risklərin təhlilinin gücləndirilməsi;
- Maliyyə hesabatlarında saxtalaşdırma, aktivlərin mənimsənilməsi və digər maliyyə sui-istifadəsi hallarının müəyyənləşdirilməsi üçün analitik audit prosedurlarının təkmilləşdirilməsi;
- Qeyri-adi və iqtisadi baxımdan əsaslandırılmamış əməliyyatların, əlaqəli tərəflərlə əməliyyatların və potensial maliyyə sui-istifadəsi sxemlərinin müəyyənləşdirilməsi üçün risk indikatorlarının tətbiqi;
- Korrupsiya və maliyyə sui-istifadəsi risklərinin qiymətləndirilməsi zamanı auditorların peşəkar skeptisizminin və müstəqil mühakiməsinin gücləndirilməsi;
- Audit zamanı müəyyən edilmiş əhəmiyyətli pozuntuların və şübhəli əməliyyat əlamətlərinin sənədləşdirilməsi və qanunvericiliklə müəyyən edilmiş hallarda səlahiyyətli orqanlara bildirilməsi;

- Maliyyə cinayətləri və korrupsiya risklərinin qiymətləndirilməsi sahəsində auditorlar və səlahiyyətli dövlət qurumları arasında qanunvericiliyə uyğun əməkdaşlığın gücləndirilməsi;
- Auditorların maliyyə cinayətləri, saxtakarlıq və korrupsiya risklərinin müəyyənləşdirilməsi sahəsində bilik və bacarıqlarının artırılması üçün praktiki təlimlərin və metodiki materialların hazırlanması.

R E C O M M E N D A T I O N S

Adopted by the participants of the International Scientific and Practical Conference on “Stages of Audit Development: The Journey from Compliance to Strategic Partnership and Trust”, held in Baku on September 16-17, 2026.

I. About the Conference

On September 16-17, 2026, an International Scientific and Practical Conference on “Stages of Audit Development: The Journey from Compliance to Strategic Partnership and Trust”, dedicated to the 30th anniversary of the commencement of activities of the Chamber of Auditors of the Republic of Azerbaijan, was held in Baku.

Along with representatives from Azerbaijan, the conference was attended by representatives of professional audit and accounting organizations, government bodies, scientific and educational institutions from foreign countries, as well as auditors, accountants, academics, experts and other specialists.

The main objective of the conference was to identify current directions for the development of the auditing profession, discuss the transition of auditing from its traditional compliance and control functions to a strategic partnership model, explore ways to strengthen public trust in auditing, assess the impact of digital technologies and artificial intelligence on audit activities, and develop proposals for improving audit quality, transparency and accountability based on international experience.

Within the framework of the conference, issues relating to the role of auditing in protecting the public interest, the interaction between state oversight and independent auditing, professional ethics and the principles of independence, the improvement of internal auditing and corporate governance, risk management, the application of artificial intelligence and other digital solutions, sustainable development and non-financial reporting, as well as the development of auditors’ professional knowledge and skills were discussed.

The speakers emphasized that, under modern conditions, auditing should not be limited solely to verifying the accuracy of financial statements and assessing compliance with regulatory requirements. It should also perform the function of a strategic partner, contributing to the early identification of risks, improving the quality of management decisions, ensuring the efficient use of resources and supporting the long-term sustainability of organizations.

It was also noted that strengthening public trust in auditing directly depends on ensuring auditors’ independence, objectivity, professional competence and compliance with ethical principles, improving external quality assurance mechanisms, as well as increasing the transparency and reliability of audit results.

The conference participants noted that digitalization and artificial intelligence create significant opportunities for improving the efficiency of audit processes, analysing large volumes of data and identifying risks at an earlier stage. At the same time, it was emphasized that the application of these technologies cannot replace human judgement, professional scepticism, ethical responsibility or the auditor’s ability to make independent decisions.

In addition, strengthening the role of internal auditing in improving corporate governance, risk management and internal control systems, ensuring the reliability of sustainability-related information, supporting the continuing professional development of auditors and expanding international cooperation were identified as priority areas.

Taking into account the discussions held and the scientific and practical approaches presented within the framework of the conference, the following recommendations have been developed with a view to supporting the institutional development of the audit system,

improving the implementation of professional standards, strengthening public trust in auditing and promoting the responsible use of digital technologies.

II. The participants of the International Scientific and Practical Conference discussed the following issues:

- Stages of development of the auditing profession: transition from compliance and control functions to strategic partnership;
- The role of professional ethics, auditor independence and professional responsibility in strengthening public trust in auditing;
- Application of international standards and best practices in improving the audit system;
- The importance of audit activities in ensuring transparency, accountability and the protection of the public interest;
- Application of artificial intelligence and digital technologies in audit processes, their opportunities and risks;
- Preservation of the auditor's professional judgement, scepticism and ethical responsibility in the context of digital transformation;
- Timely identification of risks in auditing through data analysis and the use of automated tools;
- The role of internal auditing in improving corporate governance, internal control and risk management;
- The contribution of audit and internal audit functions to strategic decision-making and the sustainable development of organizations;
- Ensuring the reliability and transparency of information in the context of sustainable development and non-financial reporting;
- Development of auditors' professional competencies and the importance of continuing professional education;
- Strengthening scientific and practical cooperation and the exchange of international experience in the field of auditing;
- The importance of cooperation among professional organizations, government bodies and other stakeholders in increasing public trust in auditing.

2.1. On Strengthening Public Trust, Transparency and Accountability in Auditing

- Promoting the transition of audit activities from compliance and control functions to a strategic partnership model;
- Strengthening auditors' independence, objectivity, professional competence and ethical responsibility in order to increase public trust in auditing;
- Improving the reliability of financial statements and the quality of audit opinions;
- Strengthening the role of auditing in assessing the targeted and efficient use of public funds;
- Developing transparency, accountability and sound corporate governance practices in business entities;
- Ensuring that audit results are clear, substantiated and accessible to users;

- Expanding the application of the risk-based audit approach and adapting audit procedures to modern economic challenges;
- Using audit results to improve the quality of management decisions and ensure the long-term sustainability of organizations;
- Increasing the attractiveness of the auditing profession among young people and promoting the training of specialists in line with the requirements of the modern labour market.

2.2. On the Application of Digitalization and Artificial Intelligence in Auditing

- Expanding the responsible application of digital technologies, artificial intelligence and automated analytical tools in audit processes;
- Timely identification of unusual trends, inconsistencies and potential signs of fraud in financial transactions through big data analysis;
- Developing appropriate methodological approaches to ensure that artificial intelligence-based tools support the auditor's analytical capabilities and decision-making process without replacing professional judgement;
- Ensuring the accuracy, confidentiality, integrity and security of data when applying digital audit tools;
- Assessing cybersecurity risks and vulnerabilities in information systems within the framework of auditing;
- Taking into account the risks of inaccurate results and algorithmic bias when using artificial intelligence systems;
- Enhancing auditors' digital competencies and organizing continuing training in data analytics and artificial intelligence;
- Regularly updating audit methodologies in response to new challenges arising from the digital economy.

2.3. On Internal Auditing, Corporate Governance and Risk Management

- Strengthening the role of internal auditing in improving corporate governance, internal control and risk management;
- Improving relevant governance mechanisms to ensure the independence, objectivity and organizational effectiveness of internal auditing;
- Promoting the preparation of internal audit plans based on an organization's strategic objectives, key risks and operational characteristics;
- Directing audit resources towards areas with higher levels of risk;
- Strengthening oversight of the implementation of measures aimed at eliminating deficiencies identified based on audit results;
- Assessing the effectiveness of internal control systems and their adequacy in addressing identified risks;
- Identifying and managing risks related to conflicts of interest and the inefficient use of financial resources;

- Strengthening cooperation and information exchange among internal audit departments, audit committees, management and external auditors;
- Promoting the use of audit results in strategic planning and in the improvement of management decision-making processes.

2.4. On Sustainable Development and Non-Financial Reporting

- Promoting the development of reporting on sustainable development, environmental and social responsibility, as well as corporate governance matters;
- Applying appropriate methodological approaches to assess the completeness, accuracy and reliability of information presented in sustainability reports;
- Expanding the assessment of consistency and interrelationships between financial and non-financial information;
- Promoting the analysis of the impact of climate, environmental, social and governance risks on the financial position and long-term sustainability of organizations;
- Studying international standards and best practices in sustainability reporting and assessing the possibilities for their application in national practice;
- Improving internal control mechanisms in the processes of collecting, verifying and disclosing non-financial information;
- Enhancing auditors' professional competencies in the field of independent assurance of sustainability reports.

2.5. On Combating Financial Crimes, Fraud and Corruption Risks

- Improving due diligence procedures aimed at identifying corruption, fraud and financial crime risks in contractual relationships and transactions with counterparties;
- Assessing the activities, ownership structures and beneficial owners of counterparties on the basis of a risk-based approach;
- Strengthening the analysis of risks associated with enterprises' financial transactions and internal control mechanisms;
- Improving analytical audit procedures for identifying misstatements in financial statements, asset misappropriation and other forms of financial abuse;
- Applying risk indicators to identify unusual and economically unjustified transactions, related-party transactions and potential financial abuse schemes;
- Strengthening auditors' professional scepticism and independent judgement when assessing corruption and financial abuse risks;
- Documenting significant violations and indicators of suspicious transactions identified during audits and reporting them to the competent authorities in cases prescribed by law;
- Strengthening cooperation, in accordance with applicable legislation, between auditors and competent government authorities in assessing financial crime and corruption risks;
- Developing practical training programmes and methodological materials to enhance auditors' knowledge and skills in identifying financial crime, fraud and corruption risks.

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ FƏALİYYƏTƏ BAŞLAMASININ 30 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ «AUDİTİN İNKİŞAF MƏRHƏLƏLƏRİ: UYĞUNLUQDAN STRATEJİ TƏRƏFDAŞLIĞA VƏ ETİMADA GEDƏN YOL» mövzusunda

BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANSIN MATERİALLARI

Bakı, 16-17 sentyabr 2026-ci il

***

Yığım operatoru:

Anjelika Əliyeva